# SƏMƏD VURĞUN HAQQINDA YAZILMIŞ ŞEİRLƏR

## A.KƏMALƏ

### VURĞUNUN XATİRƏSİNƏ

Bilmirəm kim dedi, böyük sənətkar,
Ömrünün son çağı qocalmısan sən?!
Yox, dumana bənzər gümüş saçında
Qalxıb zirvələrə ucalmısan sən.

Bizim qədirbilən sənət bağımız,
Zərif güllərini səndən alıbdır.
Vaqif bu gün sağdır, səhnəmizdədir,
Gənclik illərini səndən alıbdır.

Bahar qucağında zəmanəmizdə,
Parlaq bir ləl kimi dayanmısan sən.
Ömrün az olsa da dünya üzündə
Dünyanın ömrünü qazanmısan sən.

Məzarın önündə dayanmışam mən,
Ey şirin nəğmələr deyən müğənni.
Yenə inanmıram bu yatan sənsən,
Həmişə könlümdə görürəm səni.

Yox, sən nə ölmüsən, nə  qocalmısan,
Cavanlıq yenə də sənin yarındır.
Qəlbinin vurğusu, döyüntüləri,
Musiqiyə bənzər misralarındır.

## AĞA LAÇINLI

### SƏMƏD VURĞUNA

Heykəli önündə gül açsa da yaz,
Üşütdü qəlbimi buzu həsrətin.
Sığınıb qoynuna isindim bir az,
İsinmək asandır, isitmək çətin.

Sandım ki, zirvəyə qartal qonubdur,
Siz elə bilməyin o yorulubdur.
Vurğun ölməzdir ki, tunca dönübdür,
Ölməzdir o tunc ki, Vurğun olubdur.

*Abdulla Şahmir*

## NƏ YAXŞI VURĞUN VARMIŞ

*XX əsr poeziyamızın bayraqdarı, xalq*
*şairi S.Vurğunun 100 illiyinə.*

Yenə yolum düşdü Muğan düzünə,
Tək-tənha dalaşdım çölü-çəməni.
Vuruldum ceyranın qumral gözünə
Xəyal uzaqlara apardı məni.

Güllər çiçək açıb, əl edir Bahar,
Ətri də başqadır bu ilki yazın.
Gözümün önündə durur sənətkar
Gör necə yeridir sehirli sazın.

Rast gəldim Vurğunun ayaq izinə
Ceyranlar hürküşüb məndən qaçdılar.
Qocalar həsrətlə baxıb üzümə,
"Şəhərli ovçu"dan söhbət açdılar.

Düşdüm gah yağışa, gah da ki, çənə,
Şirin xatirəyə saldım meylimi.
Bir uşaq astadan söylədi, mənə,
O böyük şairin "Ceyran" şeirini.

Belə gözəl vaxtda, bu yaz günündə
Şair gəzən yerə bir daha dəydim.
Vurğunun o ölməz ruhu önündə
Böyük ehtiramla yenə baş əydim.

Belə düşünürəm, inanın hərdən,
Dünya şairlərə həmişə darmış.
İndi lap ürəkdən deyirəm ki, mən
Nə yaxşı həyatda Vurğun da varmış.

O gözəl diyarda, Muğan elində,
Qurbanlar kəsdirək, quzular soyaq.
Çiynində tüfəngi, qatar belində
"Şəhərli ovçu"ya bir heykəl qoyaq.

*Adil Ağazadə*

**BƏS, HANI VURĞUN?!**

Gəzdim qarış-qarış ana torpağı
Muğan dilə gəldi, Mil dilə gəldi!
Ötdüm şənliklərdə aşıqsayağı
Mizrab dilə gəldi, tel dilə gəldi!..
Bəs, hanı Vurğun?!

Açdım qapısını elin, obanın,
Daddım tikəsini düzdə çobanın,
Duydum gözlərindən ana ceyranın,
Səma dilə gəldi, çöl dilə gəldi!..
Bəs, hanı Vurğun?!

Kəsdi qabağımı düzlərdə lalə,
Başımın üstündən axan şəlalə,
Qəlbimi göynətdi acı bir nalə,
Çiçək dilə gəldi, gül dilə gəldi!..
Bəs, hanı Vurğun?!

Durdu göz önündə zavallı Humay,
Yerlə yeksan olan o qanlı saray,
Göylərin buludu saldı min haray,
Yağış dilə gəldi, sel dilə gəldi!..
Bəs, hanı Vurğun?!

Yoxdur rahatlığım qan sızır yaram,
Mən belə ürəklə çox yaşamaram,
Fələyin hökmünü qamçılayıram,
Ocaq dilə gəldi, gül dilə gəldi!..
Bəs, hanı Vurğun?!

Yenə gözlərimdə gilələndi yaş,
Diz çökdüm torpağa mən yavaş-yavaş,
Ürək də sinəmdə dönüb oldu daş,
Aləm dilə gəldi, el dilə gəldi!..
Bəs, hanı Vurğun?! **_1986-cı il_**

## CEYRAN

Çoxları ceyrana tərif deyibdir,
Dillərdə əzbərdi sözü ceyranın.
Təbiət əzəldən sürmə çəkibdir,
Hər şeydən gözəldir gözü ceyranın.

Xəzan dəymiş yarpaq kimi solubdur,
Şirin canı eşq oduna salıbdır,
Balası səhrada yalqız qalıbdır,
Yenə kədərlidir üzü ceyranın.

Aşıq Göyçə, adın çıxa hər yerə,
Niyə qərq olubsan qəmə, kədərə,
Zamana Vurğunu bir də yetirə,
Yaza tərifini özü ceyranın.

## AŞIQ KAMANDAR

SƏMƏD VURĞUNA

Bəxtiyardı ölkən sənin,
Dur bir dolan, gəz, Vurğunum!
Qoy susmasın şah qələmin,
Yenə yarat, yaz, Vurğunum.

“Ayrılarmı könül candan”,
Bu səs gəlir hər bir yandan,
Doğma anan Azərbaycan
Sənə verir söz, Vurğunum.

Gəlib qələm yoldaşların,
Neçə şair qardaşların.
Çox dalğındı sirdaşların
Kürsüyə çıx tez, Vurğunum.

Ölkələrdən qonağım var,
Çoxmillətli yığnağın var.
Qoy dil açsın xoş arzular,
Sözdən inci düz, Vurğunum.

Heç unutmaz illər səni,
Yada salar ellər səni,
Sənsən könüllər məskəni,
Sözü bahar, yaz Vurğunum.

İlhamısan aşıqların –
Bir dünyadı “Tək məzar”ın.
Ceyhun çəkər ahu-zarın,
Sinəsində saz, Vurğunum.

*AŞIQ ŞƏMŞİR*

**BİR DƏ GƏL**

Çəkir həsrətini bizim Kəlbəcər,
Böyük şair, şən dağlara bir də gəl!..
Dedin: “Vurğun demə gəldi-gedərdi”.
Verdiyin düz ilqara bir də gəl!..
Gəl, səni gözləyir Ceyran bulağı,
Şeirinlə bəzənir ellər yaylağı,
Gəl, ol, İstisuyun yenə qonağı,
Əməl elə etibara, bir də gəl!..

Sözün də, şeirin də sənətkarısan,
Xalqın istəklisi, el vüqarısan,
Nizami yurdunun yadigarısan,
Minnətdarıq sənətkara, bir də gəl!..
Şairi çağırır, gül, çəmən, lalə,
Fərağın gör məni salıb nə halə...
Şəmşir də çəkməsin heç möhnət, nalə,
O gəzdiyin oylaqlara, bir də gəl!..

*AŞIQ MURAD NİYAZLI*

## GƏLMİŞƏM

***Qazaxda Səməd Vurğunun***
***şeir muzeyinin açılışı münasibətilə***

Salamlar gətirib Şəmkir elindən,
Könül açan bir bahara gəlmişəm.
Vaqifin, Vurğunun doğma kəndinə,
Şənlik üçün bir diyara gəlmişəm.

Gecə keçir karvan çöllərində dan,
Bəşərin üzünə nur səpir dövran.
Məhəbbət eşqiylə yaşayır insan,
Doğru sözlə, düz ilqara gəlmişəm.

Araz tək axmışam, Kür tək aşmışam,
Tufanlı yol gedib, dağlar aşmışam.
İstəkli dostlarla qucaqlaşmışam,
Xoş niyyətli arzulara gəlmişəm.

Sanki günəş doğdu bahar çağında,
Alqışlar ucaldı el dodağında.
Dahi sənətkarın şeir bağında,
Ətir saçan güllüzara gəlmişəm.

Murad ilham alır Vətəndən, eldən,
Yazdığı nəğmələr düşərmi dildən?
Keçərək Gəncədən, Muğandan, Mildən,
Gül-çiçəyi yara-yara gəlmişəm.

***AŞIQ YADULLA***
*( Cəlilabad )*

## VURĞUNUM

Gözəl şeirlərin dillərdən düşmür,
Əlçatmazdı istedadın, Vurğunum.
Sən elə vuruldun, el səni sevdi,
Bu el oldu sənin ilk ustadın, Vurğunum.

Qarış-qarış gəzdim bizim elləri,
Şeirinə hopmuşdu ətri güllərin.
Qonağı olanda doğma ellərin,
Bilinməzdi dostun, yadın, Vurğunum.

Yadulla ilhamı şeirindən aldı,
Səni hər qoşmada yadına saldı.
Şan-şöhrətin ucaldıqca ucaldı,
Qalacaq dünyada adın, Vurğunum.

# SƏMƏD VURĞUNA

(Ad günü münasibətilə)

Ürəyimdə çoxdur söz,
Ancaq deyə bilmirəm.
Qəlbim deyir hələ döz,
Əməl edə bilmirəm.

Səməd Vurğun deyəndə,
Tutulur mənim dilim.
Fikri xalqa deyəndə,
Qəmimi necə silim.

Heykəlin qarşısında,
Duruxuram mən bu gün.
Tədbirlər arasında,
Ağır gəlir mənə gün.

Mənə ən çətin olan,
Dahi haqda deməkdir.
Əlaclarımdan qalan,
Yalnız onu sevməkdir.

Mənim şair əzizim,
Fəxrimizsiz siz bizim.
Yeriniz nurla dolsun,
Sizə rəhmətlər olsun.

***Aleksandre Kutateli***
*Gürcüstan*

## *SƏMƏD VURĞUNUN XATİRƏSİNƏ*

Vurğun öldü, ay ellər, soldu sənətin gülü,
Susdu Azərbaycanın nəğməkarı, bülbülü.
Əklillər cərgələnmiş kədər dolu salona,
Hey gəlir bakılılar, gəlir kədərli-qəmli.
Gəlir əlvida desin öz sevimli oğluna
Ağbirçəkli analar qara gözləri nəmli.
Gözlər şairə baxır, dümağ ağarıb üzü.
Şiraz qızılgülünə oxşayır ağ əlləri,
Bu əllərlə yaranıb zamanın şah əsəri.
Alnı geniş açılıb ləkəsiz göylər kimi,
Uyuyub döyüşlərdən çıxmış bir əsgər kimi.

Vurğun öldü, ay ellər, soldu sənətin gülü,
Bir el qəm dəryasında qalıb boynu bükülü, –
Şairin tabutunun dörd yanını bürüyüb,
Göy Xəzərin üzünü dalğalar bürüyəntək.
Matəm paltarı geyib, qara çuxa bürünüb,
Elə bil yas saxlayır neçə min mərmər dirək.
Keçib göy xiyabandan, əyri-üyrü dalandan,
Ağı deyib ağlayır aşıqların sazları,
Çadrasız anaların qara gözlü qızları.

Vurğun öldü, ay ellər, soldu sənətin gülü,
Dinləyib, daşıyırıq  Şopenin qəm yükünü.
Bu yas mənim yasımdır, fəxri keşikdəyəm  mən,

Ah, nələr gəlib keçir bu gürcü ürəyimdən!
Düşünürəm, o şair bir də gəlməz cahana,
Şeir-sənət gülzarı yaman qaldı virana.
Yetim qaldı mahnılar...Yox, şeirin üz dönməz,
Bu eldə, obada sənətin odu sönməz.
O gedir, ana yurdu qalır güllü-çiçəkli,
Bir də sevimli xalqı – coşğun, şair ürəkli.

Xəzərin sinəsində, göyərçintək ləpələr,
Ləpələri əsən yel hər tərəfə səpələr –
Şairin ağ dalğalı gümüşü saçı kimi.
Tufana sinə gərən bir sərv ağacı kimi
Dayanmışam, qəbrinə dikilibdir gözlərim,
Pərən-pərən olubdur deyiləsi sözlərim.
Ağı deyən bir xalqın səsini dinləyirəm,
Qəlbimdə ağlayıram, qəlbimdə inləyirəm.
Səs gəldi radiodan, mətin, inamlı bir səs,
İsitdi ürəkləri doğma, tanış bir nəfəs.
Bir an təsəlli tapdıq, ürəkdə hicran odu,
Dağ vüqarlı sənətkar  dağ başında uyudu.
Rəhimovun[1] səsidir, o danışır inamla:
“Kim deyir öldü Vurğun, soldu sənətin gülü,
Kim deyir ötməyəcək Azərbaycan bülbülü?!
Mənim mehriban xalqım, heç vaxt buna inanma!
Nəğmələri torpaqdan göyərəcək ot kimi,
Yer üzünü dolaşır onun neçə nəğməsi,
Onlar adi nəğməmi?  Yox, şairin öz səsi!
Qumlu sahillərdə biz yeni bağlar salanda,

Abşeronun qoynunda dostlar qonaq qalanda
O, bizimlə olacaq – dostların arasında,
Qurub-yaradanların yenilməz  sırasında.
Yox, ölmədi, ölmədi şeirimizin Səmədi,
Ölməz onun dühası, ölməz onun sənəti.
Aşıqların sazında ucalacaq nəğməsi,
Əsrlər arxasından gələcək onun səsi!”
El tapşırdı torpağa şair oğlu Səmədi,
Gözlərdə yaş qurudu, hamı susdu, dinmədi.
Mən də köhnə cığırla Dağüstü parka qalxdım,
Ordan şəhərə baxdım.
Xəzər qəm yükü altda coşurdu, kükrəyirdi,
“Vurğun əbədiyyətə qovuşubdur” – deyirdi.
1

[1] Azərbaycanın xalq yazıçısı Suleyman Rəhimov nəzərdə tutulur.

# DÜNYA

Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya...

Əldən - ələ keçir vəfasız həyat,
Biz gəldi gedərik, sən yaşa, dünya!
Səməd Vurğun

Omu səni yordu, yoxsa sən onu?
Çıxmısan Zamanla yarışa, dünya!
Hay-küy qalmaqalda qalmır bir an da
Tanrıya təkbətək, baş-başa dünya.

Zahirin al-əlvan, baxçadı, bağdı
Dənizdi, meşədi, arandı, dağdı
Beş günün qaradı, beş günün ağdı
Kədərlə sevincin ey qoşa dünya

İllər bir-birindən keçirlər ağır,
Gözlər kor olubdu, qulaqlar sağır;
Yerdən öd püskürür, göydən od yağır,
Az qalır odlara alışa dünya

“Bir yandan boşalır, bir yandan solur”,
Bir yandan cücərir, bir yandan solur.
Həyatın gərdişi bax belə olur –
Yaşayır dalaşa – dalaşa dünya.

“Biz gəldi gedərik”, dünya qalandı,
Kim bilir doğrudu, yoxsa yalandı.
İnsanı yüz cürə dərdə salandı –
Axır döndərəndi bir başa dünya!

***Andris Veyan***
Latviya

# *Yox, şair ölməyir bizim dünyada*

(Səməd Vurğun)

Şair də ölərmi? – dedim özümə,
Açdım kitabını – dağlardan əsən
ətirli yaz mehi vurdu üzümə.
Göründü göy Xəzər, Bakı bağları,
Ağ pambıq çölləri yenə gözümə.

Yox, şair ölməyir bizim dünyada,
Bizə qanad verir onun sənəti.
Qızıl şəfəqləri o salır yada,
Coşdurur qəlbləri şeirin qüdrəti.
Könüldə oyadır ilk məhəbbəti...

Yoxdur şairlərə ölüm, bilirəm,
Səpdiyin toxumlar gül açacaqdır.
Səni yad edəcək nəğməylə aləm.
Sabah lazım gəlsə yenə şeirin
Bizi döyüşlərə çağıracaqdır!

Bilirəm, ölməyir şair cahanda,
Tufanda yorulan dincəlir ancaq
Badam ağacları çiçək açanda...
Alovlu şerinlə dolu piyalən
Yüz illər keçsə də boşalmayacaq!

*Arif İbadov*

## Mən Vurğun şeirinin öz vurğunuyam

Zülmətlər qoynundan parlıyıb çıxan,
Lapdan havalanmış şimşək tək çıxan,
Düşmənə dağ basıb, yandırıb-yaxan,
Dəstə-məlhəm olan söz vurğunuyam.
Mən, Vurğun şeirinin öz vurğunuyam.

Mənsur tək qollarım qandallansa da
Nə dosta əyilləm,nə də ki, yada.
Çünki mən əzəldən bu gen dünyada
Qəlblərdən silinməz iz vurğunuyam.
Mən, Vurğun şeirinin öz vurğunuyam.

Hər zərif musiqi, hər incə şərqi
Ömrümə-günümə min məna verdi,
Qəlb-zövqü bu iki vəhdətdə gördü,
Muğamat hərisi, saz vurğunuyam.
Mən Vurğun şeirinin öz vurğunuyam.

Bir sözü qəlbimə olsa da məlhəm,
Qəmzəsiz gözələ-canan demərəm.
Mənim nəzərimdə başqadır aləm,
İşvə dəlisiyəm, naz vurğunuyam,
Mən Vurğun şeirinin öz vurğunuyam.

Həsrətlə ayrılıq kaş olmayaydı,
Ömürdən boş keçən yaş olmayaydı,
Gülzarı qəhr edən qış olmayaydı,
Mən bahar təşnəsi, yaz vurğunuyam,
Mən Vurğun şeirinin öz vurğunuyam.

Deməyin çox vədə tənha gəzirəm,
Arifəm, hər şeydə məna gəzirəm.
Atəşəm, bir badi-səba gəzirəm,
Gül altda qovrulan köz vurğunuyam,
Mən -Vurğun şeirinin öz vurğunuyam.

**ATİF ZEYNALLI**

## NƏ GÖZƏL YARAŞIR MUĞANA CEYRAN

Otu ayaqladım, çiçəyi əzdim,
Gəldi Araz kimi tüğyana Ceyran.
Vurğunu soruşdum, Vurğunu gəzdim,
Baxdı həsrət-həsrət arana Ceyran.

Hər cığır şairin ayaq iziydi,
Ətrafı lalədən qan dəniziydi.
O ki, ürəyinin ən əziziydi,
Qoyub getdi səni hayana, Ceyran?

Eşqi dərya idi, vüqarı dağdı,
Tüfəngi qəzəbdən, kindən uzaqdı,
Hər payız, hər bahar sənə qonaqdı,
Fərəhi sığmazdı dastana, Ceyran.

Nəğmələr deyərdi dili, ağızı,
Kollar qələmiydi, düzlər kağızı,
Hər ürkək baxışlı gəlini, qızı,
Bil ki oxşadırdı ceyrana, Ceyran!

Ceyran gül göləndə elə bil üzdü,
Yay kimi əyilib, ox kimi süzdü,
Vurğunun bu sözü necə də düzdü,
"Nə gözəl yaraşır Muğana Ceyran".

## AYAZ VƏFALI

### DUZ - ÇÖRƏK KİMİ
SƏMƏD VURĞUNUN EV MUZEYİNDƏ

Bu evə ilk dəfə qədəm basdığım,
Yaxşı yadımdadır, bacım Aybəniz!
Sanki Vurğun idi qulaq asdığım, -
Onu o gün evdə görməsək də biz.

54- cü il... köç edirdi yay;
Beş-on tələbəydik yaxın, səmimi.
Güclə içirtdiyin bir stəkan çay,
Qalıb xatirimdə duz-çörək kimi.

Şairin mənzili... qələm-dəftəri, -
Mənimçün bilmirəm yuxuydu, nəydi?!
Masanın üstündə nə vaxtdan bəri,
Bitməmiş şeirlər gözümə dəydi.

Gördüm "Unudulmuş tək məzar"ı mən,
Nə qədər düzəlib, pozulmuşdu o?!
Unuda bilmirəm onu o gündən,
Necə də gör çətin yazılmışdı o!

"Ağıllı söz, yaxşı şeir
Yazmışammı? Varsa, hanı?
Gördüm qoca doğru deyir,
Uçdu könlüm xanimanı".

Etiraf idimi, yoxsa vəsiyyət?!
Şairin can evi nə viran idi!..
Əzirdi könlünü hansı əziyyət?
Niyə yazdığından nigaran idi?..

O, sehr bilirdi sənəti, sözü,
Şerin əfsununa bəslərdi güman;
Nə ola bir anlıq eşidə bizi,
Qalmaya şerindən əsla nigaran!

Belə ki qədrini bilir bu ellər;
Ellərdi yenə də könül pənahı.
Şairin nəfəsi duyulan yerlər, -
Olub şeir, sənət ziyarətgahı!

54-cü il... köç edirdi yay;
Beş-on tələbəydik yaxın, səmimi.
Güclə içirtdiyin bir stəkan çay,
Qalıb xatirimdə duz-çörək kimi.

***AZAD TALIŞOĞLU***

İlk dəfə əlinə qələm alandan,
Çıxdı min sınaqdan, min imtahandan,
Yandı, alovlandı, sönmədi heç an
Atəşi Vurğunun, közü Vurğunun.

Hər dosta, həmdəmə  o qardaş oldu,
Əhdini pozmayan mərd sirdaş oldu.
Bütün məclislərdə daim baş oldu
Sənəti Vurğunun, özü Vurğunun.

Hər yeni şeirni ilhamla dedi,
Daima ucaldı, heç an enmədi,
Haqqın düz yolundan geri dönmədi,
Doğrusu Vurğunun, düzü Vurğunun.

Əsl xeyirxahdı, əsl mehriban,
Tamahı yox idi dünya malından,
Ən çətin gündə də tox oldu hər an,
Ürəyi Vurğunun, gözü Vurğunun.

Bütün könülləri məftun elədi,
Ömrünə, gününə şəfəq ələdi,
Hamıya firavan həyat dilədi
Söhbəti Vurğunun, sözü Vurğunun.

Qəlbində iftixar, alnında vüqar,
Gəzdi kainatı o diyar-diyar,
Hünər meydanında daim yaşayar
Cığırı Vurğunun, izi Vurğunun.

## BAKİR

QƏZƏL

Nəğməylə dinib, şer ilə gəldin dilə, Vurğun.
Bənzərdi təbin dağdakı coşğun selə, Vurğun.

Qəlbində Nizami, elimin Vaqifi oldun,
Şerinlə yaratdın nə gözəl silsilə, Vurğun.

Doldu o geniş qəlbinə saf sevgisi xalqın,
Sevdim bu vətən mülkünü, oldun elə vurğun.

Bülbül səni gördükdə baxıb qibtə edərdi,
Səndin bu gözəl gülşənimizdə gülə vurğun.

Sən xalqımız üçün neçə söz mülkü yaratdın,
Öz ömrünü boş verməmisən sən yelə, Vurğun.

Bəzən dönərək ovçuya, ceyranları sevdin,
Oldun sən əzəldən Muğana, həm Milə vurğun.

Ölməz Vətən eşqilə yazanlar, yaradanlar,
Minlərlə könül fəth edəcəkdir hələ Vurğun.

Bakir, dolanıb hər nə qədər keçsə də illər,
Şöhrət tapacaqdır, yenə ildən-ilə Vurğun.

**BALAŞ AZƏROĞLU**

## BÖYÜK ŞAİR S. VURĞUNUN 50 İLLİYİNƏ

Deyin ki, bihudə axtarmasınlar,
İncini dəryada, dənizdə, şair.
Sözdən qucaq-qucaq incilər yatır,
O, ümmandan böyük qəlbində, şair.

Sinəni kürsüyə söykəyəndə sən,
O doğma oğluyla fəxr edir Vətən.
Bir bahar selitək gurlayan nəğmən,
Əks edir hər dağda, hər düzdə, şair.

Mənim kitabımı yandırdı yadlar,
Sən oldun ilk dəfə mənə havadar.
Gurladı könlümdən keçən arzular,
Yazdığın alovlu hər sözdə, şair.

Qəlbimdə yurd salıb min söz, min dilək,
Bu el arzusudur, mən demirəm tək,
Sənin yüz yaşını bayram eləyək,
Mənim ana yurdum Təbrizdə, şair.

*Barat Vüsal*

**QÖNÇƏ GÜL**

(Səməd Vurğunun xatirəsinə)

Haraya tələsir o cavan oğlan,
Tutub əllərində bir dəstə gülü.
Intizarduyulur baxışlarından,
Qara telləri də yana tökülü.

Maşında, piyada ötənlər baxır,
Bu hal görünməmiş halmı Bakıda?
Oğlan küçələrlə yuxarı qalxır,
Qalır arxasında sahil parkı da.

Sevgi görüşünə tələsmir deyə,
Çıxır bir nəfəsə yoxuşları da.
Ötüb keçənlərə baxmayır nədən,
Nədəndi, tutqundu baxışları da?

Deyin, haradadır Fəxri Xiyaban? –
Soruşur birindən o, həyəcanla.
Fəxri Xiyabana girdiyi zaman
Ürəyi doyünür qapqara qanla

Qöncədir,acmayıb güllərin biri,
Vurqunun məzarı üstünə qoyur.
Burda necə desin ,illərdən bəri
Bir qöncə ürəkli şair uyuyur.

Təsəlli istəyir könül bahardan,
Kim deyir sevincdə qəm də sezilmir?
Baharı çox sevən sənətkar insana
Baharın səsinə səs verə bilmir.

Hamı onu gordu,cavan bildimi?
Hamı bir kədəri duyub gedirdi.
Məzara qoyduğu qöncə güldümü
Yox,yox,urəyiydi,qoyub gedirdi

***BORİS OZYORNI***
*Rusiya*

## *SƏMƏD VURĞUNUN XATİRƏSİNƏ*

Gör necə torpaqdır,
Həm sərt, həm möhkəm.
Ətrafda sakitlik...
Barı bir söz de sən.
Eşidirsən?
Salam, Səməd!
Gəlmişəm ki, mən
Səninlə görüşüm,
Səməd, yenidən.
Çoxdandır səninlə
Görüşməmişik.
Beləmi istərdik?
Bir cavab ver sən.
Əfsus ki, susursan,
Eşitməyirsən.
Eh, səsimə ancaq
Səs verir külək,
Uçur dəniz boyu,
Dinir nəğmətək.
Səhər...
May səhəri...
Dənizin üzərində
Oyanmış günəşin
Şəfəqləri,
Uzaqda uçurdu
Gümüşü təyyarə.
"Bu həyatdır, –
Onda səadət də,
Kədər də var.
Hansını götürək? –
Bilməkmi olar".
Sən belə deyirdin,
Onda sübhə kimi oturmuşduq biz,
Şeir oxuyurdu ürəklərimiz.

Papiros çəkirdik biz yenə,
Qəvvas olub baş vururduq
Ürəklərin, dünyanın sirlərinə.

Yazıçılar qurultayından sonra
İkilikdə qaldıq biz
Bir gün Moskvada.
Bakını görməyi arzuladım,
Bakı düşdü yada.
Mən gəlmişəm, Səməd!
Coşub-daşan dənizi
            Cilovlayaraq
Çapartək gəlmişəm bax!
Çata bilmədim... Gecikdim...
Həyatın uçan ulduztək alışdı, yandı.
Ah, hələ nə qədər yaza bilərdin.
Arzuların, işlərin dayandı,
Ölüm bədəninin odunu,
            istisini aldı.
Fəqət, ürəyini ala bilmədi.
İndi ürəyin bir qartaldır.
Yox, Səməd ölmədi,
Yaşadı adı.
Ölüm gəldi, fəqət ona

Gücü çatmadı.
Yaşasın Səməd gərək,
Nizamitək, Vaqiftək.
Rus adətinə görə,
Buğda atıram qəbrinə,
Qoy, xeyirxahlıq sünbülü ilə
Günəşli həyata can atsın yenə.
Gedirəm, qəlbimin bir parçasını
Qoyub gedirəm fəqət.
Görüşə kimi, Səməd!
Görüşə kimi,
            Eşidirsənmi, Səməd?!

Qarşımda yenə
Sınaqdadır yollar.
Uzaqlar çağırır...
Qulaq asıram səsinə.
Daha da ehtirasla,
Daha da çox yazmaq lazımdır indi.
Bu da, ay Səməd,
Sənin vəsiyyətindi...

## İBRAHİM ORUC

### USTAD

Gözə görünürəm divanə kimi,
Qəlbim sənsiz əsir bir nanə kimi.
Məzarın üstündə pərvanə kimi,
Alışa-alışa yanıram, ustad!

Şerin sıldırımlı dağ-dərəsində,
Gözə asan gələn mənzərəsində.
Sən qoyub getdiyin söz kürəsində,
Çalışa-çalışa yanıram, ustad!

Qeyrət də, qüdrət də hopub qanına,
Min alqış sabahın qəhrəmanına.
Şerinlə sənətin söz ümmanına,
Qarışa-qarışa yanıram, ustad!

Ata-babaların şirin sözündə,
Səninlə öyünən xalqın özündə,
Hissimin, duyğumun yanar gözündə,
Mən öz Vurğunumu anıram, ustad!

*BƏŞİR KƏSƏRLİ*

## SƏMƏD VURĞUNUM – ZİYARƏTGAH...

İlahi ünvanı, ilahi gözlər, ilahi gözlər,
Üstündən əskilməz, ilahi gözlər
Baş-başa gələrdi, çaylar, dənizlər,
İlahi qonaqlar, ilahi izlər.
Vurğunun keçdiyi cığırlar, izlər,
Bir sual qalmayır, şərhə, izaha,
Eşqindən söz açır hər iz, hər kaha,
Özü çıxmasa da nurlu sabaha,
Dönübdür əbədi ZİYARƏTGAHA!

Nəs aylar dolaşır, nəs illər gəlir,
Ümmanlar səs salır, fəsillər gəlir.
Cahana sığmayan gur sellər gəlir,
Sənət ocağına, söz qibləsinə,
Şeir allahının məqbərəsinə,
Dünyanın hər yerindən nəsillər gəlir.
Qərənfil dil açır, tər güllər gəlir,
Bəzisi hindəndir, bəzisi ABŞ-dan
Bəzisi Uyğurdandır, bəzi Həbəşdən,
Bəzisi Yəməndəndir, ya Budapeştdən,
Bəzisi Londondan, Çindən, Viləşdən,
Bir zaval qalmayır şərhə, izaha,
Ünvanın dönübdür ZİYARƏTGAHA!...

Deməyin Vurğunun yanağı solub!
Üfüqlər çatılıb, səmalar dolub!
Hər sözü, kəlməsi bir muzey olub,
Saçları əbədi qar-qüzey olub!
Ürəklərdə dərin məhəbbəti var,
Bəşərin bu ada çox heyrəti var.
Şərəfi, şöhrəti, mehriyyəti var,
Kəsərli vurğundu sənə qəlbindən,
Nəsillər dərs alır hər öz əməlindən,
Özü çıxmasa da nurlu sabaha,
Vurğunum dönübdür ziyarətgaha,
Ünvanı türbəsi - ZİYARƏTGAH!

*BİSAVAD TEYMUR*
*( Goranboy )*

**AĞLADI**

Səməd Vurğun dünyadan köçəndə,
Matəminə cümlə-cahan ağladı.
Ölüm sədasını eşidən zaman,
Ah çəkdi hər tərəf, hər yan ağladı.

Kimsə bu dünyadan ummasın vəfa,
Səfası mindirsə, min birdi cəfa.
Təbiblər dərdinə tapmadı şəfa,
Dərd fəğan eylədi, dərman ağladı.

Düşündü şairi, ağladı həyat,
Hıçqırıq qopardı bütün kainat.
Açdı sinəsini mavi səmavat,
Aşkara hönkürdü, pünhan ağladı.

Onun tabutuna baş əydi dağlar,
Çırpındı meşələr, döyündü bağlar.
Çaxdı ildırımlar, qopdu tufan, qar,
Şimşək şivən qopdu, duman ağladı.

Ağladı qayalar, ağladı daşlar,
Güneylər, quzeylər, yallar, yamaclar.
Dənizdə balıqlar, havada quşlar,
Göydə buludlar da yaman ağladı.

Min xəbər tutduqda macərasından,
Şeir, qəzəlləri gəldi yasından.
Yazıb-yaratdığı poemalardan,
“Aygün” nalə çəkdi, “Muğan” ağladı.

Böyük Nizamidən qalan yadigar,
Vurğuna həsr oldu, o ləli-gövhər.
Qəmli köynəyini geydi tək məzar,
“Talıstan” yaş tökdü, “Dilcan” ağladı.

Bisavad, çətindir ayrılıq, cada,
Ağladı hava da, torpaq da, su da.
Əlvida şair, əlvida, yenə əlvida,
Tarix vidalaşdı, zaman ağladı.

**BƏXTİYAR VAHABZADƏ**

## AYRILIR

Şirin nəğməkarı elin, obanın,
Obadan ayrılır, eldən ayrılır.
Tərlan asimandan, qartal qayadan,
Aşığın mizrabı teldən ayrılır.

Dumana büründü vəfalı dağlar,
Ceyrana deyin ki, Muğan qan ağlar,
Ona tərif deyən böyük nəğməkar,
Muğandan ayrılır, Mildən ayrılır.

Qələmi durmadı bir an şairin –
Göy kimi boşalıb, dolan şairin.
Səsi bu çöllərdə qalan şairin
Ayağı dərədən, çöldən ayrılır.

Yas tutub Vurğuna bu Araz, bu Kür,
Bu gün ağlamasın qoy hönkür – hönkür.
Min - min ömürlərə qovuşan ömür,
Bu gündən, bu aydan, ildən ayrılır.

Böyük şairimiz Məmməd Arazın S.VURĞUNUN 60 illik yubileyinə həsr etdiyi möhtəşəm bir şer.

SƏMƏD VURĞUNLA SÖHBƏT
(60 illik yubiley günündə)

Bağışlasın məni bəzi oratorlar,
Bu gecəyə bir azacıq əlavəm var.
Mən də şerin xidmətçisi,
Mən də şerin yiyəsiyəm.
Var sözümü bir məzarın
Qulağına deyəsiyəm:
Tərif, tərif səhnə dolu-yetməz sona!
Alqış, alqış! Az qaldı ki, tavan sına!
Sən gəlmədin bu axşama, səsin gəldi,
Səsin əzəl qulağıma həzin gəldi,
Sonra bir az nəfəsinə qüvvət gəldi,
Çox xəbislər elə bildi Səməd gəldi:
Ön sırada titrədilər, Ön sırada büdrədilər.
Lent qurtardı, nəfəs dərib, “ox”- dedilər...
Çox “vəfalı dostlar”ın da O gecədə yoxdu ancaq;
Bilirdilər Səməd bir də Məruzəçi olmayacaq.
Fəqət mənim deyəcəyim bunlar deyil.
Sənə məchul həqiqətdən sənə deyim:
Səndən sonra səni bir az silkələdik,
Çox aradıq, çox çevirdik, çox ələdik.
Böyüklərin faciəsi böyük olur.
Böyüklərin nöqsanları
Çiyinlərdən çətin enən bir yük olur.
Sağ olsaydın çox nidalı sətrini sən,
Çırpıb yerə, ayaqlardın.
Biz saxlayan çox şeyləri
Az güman ki, sən saxlardın.
Sənin sənət dəftərində Bunlar kiçik nöqtələrdi.
Bunlar çoxu möhürlənmiş diqtələrdi.
Şöhrətinə qibtəkar da
Bu “təftişi” saldı səsə: Sevincindən az qaldı ki,
Övladını qurban kəsə,Bəzisi də üzdə sənin tərifini dil-dil ötdü,
Daldadasa, sağlığında min yol sənə dahi deyən,
Öz kölgəndə yallanaraq zingildəyən
Nankorları sapand etdi.

Səndən sonra Şerimizin xəritəsi təzələşib,
Ona yeni şer adlı çox şəhərlər, kəndlər düşüb,
Yeni-yeni çaylar, göllər, bəndlər düşüb.
Hələ tədqiq olunmamış dərdlər düşüb.
Yeni dağlar, dağ zirvəsi yoxdur hələ,
Yeni tənqid zəlzələsi yoxdur hələ.
Səndən sonra tənqid bir az yuxalıbdır.
Yaxşı-pisin çəki daşı yoxalıbdır.
Səndən sonra Şerimizə təzə-təzə yollar gəlib,
Bəzən isə Şerimizə qol olmayan qollar gəlib.
Səndən sonra cavanlara vədlər artıb,
Vədlərin də iki misli sədlər artıb.
Bəziləri gözündə bu salxımlanan həqiqətə gözü kordur.
Bəzisi də Çəkişmələr konsertinə dirijordur...
Nə gizlədim, həqiqəti şax deməyin,
Doğru sözün “səni” çatmır.
Atmacalar güllləmizin “səni” çatmır,
Səndən sonra Görüşlərin hərarəti sənsizləşib,
Kürsülərin cəsarəti sənsizləşib,
Ağsaqqallar səxavəti sənsizləşib!...
Mən saymadım sənsizləşib daha nələr,
Axı niyə sənsizliyi gizlədələr!...
1966.

## VURĞUNUN EV-MUZEYİNDƏ

Burada yüzlərlə eksponat var,
Səssiz, hərəkətsiz filmdir sanki.
Belə genişlikdə, belə sükutda,
Şair yaşamışdır inanırsan ki.

Burada hər əşyaya, şəklə baxdıqca,
Xəyallar fövqündə fikrim yüksəldi.
Bələdçı açanda maqnitofonu,
Elə bil şairin özü də gəldi.

Otaqda-otağa adladıqca mən,
Ümidlərim oldu burda çin kimi.
Şairin ruhuyla sanki birləşib,
Uçdum ölkə-ölkə göyərçin kimi.

1987

## QƏLƏM ARXADAŞIM SƏMƏD VURĞUNA

Ağ geyimli təpələrdən,
Gümüş telli ləpələrdən,
Ən uğurlu bir səhərdən
İmtahan verib gəlmişəm,
Salam gətirib gəlmişəm.

Mədənlərin təzə-təzə
Qızıllar çıxarır üzə,
Buruqları düzə-düzə,
Meşələr salıb gəlmişəm,
İlhamlar alıb gəlmişəm.

Böyükləşən doğma elin
Dilimidir sənin dilin?!
O möhtəşəm Kremlin
Hüsnünə baxıb gəlmişəm,
Üzü şən çıxıb gəlmişəm.

Qızlarımız uçur göyə,
Buludlar düşür hay-küyə,
“Azərbaycan” deyə-deyə,
Düşməni yaxıb gəlmişəm,
Ordeni taxıb gəlmişəm.

*CƏMİLƏ QULİYEVA*
*( Şəmkir )*

## VURĞUNUN XATİRƏSİNƏ

Neçə şair gördüm, şeir eşitdim,
Oxşarı tapılmır, hələ Vurğunun.
Hər sözü, kəlməsi kamandı, sazdı,
Çalınan bir neydi sözü Vurğunun.

Ceyranlar düzlərdə Vurğun gözləyir,
Qazaxda Göyəzən Vurğun gözləyir.
Qartallar zirvədə onu özləyir,
Silinməz dağlardan izi Vurğunun.

Əzrayıl çox vaxtsız kəsdi üstünü,
Yarımçıq saxladı şair ömrünü.
Gələcək nəsilə gələcək ömrü,
Daim yaşayacaq adı Vurğunun.

Uşaqkən sevdiyim, hər şeir, əsər,
Əbədi həkk olub beynimə mənim.
Demə Vurğun öldü, vaxt gəldi-gedər,
Yaşayır hər zaman  sözü Vurğunun.

**VURĞUN**

*Xalq şairi S.Vurğunun*
*anadan olmasının*
*100 illiyi münasibəti ilə*

İlk bahar günündə doğuldu Vurğun,
Sənət dünyasının baharı oldu.
Ucaldı, ən uca dağ oldu, Vurğun,
Ana yurdumuzun vüqarı oldu.

Tükənməz həvəslə yaratdı, yazdı,
Sözləri məsəl tək düşdü dillərə.
Yurdu gecə-gündüz dolandı, gəzdi,
Ürəkdən bağlıydı doğma ellərə.

Sevirdi, Muğanı, Mili, Şirvanı,
Qobustan sevimlioylağı idi.
Ötdü məhəbbətlə ömür karvanı,
Hər elin ən əziz qonağı idi.

Xalqla bir döyündü vurdu ürəyi,
Xalqın uğurları onun sevinci,
Oldu insanların dostu, gərəyi,
İlhamla yaratdı sözlərdən inci.

Əlli il yaşadı, cəmi əlli il,
Şeir dünyasının günəşi sevməz.
Zirvədə durmusan məğrur qartal tək,
Qartal zirvələrdənheç zaman enməz.

Nə qədər şeir var, söz dünyası var,
Vətən sevgisiylə coşacaq Vurğun.
Gələndə qaranquş gələndə bahar,
Bahar nəğmələri qoşacaq Vurğun.

**2006**

**DAVUD NƏSİB**

## BİR SƏMƏD ÖMRÜ

Gözlərin yollarda,
Qulağın səsdə.
Hələ deyilməmiş neçə söz qalıb.
Yazdığın şeirlər masanın üstə,
Bir Səməd ömrünə, şair, az qalıb.

Təmizlik –
Böyüklük möhürü, əmri,
Təbiət qəlbiylə belə saz çalıb.
Torpaq Səməd ömrü –
Yer Səməd ömrü –
Bir Səməd ömrünə, şair, az qalıb.

Ağaclar baş əyib bar verən vaxtı,
Heç vaxt düşünmə ki,
Dalda yaz qalıb.
Gözləmə ömrünə taleyi, bəxti.
Bir Səməd ömrünə, şair, az qalıb!

Gözləsən üstünə güləcək ilham,
Sinəndə xılt varsa,
Kənara hayla.
Gözləmə kənardan gələcək ilham,
Qəlbini silkələ,
Duyğunu ovla.

Bu yalan deyildir,
Yanlış deyildir.
Gör nələr eylədi,
Gör Səməd ömrü –
Torpağa oğul tək elə əyildi –
Ucaltdı göylərə bir Səməd ömrü.

Bir daha silkələ,
Özünü yoxla.
Torpaq – Səməd ömrü,
Yer – Səməd ömrü.
Əlli yaş deyildir, yadında saxla,
Bir xalqın ömrüdür bir Səməd ömrü!

***İDRİS HƏBİBOĞLU***
*( Tovuz )*

## MƏN DESƏM DƏ, DEMƏSƏM DƏ

Sizi həyat, el tanıyır,
Mən desəm də, deməsəm də.
Xoş nəğməli dil tanıyır,
Mən desəm də, deməsəm də.

Sözün şirin, fikrin dərin,
Səmimidir diləklərin.
Bəzəyidir ürəklərin,
Mən desəm də, deməsəm də.

Həm aranlı, həm dağlı,
Sözlərin təzə-tər, zağlı.
Ürəyin də elə bağlı,
Mən desəm də, deməsəm də.

Sev oxucum, sev Vurğunu,
Şeir - sənət vurğununu.
Xalqa vurğun olduğunu,
Mən desəm də, deməsəm də.

*"Gənclik" – Bakı, 2003*

## YADA DÜŞƏRSƏN

Sözdür bizə qalan sərvətin, varın,
Keçib ələyindən söz narın-narın.
Biri söz öldürüb oxucuların
Könlünü oyanda yada düşərsən.

Sözü sənin kimi sapa düzərlər
Sözlər dilə düşüb yurdu gəzərlər.
İlk görüşə çıxan nazlı gözəllər
Telini sayanda yada düşərsən.

Sənət töhvəsidir neçə əsərin,
Fikrin həm sadədir, həm də ki dərin.
Bezib sözlərindən şairciklərin,
Şeirdən "doyanda" yada düşərsən.

Ömrünü əritdin sən yaza-yaza,
Ruh verdin kamana, ruh verdin saza,
Sən bahar oğlusan – diyarımıza
Yaz qədəm qoyanda yada düşərsən.

Baxıb heykəlləşmiş Səməd Vurğuna,
Adamlar ehtiram göstərir ona.
Yenicə dünyaya gəlmiş oğluna
Biri ad qoyanda yada düşərsən.

19.03.1996

**VURĞUN**

Xalq şairi Səməd Vurğunun
90 illiyində yazdim bu şeiri

Yüz yaşında yüz bənövşə,
El dərəcək sənə VURĞUN.
Dəstə yığıb mələklərdən,
Göndərəcək, sənə VURĞUN.

Adın parlaq, sönməz işıq,
Sözün xalqa bir yaraşıq.
Telli sazı yenə aşıq
Dindirəcək sənə, VURĞUN.

QƏLƏMÇƏLİ deyər gerçək,
Hər bir şeirin şirin, göyçək.
Pərin göydən qaymaqçiçək
Endirəcək sənə, VURĞUN.

***F. İshaqi***

( Tacikistan )

**SƏMƏD ULDUZU**

Sehr etdin zirvələri,
Ömür gəldi bir sirr mənə.
Elə bil ki, Vurğun – dedi
Qafqaz mənə, Pamir mənə.

Poeziya ümmanında
Onun adı nəhəng ada.
Baxdım coşan dalğalara,
Səməd Vurğun düşdü yada.

Gəldim bulaq başına mən,
Gördüm sular bir gümüşdü.
Mən Vurğunu andım bu dəm,
Gümüş saçı yadıma düşdü.

Hər sözümü şərbət kimi,
Övladıma içirmişəm.
“Azərbaycan” şeirini mən,
Ürəyimə köçürmüşəm.

Qoy eşq olsun bu şöhrətə,
Eşq olsun bu ölməz ada.
Harda alqış eşidirəm,
Səməd Vurğun düşür yada.

Görür bütün planetlər,
Şeir, sənət ulduzunu.
Astronomdur Azərbaycan,
Tapıb Səməd ulduzunu.

*Tərcümə edəni: Tofiq Mütəllibov,*
*“Azərbaycan gəncləri” qəzeti, 18.11.1976*

## FAMİL MEHDİ

### GƏLİR

Şair, sən çaldıqca şair sazını,
Səsin gah Qazaxdan, gah Mildən gəlir.
Eşidib bülbüllər Kür qırağından,
Yaşılbaş sonalar Göygöldən gəlir.

Neçə bulaqlara düşüb surətin,
Həkk olub daşlara sözün-söhbətin.
Əlvan bir bahardır, şair, sənətin,
Ətri hər mahaldan, hər eldən gəlir.

Moruqlu dağlardan bəzən aşanda,
Ceyranla, əliklə qarşılaşanda,
Qaynayıb sinəmdə ilham coşanda,
Sanıram ayrılıb gur seldən gəlir.

Ötdün Qarabağdan, Turşsudan keçdin,
Yarpızlı çaylardan əyilib içdin,
Min gözəl aradın, min gözəl seçdin,
Dedin ki, nə gəlsə, gözəldən gəlir.

Yel tökdü qayadan saçlarına qar,
Baxdı heyran-heyran Şah dağı, Qoşqar,
Yaşın əllisə də, böyük sənətkar
Sorağın yüz ildən, min ildən gəlir.

**FİKRƏT QOCA**

## SƏMƏD VURĞUNA

Ölüm də qanundur yaşamaq kimi,
Odur ki, artıqdır, göz yaşları, qəm.
Deyib qurtarmamış hələ fikrini,
Şair necə ölə bilər, başa düşmürəm.

Qəlbində deməli min nəğmə, min sirr,
Ruhunda yaşatmaq, yazmaq həvəsi.
Torpağın qoynuna qoyulsa şair,
Alışıb yanmazmı bu Yer kürəsi?

Ölüm də, olum da, bunlar bir yana,
Bu adi qanunu mən də danmıram.
Şair nəğmə kimi gəlir cahana,
Nəğmə ölümünə mən inanmıram.

## VURĞUNU

Könüllər nigaran, gözlər intizar,
Ellər xəbər alır elə Vurğunu.
Vidadi, Vaqifdən odur yadigar,
Həkimlər, qoymayın ölə Vurğunu.

İstisu, Dəlidağ, Ceyran bulağı,
Göy-gölün sahili, Şuşa yaylağı
Dilican dərəsi, Göyəzən dağı,
Gözləyir çiçəyə, gülə Vurğunu,
Obaya Vurğunu, elə Vurğunu.

Yaxır ürəyini odlu bir hicran,
Baxışı kədərli, duruşu heyran,
Şair qıymadığı o ana ceyran
Axtarır Muğana, Milə Vurğunu,
Çiçəyə Vurğunu, gülə Vurğunu.

Əksini ipəkdə yaratdı sonam,
Ellərə yalvardı ağ saçlı anam:
"Aparın min həkim, çağırın Loğman
Bəlkə də sağalda bilə Vurğunu,
Ay ellər, yaşadın, elə Vurğunu".

1956

## FƏTƏLİ SAHİB

### BU YOX

“VURĞUN ÖLDÜ DEMƏYİN...”

Bayaqdan bəri,
Nəmli gözləri
Qızarmış gəlin,
Durmuş önündə
O tunc heykəlin.

Qırılmış kimi
Qəlbinin simi
Dillənmir gəlin,
Üzür qov kimi
dalğalarına
düşüncələrində...
Kimdir görəsən,
O hardan gəlib?
Sanki mənliyi
Dara çəkilib.
Bəlkə Aygündür?
Niyə küskündür?
Həm də utancaq...
Dinir nəhayət
O, handan-hana.
Qopur qəlbindən
Qonur nidalar
dodaqlarına:
- Köçübdür demək,
Nəğməkar quş tək.
Sənət vurğunu,
Səməd Vurğunu
Azərbaycanın?!

... Məgər dünyanın
Bumu vəfası?..
Radio dalğası
Yayılır bu an;
Enir səmadan
Bu xoş sədalar:
“... Vurğun öldü
deməyin,
Bir əbədi sənəti var”.

**VURĞUN**

Dünənimdən sabahıma,
Müjdə idi – gəldi Vurğun.
Şeir-sənət dünyasına,
İlhamını gərdi Vurğun.

Görüb çatıq qaşlarını,
Güllər əydi başlarını.
Ağ dalğalı saçlarını,
Bu dağlara sərdi Vurğun.

Var göyəmi, var yemişəni,
Gəl payızda gör meşəni.
Yazda şehli bənövşəni,
Şeir deyib dərdi Vurğun.

Ov tüfəngi kürəyində,
Ürkək maral sürəyində.
Çox gəzdirib ürəyində,
Hər ağrını, dərdi Vurğun.

"Ceyran qaçar, cüyür mələr",
Ürəyindən keçir nələr?
Türbəsinə ellər gələr,
Tər çiçəkdən tərdi Vurğun.

May, 1976

**GƏRAY FƏZLİ**

## ŞEİR VƏ OVÇU

O taxdı belinə patrondaşını,
Zağlı tüfəngini aldı əlinə.
Ovçu ədasıyla çatıb qaşını,
Xəlvəti üz qoydu Muğan çölünə.

Keçib el yolunu, yana buruldu,
Çıxdı qabağına bir sürü ceyran.
Sevindi bəxtinə, kefi duruldu,
Baxdıqca ovuna o, heyran-heyran.

Sonra bir üşütmə keçdi canından,
Görüncə bu sakit, bu dinc sürünü;
Bəs niyə bircəsi hürkmədi ondan?
Anlaya bilmədi bunun sirrini.

Sıxdı tüfəngini çiyninə möhkəm,
Ovu nişangahda titrədi bir an.
Bir nəğmə ucaldı hardasa bu dəm;
“Qıyma öz qanına boyana Ceyran!”

Ovçunun gözündə duman oynadı,
Elə bil başına dolandı dünya.
Sakit sinəsində tufan oynadı,
Çalxanıb sel kimi bulandı dünya.

Nəğmə leysan kimi axdı efirdən,
Tüfəngi çiynində asılı qaldı.
Elə bil ürəyi dayandı birdən,
Nə bir səsi çıxdı, nə nəfəs aldı.
Canlı insan kimi tutub qolundan
Bu nəğmə qaytardı onu yolundan.

Bəlkə bir adicə rəvayətdi bu...
Mən də eşitmişəm el arasında.
Amma neçə gözəl bir adətdir bu:
Hər nəcib bir əməl, hər xoş bir arzu,
Yaşayır ürəklə dil arasında.

Dillərdə dolaşan el sözü haqdır,
Həmin rəvayətdə bax bunu deyir:
Şeir də elə bil bəhrəli bağdır,
Bir Muğan ömrünü yaşayacaqdır,
Ceyranı Muğana qaytaran şeir.

*Hayqaz Koxaməmmədli*

**VURĞUN, NƏDƏN XƏYALDASAN**

Qonaq gəldik muzeyinə,
Şair, nədən xəyaldasan?
Doğma Vətən, öz evinə...
Şair, nədən xəyaldasan!

Dayanıbsan vüqarla, dik,
Qoşa ceyran, xallı kəklik.
Yoxsa sıxır səni təklik,
Şair, nədən xəyaldasan?!

Bircə anlıq baxıb dinsən,
Dəli Kürün hüsnünə sən.
Sözmü yazmaq istəyirsən,
Şair, nədən xəyaldasan?

Ağ saçların elə nişan,
Gördüm, oldum çox pərişan.
Şair, nədən xəyaldasan?
Vurğun, nədən xəyaldasan?

**HİDAYƏT ORUCOV**

SƏMƏD VURĞUN QİTƏSİ

Bu gün yenə kitabını varaqladım,
Varaqlaya-varaqlaya,
Ünvanını min mahaldan soraqladım.
Gördüm orda
Hər sətrinin ruhu, canı səmimiyyət...
Gördüm orda
Hər sətrinin son mənzili - əbədiyyət ...
Gördüm orda duyğuların çiçəklidir,
Təzə-tərdir.
Gördüm orda gecələrin mənası da apaydındır,
al səhərdir.
Gördüm orda anam bu gün
nəvəsinə şirin-şirin layla deyir.
Gördüm orda
Ulu Hörmüz
Əsrlərin o üzündən əl eyləyir.
Gördüm orda
hökmdarın taxt-tacı da,
qılıncı da
Məhəbbətin qarşısında lal olubdur.
Gördüm orda
köksü çapıq Bisütun da
saf sevgidən qüvvət alan
Bir memarın külüngünə qul olubdur.
Gördüm orda misralar var – hələ nuru
çox ürəyə sancılmayıb.
Gördüm, ustad, neçə alim səndən
yazıb doktor olub,
Çox mətləbin amma yenə açılmayıb...
Gördüm: Sənət ümmanının
hökmdarı məhəbbətdir.
Beşiyinə, komasına, torpağına
min könüldən valeh olan sədaqətdir.

Gördüm orda
dahilərin talelәri
insanlığın öz yoludur,
həyatıdır.
Kitabını varaqlaya-varaqlaya
Mən bir daha inandım ki,
ən çətin janr
bayatıdır!!!
Gördüm orda
İstiqbalın duyğuları qanad açıb qatar-qatar,
Gördüm, ustad,
Yerlə göyün arasında
Vurğun adlı qitə var.

**HÖKUMƏ BÜLLURİ**

## SƏMƏD VURĞUNA

Qaynar bulaq görən zaman anıram səni,
Zirvəli dağ görən zaman anıram səni,
Yaşıl budaq,
Zərif yarpaq görən zaman anıram səni.
İyirmi ildir ürəyimdə yatır həsrətin,
Şerimdə bir dayaqdır el məhəbbətin.

Unutmaram 46-nı – ağır zamanı,
İlk görüşdə soruşanda mən Süleymanı,
- Ay el qızı, soruşmursan bəs Vurğun hanı?..
O günlərdən xəyalımda bir dayaq kimisən.
Uzaqlarda heç sönməyən mayak kimisən.

Necə sadə, səmimiydin, necə mehriban,
O ilk görüş xatirəmdə yaşayır inan.
Bəlkə yüz yol su içmişəm mən o bulaqdan,
İlhamımın bəzəyidir Vurğun bulağı,
Şair qəlbin zirvələrin tərlan oylağı.

Arzuların el arzusu, ürəklərdədir,
Diləklərin el diləyi, diləklərdədir.
Qolundakı gücün bizim biləklərdədir.
Öz aləmim saymışam mən sənin “dünyanı”...
Ey təbiət, ey gözəllik, Vurğun hanı?

Dağ başında qartal idin – zirvələr aşan,
Bir dənizdin, bir ümmandın kükrəyən, daşan.
Sən oğuldun, sən şirindin elə yaraşan,
Səndən şöhrət aldı bütün Azərbaycanım,
Həsrətindən, firqətindən qaralır canım.

Günlər ötür, aylar ötür, illər dolanır,
Şerin fikir dünyasında məşəl tək yanır,
Doğmalarım kimi səni xəyalım anır,

Ürəyimdə bir çağlayan bulaq kimisən,
Şerimizdə əyilməyən bayraq kimisən.

Alınmazdır əsl sənət – şeir qalası,
Şair gedir, bu dünyada şeir qalası
Səni ellər, səni Vətən yadına salmış,
İnsanlığa, şeriyyətə, adına alqış!
Ürəyimdə bir həsrətin, nisgilin qalmış,
Zəhmətimin bəhrəsini dərəydim bir gün .
Heykəlini Təbrizdə də görəydim bir gün.

**ƏNVƏR RZA**

## VURĞUN

Tək bir ata üçün, ana üçün yox,
Xalq üçün, el üçün doğuldu Vurğun.
Sənətdə ən böyük söz sərkərdəsi,
Qeyrətdə əvəzsiz oğuldu Vurğun!

Dar gündə "müsəlləh bir əsgər" oldu,
Xitabət kürsüsü nəm səngər oldu,
Hər sözü mərmiyə bərabər oldu,
Dağılmış ev görüb sıxıldı Vurğun.

Xəyalı dolandı o tay, bu tayda,
Yasda yas saxladı, sevindi toyda.
Bizim Kəpəz oğlu Dəlidağ boyda,
Vicdandı, zəkadı, ağıldı Vurğun.

Oldu xan çobanı çəmənin, çölün,
Durdu nəğməsiylə kəkliyin, çilin.
Bir gün fürsət tapıb cənab Çörçilin.
Londonda üzünə ağ oldu Vurğun.

O, min gül bitən bir biçənəkdir,
O, bahar elçisi şux kəpənəkdir.
O, qeyrət, istedad toxumu əkdi,
Onunçun yurdunda çoxaldı Vurğun.

O, elə dağdır ki, zirvəsi qırov,
Bir adı Qoşqardı, bir adı Murov.
Mənimçün ecazkar şair-filosof,
Körpə oğlum üçün nağıldı Vurğun.

**ƏHMƏD CƏMİL**

## SƏMƏD VURĞUNA

Dümağ saç... Günəşdə yanmış tunc bəniz...
Dərin təfəkkürə dalmış baxışlar...
Xəyalı - günəşli, sonsuz bir dəniz,
Fikirli alnında səf-səf qırışlar.

Döyüşdən, tufandan çıxmış üzündə -
Kommunist təmkini, şair vüqarı,
Sabaha ümidlə baxan gözündə
Vətən torpağının eşqi, baharı.

Səsində - böyük bir elin nəfəsi,
Sözündə - qılıncdan iti həqiqət!
Şeirində - zamanın müqəddəs səsi,
Vətənə, insana, xalqa məhəbbət!

Vurğundur o böyük əməlləriylə
Həyatın mənalı şeiriyətinə.
Min nəğmə yazıbdır öz əlləriylə
Hünərin, kamalın hər nemətinə.

Təbində - sehirli axışı vardır,
Gur şəlalələrin, gur bulaqların,
İlhamı – sevdiyim bir xoş bahardır,
Andırır yazını bizim dağların.

Tufandan sonrakı sakit dəniz tək,
Gülsə də dincəlib, durmaq eşqilə.
Döyünür köksünə sığmayan ürək,
Yaşatmaq, yaratmaq, qurmaq eşqilə.

O vurğun könlündən qopan nəğmələr,
Bizə bəxş etdiyi bir güllü yazdır,
Qoy onu qəlbində yaşatsın ellər,
Belə sənətkara bir ömür azdır.

*Həmid Abbas*

## Şeirdir torpağı, daşı Vurğunun

"Dostlar həyatımızda ən böyük səadətdir
və nə yaxşı dünyada Səməd Vurğun var"
**Aleksandr Fadeyev**

Gözün aydın olsun Azərbaycanım!
Doxsana çatıbdı yaşı Vurğunun
Sənəti solmayan əbədi çiçək,
Şeirdir torpağı daşı Vurğunun.

Sənə minnətdarıq Salahlı kəndi,
Əzəl beşiyisən Səməd Vurğunun,
Ərsəyə yetirdin, tutdun qolundan,
Xalqın neçə şair, igid oğlunun.

Gözün aydın olsun Bakım, Xəzərim,
Sevinsin suları qəmli Arazın.
Sizə Vurğun şair doğulub bu gün,
Eşit Göyəzənim, bil Qarayazım.

Sən də eşit məni, gözəl Muğanım!
Səni tərənnümdən doymadı Vurğun.
Çiynində tüfəngi çox gəzdi, amma.
Bircə ceyranına qıymadı Vurğun.

Bu nadir ovçunun ovu şeirdi,
Gəzdi qarış-qarış o, ana yurdu.
Endi dərələrə, fəqət hər zaman
Zirvələr fəth etdi, zirvədə durdu.

Yenə zirvədədir elə Vurğunum,
Hər sözü söhbəti qulaqlardadır.
Özünə məhəbbət ürəyimizdə,
Şairin misraları dodaqlardadır!

Gözün aydın olsun, qəhrəman Sarvan,
Sən gözəl dastandan canlı yadigar.
Yurdun sevimli bəstisi kimi,
Sənin hünərin də əbədi yaşar.

əlli il yaşayan cavan ustadın.
Düz qırx il keçibdir vida çağından.
Yüz illər, min illər keçsə də nə qəm,
Ayrılmaz şeirimin şah budağından.

Bir zaman bir dostun deyib nə gözəl:
"Nə yaxşı dünyada Səməd Vurğun var!"
Bunu unutmayıb obalar, ellər
Yenə bizimləsən hər qış, hər bahar.
"Nə yaxşı dünyada Səməd Vurğun var!"

Gözün aydın olsun Azərbaycanım!
Doxsana çatıbdır yaşı Vurğunun.
Sənəti solmayan əbədi çiçək,
Şeirdir torpağı daşı Vurğunun.

1996

# Yüz yol dəyişsə də üzü dünyanın...

**S. Vurğunun** anadan olmasının
90 illiyi münasibətilə

Səməd Vurğun sözü qalır əbədi,
Yüz yol dəyişsə də üzü dünyanın.
Odlu misraların qığılcımından,
Alışır ocağı-közü dünyanın.

Dastanlar yaranıb məhəbbətindən,
Şairin yurduna sədaqətindən.
Bu nadir ürəyin hərarətindən,
Əriyir şaxtası-buzu dünyanın.

Ürəkdən gələn söz ürəklərdədir,
Ülvi arzularda, diləklərdədir.
Sanma, gözəllik tək çiçəklərdədir,
Gözəldir hikmətli sözü dünyanın

Hikmət beşiyidir ürək də, baş da,
Sənət yarışında dayandı başda.
Tərk etdi dünyanı əllicə yaşda
Vurğunu axtarır gözü dünyanın.
Yüz yol dəyişsə də üzü dünyanın.

1996

## Səməddən başqa

Gərdişi bilinməz fani dünyanın,
Nəyi var öləndir, sənətdən başqa.
İstedaddan məhrum yazıb-pozandan
Hər şey ummaq olar, hikmətdən başqa.

Dar ayaqda qaçıb, itən insana,
Dostuna şər-böhtan atan insana.
Torpağı, Vətəni satan insana
Özgə söz yapışmaz nifrətdən başqa.

Dağlar qarlı olar, çəmənlər şehli,
Çaylar təlatümlü, dənizlər mehli,
Silinər yaddaşdan çox qələm əhli,
Söz-sənət Vurğunu Səməddən başqa.

1996

# Axır ki, qayıtdı...

**"S.Vurğun"** təşviqat qatarı Qazağa çatanda

Zirvələr gözləyir, dağlar darıxır,
Gəlməyir o dağa, bu dağa Vurğun.
İllərlə yol çəkir gözü Qazağın,
Gedibdir nə yaman uzağa Vurğun.

Ədalətin sazı inlər, soruşar,
Sevənlər bu səsi dinlər, soruşar.
Dağlarda dumanlar, çənlər, soruşar.
Düşübmü şaxtaya-sazağa Vurğun?!

Gözlər Qarayazı, halı pərişan,
Hanı bu yerlərdə çağlayan, coşan?!
O idi Dilcana nğmələr qoşan,
Bircə söz yazmayır varağa Vurğun.

Qələmçə, Damcılı haylı, haraylı,
Gündüzlər günəşli, gecələr aylı.
Düşməyir dillərdən qoşma, gəraylı,
Bir cavab verməyir sorağa Vurğun.

Dedi tələsmirəm, gəlmədi amma,
Gül açdı arzusu, bilmədi amma.
Torpağa baş qoydu, ölmədi amma,
Köç etdi dodaqdan-dodağa Vutğun.

Gözləyib hər zaman bu doğma ellər,
Yollara boylanıb hər axşam, səhər.
Quş olub göylərə qalxıbsa əgər.
Qonubdur bəs hansı budağa Vurğun?!

Sanmayın ülvi eşq azaldı, söndü,
Yerdən baş qaldırıb danışdı, dindi.
Bir payız səhəri qatara döndü,
Axır ki, qayıtdı Qazağa Vurğun!

1986

## Bu dərənin bəxtinə bax

Vurğun keçən bu yerlərin,
Hər qarışı qiymətlidir.
Vurğun içən bulaqların,
Hər damlası şərbətlidir.

Gəz çölünü , bərəsini,
Gör Dilican dərəsini,
Dinlə dağın nərəsini,
O hələ də həsrətlidir.

Qırx-əlli il bundan qabaq,
Şair gəlib bura qonaq.
Bu dərənin bəxtinə bax,
Səməd Vurğun şöhrətlidir.

1986

## Vurğun qatarı

Milyon ürəklərdə yurd salıb bu ad,
Hər dildə, ağızda dolaşır Vurğun.
Küçəyə, meydana, nəhəng gəmiyə,
Kiçik məktəbə də yaraşır Vurğun.

Saymaqla qurtarmaz bağı, bağçanı,
Dilcan dərəsində Vurğun kəndi var.
Yaşlının, cavanın dilində əzbər,
Vurğun misraları, Vurğun bəndi var.

Vurğunla səfərə çıxmışıq bu gün,
Özü heykəllərdə, şəkli bizdədir.
Sanki fikrə dalıb şeir yazır o,
Arzusu, istəyi qəlbimizdədir.

Ellərdən-ellərə getdikcə qatar,
Dağlar salam verir Səməd Vurğuna.
Şəklinə boylanıb min alqış deyir
Atalar, analar şair oğluna.

Təzə ad, təzə söz düşür dillərə,
Gəzir karvanımız, gəzir diyarı.
Səfər başa çatıb, yetəcək sona,
Qalacaq yaddaşda Vurğun qatarı!

1986

## Hüzuruna gəldik bu gün!

Əllicə il ömür sürüb,
Köçdü Səməd Vurğunumuz.
Vurulduğu ana yurda
Qaldı həsrət Vurğunumuz.

El kövrəldi, gözündə nəm,
Köks ötürdü bütün aləm.
Vaxtsız getdi əldə qələm,
Gözdə heyrət Vurğunumuz.

İçin-için yandı hər an,
Ürəyində Azərbaycan.
Yaranmışdı nadir insan,
Nadir xilqət Vurğunumuz.

Alovluydu, sönəmmədi,
Zirvələrdən enəmmədi.
İlhamına güvənmədi,
Çəkdi zəhmət Vurğunumuz.

Tez ələndi qar telinə,
Gəlmədi yad söz dilinə.
Torpağına, öz elinə,
Oldu şöhrət Vurğunumuz.

Kitabları əllərdədir,
Nəğmələri dillərdədir.
Yaxın-uzaq ellərdədir,
Bilməz sərhəd Vurğunumuz.

Bu dahiyə səcdə üçün,
Hüzuruna gəldik bu gün.
"Salam olsun!" sözü bütün
Özü qüdrət Vurğunumuz.
Doxsan yaşın mübarəkdir;
Yaşa, Səməd Vurğunumuz!
Yaşa, sənət Vurğunumuz!

1996

## Bakıdan – Qazağa

Gəlmişik Qazağa nəğmə dodaqda,
Göylərə baş çəkən Göyəzəni var.
Gəlmişik Qazağa, gəlməli vaxtda,
Şəninə söz qoşub, gül düzəni var.

Bakıdan Qazağa, gəlmişik yenə,
Ən şirin kəlmələr dildədir bu gün.
Torpağa baş əyək biz dönə-dönə,
Dünyaya Vurğunu verdiyi üçün!

1986

## Səməd Vurğuna

Bu dünydan köçəndə sən,
İki oğul, bir qız qoydun.
Neçə gözəl nurlu əsər –
Neçə parlaq ulduz qoydun.

İndi nəvən-nəticən var,
Yaşa dolub oğlun-qızın.
Ürəklərə şölə saçır,
Hər əsərin, hər ulduzun.

Bu ulduzlar yanar hər vaxt,
Yol göstərər nəsillərə.
Nəsillərlə addımlarsan,
Əsrlərdən, əsrlərə!

1986

***ŞÖHRƏT***
*Özbəkistan*

## *SƏMƏD VURĞUNA*

Dindi məhəbbətlə
qəlbinin simi,
Ucaldı göylərə
müqəddəs adın.
Övlada intizar
bir ana kimi
Mehrini Vətənə
elə bağladın.

Yaşadın namusla,
məğrur, bəxtiyar.
Nagahan tufandı
sənin varlığın.
Adına and içir
böyük bir diyar,
Eli sevmək idi
bəxtiyarlığın.
Ölüm nə tez gəldi?!
Məzarın üstə
Qara haşiyəli
Vətən bayrağı!
Gömüldü torpağa
bir arzu, istək,
Söndü üfüqlərdə
ulduzsayağı!
Yox, yox! Səhv elədim,
ölməmisən sən,

Geymisən əyninə
nur biçimli don!
Ürəklər
zövq alır
şeiriyyətindən,
Gözlərdən qəlblərə
köçmüsən, Vurğun!

**HÜSEYN ABBASZADƏ**

# GÖTÜR SAZI

S.VURĞUNUN "DANIŞAQ" ŞEİRİNİN İFAÇISI AŞIQ NABATA

Aşıq Nabat, götür sazı deyişək,
Düz ilqardan, sədaqətdən danışaq.
Şairlərin sənətindən söz açaq,
Görünməmiş məharətdən danışaq.

"Gülə-gülə" keçək uca dağlardan,
Əmirxanın becərdiyi bağlardan,
Soraq tutaq "Muğan"dakı çağlardan –
Qüdrətli bir şeriyyətdən danışaq.

"Ceyran" gəlib su içəndə bulaqdan,
Vurğun adı eşidəndə dodaqdan,
Hürküb qaçmaz bizi görcək uzaqdan,
Ovçudakı məharətdən danışaq.

Soruşsalar – kim xalqıyla ucaldı?
Kim gətirdi səhnəmizə Fərhadı?
Kimdir təzə şerimizin ustadı?
Ağızdolu gəl Səməddən danışaq!

*HÜSEYN ARİF*

## SƏNSİZ OLMASIN

İtirdim yuxumu, qərarımı mən,
Dilim haray çəkir, qəlbim döyünür.
Qurtarın şairi bu xəstəlikdən,
Həkimlər, həkimlər, aman günüdür!

Yaz kimi açılar qış fəsli çöllər,
Köməyi, istəyi gül-çiçək olsa;
Çiynində Qoşqarı aparır ellər,
Ona dərman üçün qar gərək olsa.

Canımdan od qalxdı, başımdan duman,
Ürək bu yanğıya dözə biləydi.
Bir səs eşidirəm eldən-obadan;
Vurğun sağalaydı, Vurğun gələydi.

Gəl ki, böyük-kiçik heyrandır sənə,
Dal ana Vətənin bir də seyrinə.
Yanında dostların ova çıx yenə,
Ceyranlı düzümüz sənsiz olmasın.

Dağlara at sürdün cavan yaşında,
Bir əlin yəhərin qabaq qaşında,
Sərin tuladakı çeşmə başında
Alışan közümüz sənsiz olmasın.

Qaynar bir bulaqdır eşqin, həvəsin,
Ətirli bahardır isti nəfəsin.
Yenə axşam, səhər ucalsın səsin –
Sazımız, sözümüz sənsiz olmasın.

Yazıb-yaratmağın hələ dardadır,
Yaxının, uzağın gör nə haldadır?
Xeyli var Bakının gözü yoldadır,
Yol çəkən gözümüz sənsiz olmasın.

*HÜSEYN CAVAN*

## SƏMƏD VÜQARIMIZDI

Əlimdə sazımın simləri susdu,
Kəsdim dodağımın şirin söhbətin.
Dedilər ki, Səməd köçdü dünyadan,
Əbədilik içdi ölüm şərbətin.

Elə bil başımda ildırım çaxdı,
Bütün varlığımı yandırıb yaxdı,
Bulud kimi gözlərimdən yaş axdı,
Keçdi dəqiqələr çətindən çətin.

Sandım ki, ömrümün sarayı uçdu,
Ləkəsiz qəlbimə tez ləkə düşdü,
Etdiyim xəyaldı, yoxsa ki, huşdu,
Ölərmi şairin heç həqiqəti?!

Vurğun sıramızda bizimlə qoşa,
Şairin nəğməsi gələcək xoşa,
Qanadlı quş kimi hey başdan-başa,
Gəzir ölkələri sözün, sənətin.

Cavan Hüseyn, Səməd vüqarımızdı,
Şeir sərvətimiz, baharımızdı,
Müqəddəs andımız, ilqarımızdı,
Ürəkdən silmərik heç məhəbbətin.

## HÜSEYN HATƏMİ

### YUBİLEY GÜNÜ

Biz dörd nəfər, dörd əsgər,
Dördümüz də azərbaycanlı,
Şeir həvəsli, sənətcanlı,
Orduda – xidmətdə idik.
Birdən radionun dalğalarından
Bir səs eşitdik,
Qəlbimizə doğma nəfəs eşitdik.
Yubiley günüydü böyük Səmədin,
Qiyməti verilirdi ulu sənətin.
Qonaqlar gəlmişdi yaxından, uzaqdan,
Moskvadan,
Daşkənddən,
Qazaxdan...
Hamı gəlmişdi öz töhfəsiylə.
Yuileyi həvəslə izlədik,
Radionu Azərbaycantək əzizlədik.
Sonra da hərəmiz bir şeir dedik.
Böyük Səməddən,
Ürəklə danışdıq şerdən, sənətdən.
Bölməyə yayılmışdı
Biz dörd əsgərin səsi, ünü.
Səməd Vurğunun yubiley günü.

## SAZDA ƏDALƏTƏM, SÖZDƏ VURĞUNAM

Nələr tapdıq bir Vurğunu tapanda,
Söz gücünü çəkəmmədik qapanda.
Bir cümləsi məni qoyub sapanda,
Uzaq atıb, yol gedirəm, yorğunam,
Sazda Ədalətəm, sözdə Vurğunam.

Nizami dahidir öz aləmində,
Sənət dünyasınada söz aləmində.
Ölüb dirilmişəm saz aləmində,
Oxu, Füzulidə Leyli, Məcnunam,
Sazda Ədalətəm, sözdə Vurğunam

Quyuda Abbasam, bir eşqi nakəm,
Gözümdə həsrət var, ürəyimdə qəm,
Şirində Fərhadam, Əslində Kərəm,
Qorxuram axırda alışam, yanam,
Sazda Ədalətəm, sözdə Vurğunam.

Dilimdə Vaqifin şirin qəzəli,
Qoy məni dinləsin ellər gözəli.
Başında yeddi min yeddi yüz dəli,
Koroğluda Eyvaz, aşıq Cununam,
Sazda Ədalətəm, sözdə Vurğunam.

Zirvədən boylanıb qartal sayağı,
Xəyalım seyr etdi aranı, dağı.
Sevdi təbiəti, ana torpağı,
Həvəskar şairəm, Vətən, oğlunam,
Sazda Ədalətəm, sözdə Vurğunam.

***Karlo Kaladze***
*Gürcüstan*

## *SƏMƏD*

Bir qrup şair təzə yazdığımız şeiri çap etdirməmişdən bir-birimizə göndərməyi qərara almışdıq. İlk şeiri Səməd vurğun göndərməliydi.

Şeirini gözləyirəm... Susma, bir söz de, Səməd!
Gəl, həyəcanla qaldır yenə yumruqlarını.
Səbrim tükənib mənim, qalmayıb canda taqət,
Gözüm yollarda qalıb, pozma etibarını.

Yadındamı o günlər, yadındamı, ay Səməd,
O kef-damaqlı günlər? Unutdunmu o günü?
Üç dəfə öz donunu dəyişibdir təbiət,
Üç dəfə unutmusan sən vədini, sözünü.

Darayıb saçlarını fikrə gedəndə, Səməd,
De, niyə köks ötürdün, nələr düşündün, nələr?
Qəmli-qəmli söyldin: – Nə şirindir bu nemət,
Qışdan sonra həmişə gül-çiçəkli yaz gələr!

O bəyaz saçlarına heç kəs etmədi heyrət,
Ağardıbdır Qafqazın qərinələr başını.
Mənalı gündüzlərin, gecələrin, ay Səməd,
Dan yeritək ağartdı sənin qara saçını.

Baxışından nur aldı, nura boyandı zülmət,
Əzəl gündən bağlandın vətəninə, elinə.
Sən böyük Nizaminin, Rustavelinin, Səməd,
İndi sükut tutubdur mənzilində yerini...

***KONSTANTİN SİMONOV***
*Rusiya*

### *DOSTUM SƏMƏD VURĞUNUN LONDONDAKI ZİYAFƏTDƏ NİTQİ*

Mənim dostum Səməd Vurğun Bakıdan
Gəlmişdi Londona. Qürbət diyara.
Olur belə şeylər həyatda bəzən,
Bir bolşevik qonaq gedir lordlara.
Görür ikipalatalı qanunu,
Britaniya qaydasilə o bir-bir
Tanış olur... Hər tərəfdən bax, onu
Saxlayırlar... Min... Ay Allah, sal yada,
Min neçənci ildə isə kralın
Başını kəsmişlər, Sonra dünyada
Olmuşlar həmdəmi bir istiqlalın.
Bir baxın onların siz üzlərinə,
Sanki bənd olmuşlar öz-özlərinə.

Biz bu nitqləri bir ay dinlədik,
Hər gün tənnəffüsdə üç dəfə yedik.
Səbrlə, təmkinlə... Daha neyləmək?
Dinlədik səhərdən ta axşamadək...
Bura yad bir ölkə, özgə bir torpaq,
Madam ki, lordlara gəlmisən qonaq,
Qımışıb hörmətlə, hər yalanı sən
Gərək öz beyninə yük eyləyəsən...
Elə ki, o kefdə, o ziyafətdə
Bir əsər qalmadı bizdə taqətdən,
Elə ki, tükəndi tamam səbrimiz
Səmədə üz tutub söylədik ki, biz:
-Səməd, bir nitq elə, ucalt səsini,
Sən bu məlunların poz nəşəsini! –
Salonda dolaşan təşvişli haldır,
Etiraf çətindir. Lap qalmaqaldır...
-Ser, deyin, siz hansı respublikadan?
-Hə, ser, hamısından, onaltılardan.
-Sizin hamınızdan?
Hə onaltılar...
-hamımızın adından,

Elədir ki, var!

Büllurların, frakların,
Xəstə, solğun yanaqların,
Məğrur duran bu lordların,
Ov axtaran ac qurdların,
Qəlbini bir pula satmış,
Zalimlikdə saç ağartmış –
Hindistanlı əfsərlərin,
Qıpqırmızı peysərlərin,
Kiplinqin vəsf elədiyi,
Xoş nəğmələr söylədiyi –
Köhnə-köşkül badələrin,
Kaftar əsilzadələrin,
Günü keçmiş sir-sifətin
Üzərində mətin-mətin
Budur, qalxır Bakı oğlu.
Ürəyi ilhamla dolu...
Onları heç sanki görmür,
Pıçıltıya fikir vermir.
Başlayaraq öz sözünə,
Deyir onların üzünə:
-Mən sizin diyarda, cənablar, bilin,
Sovet dövlətindən nümayəndəyəm.
Əsl yoldaşlığın, şanlı bir elin
Ayrılmaz üzvüdür mənim də ölkəm.
Ölkəm qara neftin yurdu olsa da,
Sizin ayağınıza o atılmamış.
Qəyyumsuz yaşayır bütün dünyada,
Sizin Sitilərə o satılmamış.
Zəhmətkeş ellərin bir üzvü kimi
Yaşamaq şərəfdir bizim diyara.
(Mister tərcüməçi, dediklərimi,
Siz düzgün anladın bu cənablara...)
Bütün dünyadakı neft yurdlarından
Mənim vətənimdir tək azad olan.
Gəmiylə Duvr üçün soyulmamışdır.
Dərdli Hindistanın azadlığıtək
Heç vaxt istehzaya qoyulmamışdır.

Doğrudan, ağalar, bizim ölkə, el
Çoxdan biganədir ciblərinizə;
Nəzakət borcuma eyləyib əməl
İndi başsağlığı verirəm sizə...
Mənim dostum Səməd belə deyəndə
Onların üzünə baxırdım mən də.
Budur, baxışlarda kin və qorxu var.
Sanki  "polis!" deyib bağıracaqlar...
Üzlər qıpqırmızı, baxışlar qara,
Bu nitq bir dağ çəkir sanki onlara...
Görürəm, yaxşıca görürəm ki, mən
Onlarda hal yoxdur qulaq asmağa.
Onların hər biri istər ki, həmən
Barmaq ilişdirsin dərhal çıxmağa...
Hindistandakıtək qamçı oynatsın
Bu Bakıdan gələn qonağın üstə.
Onun kürəyində məqsədə çatsın,
Yaxşı rəqs eləsin dəstəbədəstə.
Bir baxın onlara: hey yığın-yığın
Üzlərdə bir qəzəb, bir kin düyünü,
Onlar istərdi ki, durub vüqarla
Danışan natiqi puç eyləsinlər.
Mənimlə, səninlə, bu qonaqlarla
Oturub, natiqi dinləməsinlər.
Anlamasınlar ki: bir daha onu
Nə asa, nə kəsə bilməyəcəklər.
Zəncirə, kəndirə salıb boynunu,
Bir də qah-qah çəkb gülməyəcəklər.
Anlamasınlar ki, "aman!" deyərək
Yem olmaz onlara diri bir bədən.
Ağcaqum çölündə iyirmialtıtək
Keçirə bilməzlər bizi güllədən...
Dostum durmuş başı üstə ac qurdların,
Dayaq tapıb qardaşlığın dünyasında.
O bilir ki, rəhbərinin mərd vüqarı
Nitq zamanı dayanmışdı arxasında.

O, gülərək dayanmışdır,
Yəqin, nitqi bəyənmişdir.

## YERİN GÖRÜNÜR

SƏMƏD VURĞUNA

İllər il üstə gəlir;
Sənsiz darıxır ürək.
Qaranlıq bir otağa atılıb qalmış kimi,
Mən baxıram əksinə seyrinə dalmış kimi.

Qarşımda kitabların, dodağımda sözlərin,
Xəyalımda gülüşün, yerişin, baxışların...
Bəzən mən də keçirəm keçdiyin o düzləri,
Aşıram üzərindən o kəklikli daşların.

Fəqət, ürək ovunmur şıltaq bir uşaq kimi,
Sənin yerin görünür dərədə də, dağda da.
Hər yanda görünürsən göy kimi torpaq kimi,
Ancaq tapılmayırsan göydə də, torpaqda da.

Sənin yerin görünür çətin gündə, asanda,
Şanlı yürüşümüzdə, bu günün nəğməsində.
Sənin yerin görünür şerə qulaq asanda,
Qəribədir, arabir gəlir canlı səsin də.

Böyük təbiətinlə durursan göz önündə,
Birdən nəhəng salonlar qızıl nura bürünür,
Şairim, gizləməyir dostun da, düşmənin də,
Köks ötürüb söyləyir:  “Onun yeri görünür!”

Çiçəkləri çırtlayan bizim Muğana bir bax,
Talada boynu bükük duran ceyrana bir bax,
Təzə qələm götürüb şeir yazana bir bax,
Köks ötürüb söyləyir:  “Onun yeri görünür!”

Dodağında eydirmə, inək sağan ana idi,
Göllərdə süzüb keçən o yaşılbaş sona da,
Təzə nişanlılar da toylarda, meyxanada,
Köks ötürüb söyləyir:  “Onun yeri görünür!”

Sənin yerin görünür, sorağına çıxıram,
Evinin qabağında dayanıram bir anlıq,
Dolmuş gözlərimlə mən hey baxıram, baxıram...
Otağında sükut var, pəncərəndə qaranlıq...

Sən sevməzdin, şairim, sükunəti, zülməti,
Taleyin hökmünə bax, həyatın sirrinə bax.
Sənin iş otağında dünyanın şeiriyyəti,
Yerin, göyün işığı qərar tutardı ancaq.

Ey yurdumun qoşması, gəraylısı, dastanı,
Sənsiz qəlbim sıxılır, kədərlərə bürünür.
Seyr etsəm də bu gün mən min sənətkar insanı,
Sənin yerin görünür, sənin yerin görünür

***İLHAMİ EMİN***
*( Yuqoslaviya )*

## SEVDİM VURĞUNU

Tanrı yox,
Dünyanı gözəl göstərən
Şairdir –
Hər şeyi gözündə görərsən aydın.
Duru gölə dönər,
Güzgüyə dönər şair həyatda,
Dünyanı əks edər özündə aydın.
Vurğun da həyata vurğun yarandı.
O da duru gölə,
Güzgüyə döndü.
Şeir yaşadıqca, söz yaşadıqca,
Vurğun kəsiləcək Vurğuna hər kəs.
Həyatı sevəcək,
Yurdu sevəcək.
Bakıdan,
Makedoniyadan qayıdanda mən,
Onun məhəbbəti şah damarımda,
Qanımda, canımda gəldi mənimlə.
Gəldi, ürəyimdə yandı bu ocaq,
Bu hərarətlə illər uzunu
Qəlbim isinəcək, işıqlanacak.
İşığa, günəşə vurulduğumtək,
Vuruldum Vurğuna, sevdim Vurğunu.

*Tərcümə edəni: Musa Yaqub,*
*“Ədəbiyyat və incəsənət” qəzeti,*
*13 noyabr, 1976*

**Liana Daskalova**
Bolqarıstan

# *Şairin son gecəsi*

(S.Vurğuna)

Dünya nə gözəldir! Bir ətrafa bax!
Nə xoşdur həyatın seyrinə çıxmaq!
Fəqət şair yatır, ağır xəstədir,
Sonu görünməyən səfər üstədir.
Bəs söylə, o kimdir, gəlib gizlicə
Tənha pəncərəni döyür bu gecə?
Sədası əridir kədəri, qəmi,
Andırır ilahi bir məhəbbəti.
O gələn bahardır... Bəzənib yenə,
Çağırır şairi Vətən seyrinə.
Dəniz sərib bu gün ləpələrini
Şairin üstünə bir xalça kimi.
Ayın şüası da sonsuz səmadan
Şairin üstünə süzülür bu an.
Şairin qəlbini sərinlədərək.
Gecə də unudub yorğunluğunu,
İntizar baxışla  gözləyir onu.
Bu çoxmu sürəcək? Şairim, bir qalx!
Mehriban gözlərlə ətrafına bax!
Hər kəs öz qəlbiylə şeir eşqinə ,
Bir dayaq olmağa hazırdır sənə.
Bir insan, bir şair, bir qardaş kimi
Hamı sevir səni qəlbən, səmimi.
Baharın, həyatın gülən çağında
Sakitcə uzanıb o, yatağında.

Qaldırır başını pərqu balıncdan,
Yenə yorğun düşüb uzanır, bu an
Dodağı tərpənir: bahar, ay bahar!
Pambıqla dolmuşmunyenə tarlalar?
Söylə, dostum külək, sular boyunda,

Çırpınan, kükrəyən dəniz qoynunda
O neft bulaqları tüğyan edirmi?
Söylə, işlərimiz yaxşı gedirmi?
Söylə, səhər-səhər Qafqaz dağları
Qarlı zirvələrlə, bir söylə barı
Yerləri göylərə calaşdırırmı?
Yenə də gözləri qamaşdırırmı?
Məndən salam söylə doğma dağlara!
Apar ürəyimi göy oylaqlara!
De ki, gül açarkən hər tərəf, hər yan
Ayrı düşməliyəm can sirdaşımdan...
Bax, elə bu zaman, zülmət içindən
Ölüm qışqırır ki: – Yanındayam mən!
Ardınca gəlmişəm! Vaxtdır, dur gedək!..
Çöllərin ətrini, külək, ay külək,
Mən səndən alıram... Söylə görüm bir...
- Mən çoxdan burdayam! (Ölüm hirslənir), -
Mən çoxdan döyürəm bu pəncərəni,
Gəlmişəm aparam özümlə səni!..
- Külək! Söylə görüm, Bəstimiz yenə
Çıxmışmı ağaran pambıq çölünə?
- Səni gözləyirəm! Di qurtar daha,
Gəl, düş qabağıma, tez çıxaq yola.
Sənə yalnız məndən rahatlıq gələr,
Əbədi röyada könlüm dincələr...

- Külək! Söylə görüm, yenə bu bahar
Gül-çiçək açmışmı bağlar-bağçalar?
- Ruhumda tufanlar, fırtınalar var,
Mənim əllərimlə onlar məhv olar!..
Ölüm fısıldayır əfi ilantək:
- Onları sən burda qoyasan gərək.
- Burax, burax onu! – deyərək Xəzər,
Coşub köpüklənir... Bu dərd, bu kədər
Nəyinə gərəkdir, nəyinə onun?
Sular pərisitək onun ruhunu
Hara çağırırsan? Şirin dillə sən
Üsyankar ürəyi zəncirləyirsən...
Çöllərdən səs gəlir: - Şair, durma get,

Qəhrəman Bəstini bir ziyarət et.
Xəzər sahilində bu zaman, bu an
Bir səda yüksəlir balıqçılardan:
- Qoy axsın, tökülsün ölümün qanı,
Şair, tora salaq o əjdahanı!
Ölümsə ulayır nərə çəkərək:
Mənimdir, mənimlə o getsin gərək!
Oğlum, bu ölümdən qorxma, qorxma sən! –
Deyərək səsini ucaltdı Vətən.
Buruqlar düzüldü hey qatar-qatar,
Ölümü bir anda tora saldılar.
O, mənhus əlini çəkdi şairdən,
Qovrula-qovrula qaçdı bu yerdən...
Ulduzlar! Bilirəm, bilirəm ki, siz
Şairirn yanına gələcəksiniz.
Həmişə dünyada bu sayaq olur:
Əlçatmaz göylərdə ulduz doğulur.

O ulduz yanaraq gəzir göyləri.
Qafqazın üstündə ogündən bəri
Parlayır şairirin sönməz ulduzu,
Gəzir mahnılarla o, yurdumuzu.

**ƏLƏKBƏR ZİYATAY**

## DOSTUMUZA

"Biz gəldi-gedərik, sən yaşa, dünya"
S.Vurğun

Bu qoca dünyada, bu gen dünyada,
Çoxlu gəldi-gedər, qonaq olsa da,
Ey böyük nəğməkar, ey böyük ustad,
Dünya bilməmişdir bir qonaq səni.

Dəyişər səmtini çaylar, dənizlər,
Başqa görkəm alar dərələr, düzlər.
Lakin sən açdığın o dərin izlər,
Saxlayar qoynumda bil ki, sağ səni.

Günlər, aylar keçib, dolanar illər,
Gələr yer üzünə yeni nəsillər.
Edib sözlərini dilində əzbər,
Xatırlar hər oba, hər oymaq səni.

Ölməz böyük eşqin, böyük əməlin,
Ellərin diləyi olmuş diləyin.
Daim ürəklərdə çarpar ürəyin,
Unutmaz nə yaxın, nə uzaq səni.

Qəlbin qaldısa da, döyüntüsündən,
Adın silinməzdir dünya üzündən.
Yenə də şerini dinləyər Vətən,
Yenə də yaşadar bu torpaq səni!

**ƏLİ KƏRİM**

## ÖLÜM, SEVİNMƏ ÇOX

Ölüm, şöhrətinmi azalardı de,
Tanışdı onsuz da cahanda adın.
Sənə nə olardı, nə olardı, de,
Belə bir insana əl vurmasaydın?

Gedir şair, gedir sənətkar, gedir,
Bu gedən hər gedib-gələndən deyil.
Ölüm, sevinmə çox, bu sevinc nədir,
Bu ölən sənə hər öləndən deyil.
O yazdı, yaratdı həyat naminə,
Onun hər şeiri ölümdür sənə.

**ƏLİ TUDƏ**

## GETDİ

SƏMƏD VURĞUNA

Deyirik ki, hər yerdə biz
Vurğundur öz sərkərdəmiz.
O, andı düz, eşqi təmiz
Bir kükrəyən çaydı, getdi.

O sevərdi ilk baharı,
İlk çiçəyi, ilk nübarı.
Saz üstündə havaları
O, çiçəkli aydı, getdi.

O yazdı hər həqiqəti,
Fəlakəti, səadəti,
Bizə xalqlar məhəbbəti
O ustaddan, paydı, getdi.

O, füsunkar torpağına;
Aranına, yaylağına,
Sabahın da novrağına
Min təranə yaydı, getdi.

Bu müqəddəs eşqi gərək
O dahidən biz öyrənək.
İlham dolu yanar ürək
Bir günəşə taydı, getdi.

*Ülvi  Bünyadzadə*

## *Vurğun nə tez qocaldın sən*

80 illiyi münasibətilə

Dünənəcən Dəlidağı,
O yaylağı, bu yaylağı,
Uca səslə ucaldardın,
Qocalığı qocaldardın.
Yaşın əlliydi uzağı,
Nə tez gəlib çatdı səksən, -
Şair , nə tez qocaldın, sən?

Cığır üstə yolun gözlər,
Ana ceyran səhər-səhər,
Oylaqlara yüz yol baxar,
Sonra küsər, ağlamsınar.
Dərdini göz yaşı deyər:
“-Daha ova da gəlməyirsən,
Şair, nə tez qocaldın, sən?”

Ay dolanıb, il bitəcək,
Yaş üstünə yaş gələcək,
80 dönüb 100 olacaq,
Yüzün minə də çatacaq.
Ancaq demir, deməyəcək;
“Bir sevgilin, bir də Vətən”,
Vurğun, nə tez qocaldın, sən?

**1986**

## ƏLİ VƏKİL

SƏMƏD VURĞUNA

Şerimizdə al günəşdir,
Qəlbimizdə bir atəşdir.
Hər bir gözdə bir atəşdir,
Elimizin sevimlisi,
Nəğməkarı Səməd Vurğun,
İlk baharı Səməd Vurğun.

Mahnıları dildə gəzər,
Adı hər bir eldə gəzər.
Gah Muğanda,

**İLYAS TAPDIQ**

## SƏNƏT GÜLZARINDAN VÜQARLA KEÇDİ

Zəif istedadlar təhlükəlidir –
Ad üçün dəridən - qabıqdan çıxır;
Nadir istedadlar yaman tez gedir,
Ya qəzaya düşür, ya dövran çıxır.

Gör nələr olmayıb, hər günə bax ki,
Bəzən, sağlam ömür qalıb yarıda...
Bu "fani dünyanın" hökmünə bax ki,
Zövqü də dəyişir, arzuları da!..

Dünya gah sevinclə, gah qəmlə dolur –
Ürək sevincə də, qəmə də yardır!
Bir şair ömründə min çovğun olur –
Çovğundan keçməyən baharmı vardır?!

Vurğun hər sözündə gələcək eşqi
Sənət gülzarından vüqarla keçdi;
Saz üstə köhləndi, saz üstə getdi,
Yaz üstə doğuldu, yaz üstə getdi.

*Mahmud Əhməd*

**VURĞUN**

O şeir sərrafı, o söz nəqqaşı,
Uca zirvələrə qalxıb da getdi.
Dağ kimi qarlandı onun da başı,
Dünyaya  zirvədən baxıb da getdi.

Əzəldən vuruldu Azərbaycana,
Dedi mən bir uşaq, sən də bir ana,
Canı tək sevdiyi bir böyük cana,
Şeir bulağı tək axıb da getdi.

Qəlbi tel-tel oldu, telə vuruldu,
Gözələ vuruldu, elə vuruldu,
Çiçəyə vuruldu, elə vuruldu,
Köksünə təltif  tək taxıb da getdi.

Ana südü oldu şeiri, qəzəli,
Əsərlər yaratdı duzlu, məzəli,
Şerindən boylandı ellər gözəli,
Sevgi şimşəyi tək çaxıb da getdi.

Şerin yuvasına döndü sinəsi,
Dünyaya yayıldı Vurğunun səsi,
Qəlbləri oxşadı həzin nəğməsi,
İnci buludlu tək yağıb da getdi.

Xəstəlik Vurğuna vermədi aman,
Ölümü qəlbləri dağladı yaman,
Öz şair oğlunu saxladı zaman
Özü ürəkləri yaxıb da getdi.

*Bakı*
05.XI.2001

## KİMİ

Yaşayır Vurğunum, sevilir Səməd,
Laylay ilə yatan körpələr kimi.
Vurğunun sənəti qalxıb ucalmış,
Əyilməz vüqarlı zirvələr kimi.

Günəşli diyarın düzləri, dağı,
İgidlər məkanı Kürün qırağı.
Yaşadır şairi həm solu, sağı,
Əbədi nur saçan şəfəqlər kimi.

Ürək gəlmir hamı ağladı desin,
El yas tutdu, bağladı desin.
Mahirin qəlbini dağladı desin,
Gülündən ayrılmış bülbüllər kimi.

Aprel, 1976

**MƏDİNƏ GÜLGÜN**

## TORPAQ DA DİL AÇDI ( SƏMƏD VURĞUNA )

Bir dost ocağının qonağı oldum,
Sən yadıma düşdün, xəyala daldım.
Ocaqdan soruşdum, mən xəbər aldım,
Vurğun alovumdur, közümdür – dedi.

Fikrim Savalana çəkdi karvanı,
Sanki bəxş etdilər mənə dünyanı.
Sordum, ey Savalan, bəs Vurğun hanı?
Eşit, Vurğun mənim özümdür – dedi.

Gah dağlara qalxdım, gah endim düzə,
Şibli gədiyindən gəldim Təbrizə.
Hansı bahadırla başladım sözə, -
Vurğun bükülməyən dizimdir - dedi.

Üzümü Xəzərə tutdum, danışdı;
Qovdu bir-birini dalğalar aşdı.
O da mənim kimi kükrədi, daşdı –
Vurğun harayımdır, səsimdir – dedi.

Gəzdim qardaş eli mən qarış-qarış.
Şairin hər yerdə sözləri qalmış.
Söhbət eylədiyim neçə dost-tanış
O böyük nəğməkar bizimdir – dedi.

Bir ağbirçək gördüm üzündə şəfqət,
Qəlbində bir dünya sevgi, məhəbbət.
Ölən oğul deyil, ölməmiş Səməd,
O, mənim bu iki gözümdür – dedi.

Torpaq da dil açdı, danışdı bir-bir,
Sanki öz oğluna söz açdı bir-bir,
Mənim tərcümanım olubdur şair,
Vurğun söhbətimdir, sözümdür – dedi.
Vurğun alovumdur, közümdür – dedi.

## PAPİROS

**Böyük şairimiz Səməd Vurğun haqqında AZ.TV-də veriliş gedirdi. Kadrlarda biri şairin yaradıcılıq anını** əks etdirirdi. Bu kinokadrda onun önündə stol, bir əlində qələm **vardı, o birində** siqaret tüstülənirdi...

O, ömrə vida deyəndə
mənim onca yaşım vardı,
Axı əlli nə yaşdı ki,
amansız ölüm apardı.
Qurban olmamaq olarmı,
"El bilir ki, sən mənimsən"
deyən dilə.
Vurğun olmamaq olarmı,
millətinə Vurğun kimi
bir şairi verən elə.
Sən təbət vurğunuydun,
el də "Vurğun" dedi sənə.
Vurğunluğu öyrəndikcə
vurğunlaşdıq biz də, demə.
O gur səsin, o hayqırtın
hələ neçə əsrə bəsdi,
Tufanları yara-yara
uzaqlara gedən səsdi.
Əfsus, sənin o nurani
sifətini görmədim heç,
Qəlb dolusu ziyarətçin
bir önündə durmadım heç.
Nə yaxşı ki, həyatından
ekranlaşmış kadrlar var,
Nə yaxşı ki, həsrətlilər
bircə anlıq sənə baxar,

Bircə anlıq baxdım sənə,
bir də baxdım iki barmaq arasından
burularaq göyə qalxan
papirosunun tüstüsünə,
bir də baxdım, baxdım sənə.
Nə qəribə bir mənzərə,
nə qəribə bir ahəngdi,
Sən fikirlər dünyasında...
köksün dolub boşalırdı.
Papirossa yana-yana
tüstülənib qısalırdı.
Böyük şair dünyamızın
acısnı sinəsinə
çəkə-çəkə yanmaqdaydı,
Papirossa bircə oymaq
külə dönüb tikə-tikə yanmaqdaydı.
Fikirləşdim, dedim kaş ki,
Nə olaydı, şair yanan
Papirosa başqa birin calayaydı,
Nə olaydı, o, fikirlər
dünyasından təzə şeir qoparaydı.
Qəribə bir arzu idi,
qəribə bir ahəng idi,
bu bəhs idi, bu cəng idi,
Biri aşkara yanırdı,
biri gizli əriyirdi.
Birindən bir otaq dolu tüstü qaldı,
birindən bir ocaq dolu isti qaldı.
Sanki tüstü pərvanəymiş,
şairimin dövrəsində dolanırdı,
Getdikcə acı tüstüyə
məndə rəğbət oyanırdı.
Papiros yanıb yox olurdu,
bu, aşkara bir mənadı,
Şair tüstüdən pay umur,
bu ayrı bir təmənnadı.
İki həyat yaşanırdı,
iki ömür gödəlirdi,
Əslində heç belə deyil,

bizlərə belə gəlirdi.
Papiros yanıb,
yox olunca deyirdim ki,
tükənəcək şairimin
öz dünyası,
Papiros yanıb yox olunca,
yox olacaq şeir-sənət söz dünyası.
Papiros yanıb bir heç oldu,
bir kül oldu,
Şair isə şeirləşib,
nəğmələşib bülbül oldu.
Biri yanıb kül olunca,
biri dönüb heykəl oldu.
Bilmirəm mən dostmu deyim,
ya düşmənmi deyim ona,
O kül etdi şairimin
vücudunu yana-yana.
Dolu qaba mərci boyda
bir daş atsan aşıb-daşar,
Yaş ötdükcə yanan ürək
vəsf edərək cavanlaşar.
Ağzınacan hikmət dolu
bir sinəyə bircə udum
tüstü getsə aşıb-daşar,
Qaynadıqca, kükrədikcə
axan sular durulaşar.
Nə deyirsən,
papirosumu tərif edək,
Yoxsa onun məlhəm
deyək tüstüsünə?
Yanımızda duran uşaq
dinləyərək bu söhbəti,
Dedi bəhsə girişməyin,
yoxdu bu bəhsin hikməti.
İndiyəcən qızan varmı
bu tüstünün istisinə,
Papirosun özü nədi,
olsun onun tüstüsü nə?
Zərərini anmayan da tüstülədir,

Yaxşı-yaman qanmayan da tüstülədir,
Papirosu qananlar da tüstülədir,
Papirosu nadanlar da tüstülədir.
Hətta professor, həkim tüstülədir,
Papirosu olsa hər kim, tüstülədir.
Bu dediyim şair haqda
tərif deyil papirosa,
Onu o xain üzünü
bir görəydiz heç olmasa.
İstəmirəm sümürərək sinəmizə,
cürət verəm papirosa,
İstəyirəm ona layiq
qiymət verəm papirosa,
İstəmirəm tərif edib,
fürsət verəm papirosa,
İstəyirəm doğru-düzgün
qiymət verəm papirosa.
O olmasa, şair bəlkə yüz yaşardı,
yeni zirvələr aşardı.
O etdi ömrünü qısa,
Ax, nə deyim papirosa,
Ax, nə deyim papirosa.

*Mehriban Qənbərova*

**SƏMƏD VURĞUN**

Sən gəzdiyin o dağların
Özü yolda, könlü səsdə
Bağ-baxçanın gül-çiçəyi
Boynu bükük son nəfəsdə
Meşələr də dumanlıdır
Dalğın-dalğın, sənə vurğun
Səməd Vurğun.
Düzənlərdə bir ceyranın
Yerişi var, baxışı var
Durna ötür göy səmada
Haray ilə qatar-qatar
Bu baharın üzü gülməz
Ürəyində həsrəti var
Səməd Vurğun.

Su içdiyin bulaqların
Üzü nəmli, gözü nəmli
Lalələr var çəmənlərdə
Bağrı yara, qüssə qəmli
Sən sevdiyin bu yerləri
Göz axtarır oğrun-oğrun
Səməd Vurğun.

Hər bir sözün nəğmə olub
Neçə dildə, dodaqlarda
Xatirələr gilə-gilə
İnciləşər yanaqlarda
Yaşayırsan uzaq-yaxın soraqlarda
Addım-addım səni gəzən çıraqlarda
Səməd Vurğun.

# *Səməd Vurğuna*

Yollar nəğmə deyirdi
Obalar-ellər üçün.
Nurlu bir şəhər də var –
Yolumu gözləyirdi;
Yaman ləngidim o gün...

Gecikiş qonağam mən,
Dayanmışam vağzalda.
Hara gedim, bilmirəm
Bu əhvalda, bu halda?!
Sakit dayanıb qatar,
Elə bil mürgüləyir.
Aya bənzər çıraqlar
Yerə şəfəq çiləyir.

Elə burda, burdaca,
Bu payız gecəsində;
Vağzalyanı meydanda,
Ağaclıqlar içində
Gəlib hüzuruna mən
Görüşdüm, salamlaşdım.
İlqara and içəndə
Sevincin aşıb-daşdı...
Bakının qapısında
Xoş üzlə, xoş diləklə
Qonaq qarşılayırsan
Yenə böyük ürəklə.
Gördüm heykəl boyunu,
Göyə ucaldı başım,
Ey qocalmaq bilməyən
Əziz şair qardaşım.

Sən qədim meşələrin

Həzin xışıltısını,
Müdrik, ulu dağların,
Açılmayan yolların
Ümid işıltısını;
Sökülən dan yerini,
Bulaq zümzüməsini,
Tufan nəriltisini,
Ellərin haqq səsini
Şeirinə döndərmisən –
Mahnıya döndərmisən.

Könüllər tərcümanı,
Saf əməllər diləsin.
Ovundurdun cahanı
Ürək sözlərinə sən.
Yandın, odlu səsinlə
Yamanlığı dağladın.
Arzulara qarışdın,
Nəğmələrdə çağladın.
Dilində Vətən sözü
Çapdın hünər atını.
Tanıtdın bu dünyaya
Onun məğrur adını.
Şair, könül rübabın
Dindikcə həzin-həzin,
Sirli, lal tarixləri
Dilə gətirdi səsin.

Hər xalqı, hər milləti
Vəsf elədi ilhamın.
Açdın sənət süfrəni
Günəşlə doldu camın.
Qardaşlıq şərəfinə,
Qardaşım, işıq içdin;
Çox keçilməz sədləri
Eşqinlə yanıb keçdin.

Ellərin böyük oğlu,
Gərəksən bizə, gərək...

Yenə qopsa da gürşad,
Döysə də dəli külək,
Özün qarşılayırsan
Gələn dostu, sirdaşı.
Ölməz şair Səmədim –
Mənim Vurğun qardaşım.

**MİKAYIL AZAFLI**

## VURĞUN

Zalım əcəl aldı getdi,
Daha gəlməz dilə, Vurğun.
Yaranandan yaranmışdı,
El ona, o, elə Vurğun.

Ellər oldu ziyarəti
Könüllərdə var həsrəti
Heç bir zamanın qüdrəti
Yaratmayıb belə Vurğun.

Yurdumuzun aran, dağı,
Muğan düzü, Kür qırağı.
Hər yaylağı, hər oylağı
"Ceyran" gözlər hələ, Vurğun.

Qoca Qafqaz çəkdi aman,
Ağlayanda Azərbaycan.
Saçlarını yoldu zaman,
Yanıb döndü külə, Vurğun.

Azaflı, yaz min bir əsər,
Hər gövhərin inci kəsər.
Bir qaydadır gələn gedər,
İnanmıram gələ, Vurğun.

*MƏMMƏD ARAZ*

## SƏMƏD VURĞUNLA SÖHBƏT

***60 illik yubileyinə***

Bağışlasın məni bəzi oratorlar,
Bu gecəyə bir azacıq əlavəm var.
Mən də şerin xidmətçisi,
Mən də şerin yiyəsiyəm.
Var sözümü bir məzarın
Qulağına deyəsiyəm:
Tərif, tərif səhnə dolu – yetməz sona!
Alqış, alqış! Az qaldı ki, tavan sına!
Sən gəlmədin bu axşam səsin gəldi,
Səsin əzəl qulağıma həzin gəldi.
Sonra bir az nəfəsinə qüvvət gəldi,
Çox xəbislər elə bildi Səməd gəldi.
Ön sırada titrədilər,
Ön sırada büdrədilər,
Lent qurtardı, nəfəs dərib, “ox” – dedilər.
Çox “vəfalı dostlar”ın da
O gecə də yoxdu ancaq
Bilirdilər Səməd bir də
Məruzəçi olmayacaq.
Fəqət mənim deyəcəyim bunlar deyil ,
Sənə məchul həqiqətdən sənə deyim.
Səndən sonra səni bir az silkələdik,
Çox aradıq, çox çevirdik, çox ələdik.
Böyüklərin faciəsi böyük olur,
Böyüklərin nöqsanları
Çiyinlərdən çətin enən bir yük olur.
Sağ olsaydın çox nidalı sətrini sən,
                    çırpıb yerə, ayaqlardın.
Biz saxlayan çox şeyləri
Az güman ki, sən saxlardın.
Sənin sənət dəftərində
Bunlar kiçik nöqtələrdi,
Bunlar çoxu möhürlənmiş diqtələrdi.
Şöhrətinə qibtəkar da

Bu  "təftiş"  saldı səsə:
Sevincindən az qaldı ki,
Övladını qurban kəsə.
Bəzisi də üzdə sənin tərifini
dil-dil ötdü.
Daldadasa, sağlığında min yol sənə,
dahi deyən,
Öz kölgəndə yallanaraq zingildəyən
Nankorları sapand etdi.
Səndən sonra
Şerimizin xəritəsi təzələşib,
Ona yeni şeir adlı
çox şəhərlər, kəndlər düşüb.
Hələ tədqiq olunmamış dərdlər düşüb.
Yeni dağlar, dağ zirvəsi yoxdur hələ,
Yeni tənqid zəlzələsi yoxdur hələ.
Səndən sonra tənqid bir az yuxalıbdır,
Yaxşı-pisin çəki daşı yoxalıbdır.
Səndən sonra
Şerimizə təzə-təzə yollar gəlib.
Bəzən isə
Şerimizə qol olmayan qollar gəlib.
Səndən sonra  cavanlara vədlər artıb,
Vədlərin də iki misli sədlər artıb.
Bəziləri gözündə bu
salxımlanan həqiqətə
gözü kordur.
Bəzisi də
çəkişmələr konsertinə dirijordur...
Nə gizlədim, həqiqəti şax deməyin,
Doğru sözün  "səni" çatmır,
Səndən sonra
Görüşlərin hərarəti sənsizləşib,
Kürsülərin cəsarəti sənsizləşib.
Ağsaqqallar səxavəti sənsizləşib!..
Mən saymadım sənsizləşib daha nələr,
Axı niyə sənsizliyi gizlədilər!

1966

**MƏMMƏD FAİQ**

## ŞAİRLƏR ARASINDA

Elə bil ki, dan yeri
Ələnir üzümüzə .
Vurğunun nur gözləri,
Divardan baxır bizə.
Baxır gözləri yorğun,
Dahilər sırasında.
Atamız Səməd Vurğun
Şairlər arasında.
Sanki darıxır burda
Baxışı nəsə anır.
Sanki qəfəsdə, darda,
Nurlu üzü odlanır...
Dostluq cəmiyyətində
Onun şəkli asılıb,
Sənətkar niyyətində
Həyat möhrü basılıb.
O baxır fəxr ilə,
Canlanıb gəlir dilə.
Azərbaycan elinin,
Sənətinin, dilinin
Əziz yadigarı tək,
Ölməz sənətkarı tək.

**MƏNSUR VƏKİL**

## SƏMƏD VURĞUNUN ŞƏKLİ ÖNÜNDƏ

Mənə elə gəlir
Bilir bu torpaq
Nə üçün saçına vaxtsız düşdü dən.
Yaş yox,
Başa görə tez qocalaraq,
Döndün el içində ağsaqqala sən.

Sənin can sirdaşın –
Qələmlə varaq,
Gənclik atəşiydi dövlətin, varın.
Bəlkə
Ona görə dalğalanaraq,
Darağa yatmırdı bəyaz saçların...

Elə o zamandan,
Elə o vaxtdan
Yadımda beləcə qalmısan, şair.
Axı, doğrudan da
Yaşıdlarından
Çox oldu, çox cavan olmusan, şair.

Adınla fəxr edir,
Vətənim, elim.
Bu yurda – ürəyin vurğun,aşiyan
Ölməz şair üçün
Nədir ki öıüm –
Şəklini bəzəyən qara haşiyə...

***MUSA YAQUBLU***
*( Gədəbəy )*

## VURĞUN DEDİM

Vurğun dedim:
Sözüm necə şirinləşdi, büllurlaşdı,
Rəvan oldu, tükənmədi, aşdı-daşdı.
Dilə gəldi Bəstilər də, Şirvanlar da,
Əhsən dedi, hər eşidən doğma yurda.

Vurğun dedim:
Məftun oldum poeziyanın qüdrətinə,
Sədd bilməyən nəğmələrin şöhrətinə...
Coşa gəldi saf arzular, saf diləklər,
Min bir sözlü, düz ilqarlı mərd ürəklər.

Vurğun dedim:
Səsim gəldi Dəlidağdan, Göyəzəndən,
Talıstandan, Mil-Muğandan, hər çəməndən.
Odlar yurdu kitab kimi vərəqləndi,
Elimizin gözəlləri cilvələndi.

Vurğun dedim:
Ürəkləri birləşdirən yol göründü,
Buxovları parçalayan qul göründü.
Dünyamızın hər yerindən gəldi səsi,
Səməd Vurğun – incilərin sərkərdəsi.

*"Könül nəğmələri" – Bakı - 1998*

*MİRVARİD DİLBAZİ*

## SƏMƏD VURĞUN ADLI SOVXOZDA

Vurğunu günəşli düzlərdə tapdım,
Ürəklərdə tapdım, gözlərdə tapdım.
Bir baxın şairin ülviyyətinə:
Dönüb Azərbaycan təbiətinə -
Vurğun xəzansız gül, bir gülşən olub
Vətən torpağına səpələnibdir.
Qızıl sünbüllərdə qızıl dən olub,
Eşqi zəmilərdə səpələnibdir.
Bir baxın şairin siz xilqətinə,
Çevrilib Vətənin söz nemətinə -
Vurğun bol bəhərə, bol bara dönüb,
Firavan yaşasın deyə elləri.
Üzümü şəkərli bağlara dönüb –
Suyunu bol içsin aran gülləri.

Bir baxın şairin siz qüdrətinə:
Çevrilib vətənin səadətinə -
Vurğun xan Araza, Kürə dönübdür,
Paylanır düzlərə o ləpir-ləpir.
Onun hər damlası dürrə dönübdür,
Keçdiyi yollara gül-çiçək səpir.
Dönüb yol üstündə qoşa çinara,
Kölgə salmaq üçün o yolçulara.
Durnabaşı olub, qaqqıltılarla,
Çəkib qatarını zirvələr aşır.
Söhbətə girişib yenə baharla,
Abad ellərini gəzib-dolaşır,
Çiçəkli bağlarda o Anadildir[1]
Otuz yaş da, qış da gör neçə ildir.
Necə də ilhamla deyir: - Ey Vətən!
Yaşa indikindən daha xoşbəxt, şən!

Bir baxın şairin məhəbbətinə,
Bir baxın illərin bu hikmətinə:

Vurğun oba olub, elə dönübdür –
Sazlarda çalınan telə dönübdür.
Şöhrəti, qüdrəti əsrlər aşar,
Xalqı yaşadıqca Vurğun da yaşar.

i

[i] Anadil – quş adıdır

## CEYRAN

Yurdumuzun ziynətidi,
Vurğun deyən, bala ceyran.
Ərzi-halım deyim sənə,
Vurğun deyən, bala ceyran.

Sənsən çöllərin sonası,
Ovçuların var hənası,
Yaylaqların gül qönçəsi,
Vurğun deyən, bala ceyran.

Qaçma aşığın səsindən,
Doymaq olmaz həvəsindən,
Yayın ovçu gülləsindən,
Vurğun deyən, bala ceyran.

Yay sürünü göy çəmənə,
İntizarı qaldı məndə,
Ovsunladın eli sən də,
Vurğun deyən, bala ceyran.

Vəliyəm, yaşa yüz ilə,
Sürün durna tək düzülə,
Heç insaf deyil üzülə,
Vurğun deyən, bala cyran.

**NƏBİ XƏZRİ**

## VURĞUN BURDADIR

Aşıq öz sazına mizrab vuranda
Telləri deyəcək: "Vurğun burdadır!"
Sonalar ovuna çıxan ovçular
Göllərə deyəcək: "Vurğun burdadır!"

Güləcək Vətənin daşı, torpağı,
Göylərə baş çəkən Göyəzən dağı.
Sıyrılıb buluddan hər axşam çağı,
Çöllərə deyəcək: "Vurğun burdadır!"

Onu yaşadacaq hər dərə, hər dağ,
Çınqıllı daşlardan süzülən bulaq,
Yaşıl çəmənlərdə pıçıldayaraq
Güllərə deyəcək: "Vurğun burdadır!"

Gələcək, gedəcək təzə nəsillər.
Dinəcək şairin eşqilə dillər.
Dünyadan aramsız ötüşən illər,
İllərə deyəcək: "Vurğun burdadır!"

Axacaq qəlblərə isti nəfəsi,
Əsrlər ardından gələcək səsi.
Hər təzə şairin əzəl nəğməsi
Ellərə deyəcək: "Vurğun burdadır!"

***Nikolay Tixonov***

Rusiya

## *İKİ GÖRÜŞ*

(“Azərbaycan dəftəri”ndən)

Görüşdüm qardaşım Səməd Vurğunla
Bir yaşıl meşənin kölgəsində mən.
Görüşdüm dənizlə, odla, tufanla,
Ağaclar nur içdi şair səsindən.

Bütün palıdların nəhəngiydi o,
Kölgəsi dağ kimi durdu qarşımda.
Meşənin hökmdar pələngiydi o,
Vüqar gətirmişdi öz baxışında.

Nə alqış gəzirdi, nə də sükunət,
İstəyi – düzlərin geniş qucağı.
Öz doğma eviydi ana təbiət,
Onun bundan özgə yox umacağı.

Cığırlar öpürdü ayaqlarını
Öz  böyük şöhrəti, qazancı kimi.
Ağaclar ən yaşıl yarpaqlarını
Çiyninə salırdı yapıncı kimi.

Talada cüyürlər, budaqda quşlar
Nurani üzündən sehirlənirdi.
Bir dağ yeriyirdi, zirvəsində qar,
Qəlbində saz çalır, ilham dinirdi.

Dinirdi torpağa, elə məhəbbət,
Ömrü məhəbbətlə gözəlləşirdi.
Canlı şeir kimi gözəldi Səməd,
Şeir də Səmədlə gözəlləşirdi...

O tellər səslənir illər ötdükcə,
Ürəyim çırpınır o sədaqətlə.
Sevdiyim Bakıda aylı bir gecə
Mən yenə görüşdüm dostum Səmədlə.

Geniş bir meydanda tutmuşdu qərar
Ən əziz, ən yaxın bildiyim insan.
Şairi dövrəyə alıb ağaclar
Söhbət edirdilər  şirin, mehriban.

Sandım ki, yenə də yaz  səhəridir,
Yamyaşıl meşələr düşdü yadıma.
Ağaclar o yerin elçiləridir,
Salam gətiriblər söz ustadına.

Səməd də öz nurlu baxışlarıyla
Durduğu  zirvədən şölə saçırdı.
Yenə öz dostları, qardaşlarıyla
Böyük dünyamızdan söhbət açırdı.

## MƏN TƏLƏSDİM

"...MƏN TƏLƏSMİRƏM"
S.VURĞUN

Mən ömrüm boyu tələsdim, şair,
İstədim dərədən mən dağa qalxım.
Saatlar üstündə çox əsdim, şair,
Dedim ki, bir anda ayağa qalxım.

Tələsdim elə bil saç ağartmağa,
Bilmirəm, heç niyə tələsdim, şair.
Tələsdim gözümə eynək taxmağa,
Otuzdan əlliyə tələsdim, şair.

Bilmədim yolların yüz dolayında,
Mənim səadətim nə vaxta qaldı.
Bir əlim təqvimin yanvar ayında,
Bir əlim avqustda, varaqda qaldı.

Oyandım içimdə səsə , haraya,
Həyatın özüydü məni oyadan.
Yaz yenə vaxtında gəldi dünyaya,
Qış yenə vaxtında getdi dünyadan.

*NƏRİMAN ƏLİYEV*

## TARİX QOCALDIQCA GƏNCLƏŞİR VURĞUN

Vətənin, millətin, zamanın səsi,
Bahar təbiəti, günəş həvəsi,
Bəşəri duyğuyla səslər hər kəsi,
Hər şeiri dalğalı dəniz tək coşğun,
Tarix qocaldıqca gəncləşir Vurğun.

Poeziya günəşi, sənət dahisi,
Söz sənətimizin mərd fədaisi,
Daim gələcəyə səsləyir bizi,
Onu oxuduqca şənləşir duyğun.
Tarix qocaldıqca gəncləşir Vurğun.

Əsrlər keçəcək, illər keçəcək
Dünyadan nəsillər gəlib köçəcək.
Kim ki, bu rübabdan şərbət içəcək,
Olacaq Vətənə, həyata vurğun,
Tarix qocaldıqca gəncləşir Vurğun.

Nizami, Füzuli, Sabir qüdrətli,
Bütün ürəklərə sirdaş ülfətli,
Ecazkar kalamlı,müdrik hikmətli.
Şair tək əbədi yaşardır Vurğun,
Tarix qocaldıqca gəncləşir Vurğun.

Dekabr 1996

*NƏRİMAN XƏLİL*

## VURĞUN DÜNYADAN KÖÇƏNDƏ

Əsdi külək, qopdu tufan,
Qəm tütəyi çaldı zaman.
Sözün qəddi sındı yaman,
Vurğun dünyadan köçəndə.

İnlədi saz, ağladı tar,
Oldu şeirin meydanı dar.
Sızıldadı çox sənətkar,
Vurğun dünyadan köçəndə.

Bağ-bağçalar tutdu yası,
Dağlar geydi qəm libası.
Uçdu göldən söz sonası,
Vurğun dünyadan köçəndə.

Söz bağına uçan quşdum,
Hikmətinə vurulmuşdum.
Həm ağlardım, həm bihuşdum.
Vurğun dünyadan köçəndə.

Qəm üstə kökləndi "Muğam",
Nərə çəkdi "Vaqif", "İnsan".
Yasa batdı Azərbaycan,
Vurğun dünyadan köçəndə.

*NİYAZİ NİKBİN*

**SÖZ DƏ TAPA BİLMƏDİM**

Əliboş gəlməmək üçün,
Yubileyinə şairin.
Dedim, bir dəstə çiçək,
Ya bir şeir gətirim.
Elə bu məqsəd ilə,
Dağlara etdim güzar,
Dedim: - Yəqin, dağlara,
Gözəl lalə tapılar.
Gəzdim dərəni, döşü,
Gəzdim çölü, örüşü.
Ən gözəlin görəndə,
Əl uzadıb dərəndə,
Söylədi, üzülmüşəm,
Vurğun şeirlərində,
Misrayla düzülmüşəm.
Hara baş çəkdimsə mən,
Əliboş döndüm geri.
Hər tərəfdən səs gəldi:
Yaşa Vurğun şeiri!
Dünyada hər nə varsa,
Qiymətlisin, gözəlin,
Seçibdirmiş, yubilyar.
Odur söz çələngində,
Nə istəsən tapılar.
Söz də tapa bilmədim:
Bircə bəndlik də olsa,
Layiq olsun Vurğuna.
Bu səadət çıxmayır,
Hər sənətkar uğruna.
Əhsən deyək, onunçün,
Gözəl yazıb-yaratmış.
Dünya şöhrəti tapmış,
Azərbaycan oğluna,
Azərbaycan oğluna!

*OSMAN SARIVƏLLİ*

## SƏNİ

**Səməd Vurğun sayağı**

Ocaq dağı, oyatdımı
Sazım səni, sözüm səni?
Könül quşu qanadlandı,
Görən kimi gözüm səni.

Arzum budur dost elində,
Şirin mahnılar dilində,
Bir dəli köhlən belində,
Qarış-qarış gəzim səni.

Sözü süzdüm süzgəcindən,
Qaçdım insanın kəcindən,
Min türfə gözəl içindən,
Özüm seçdim, özüm səni.

Qayaların qalanıbdır,
“Könlüm evi talanıbdır”.
Neçə yoldan dolanıbdır,
Mənim yolum, izim səni.

Quzqulağı, dağ ətəyi,
Körpə baldırqan özəyi,
Dağ gülü, qaymaq çiçəyi,
Misralarda düzüm səni.

Sağın meşə, solun meşə,
Səni gəzdim mən həmişə,
Necə qıyım ay bənövşə,
Öz hökmündən üzüm səni.

Ocaq dağı, məni dinlə,
Özüm qəsdən, bilə-bilə,
İstəmədim sözlərimlə,
Yorum səni, özüm səni.

***Petro Qoretski***

*Ukrayna*

## *SƏMƏD VURĞUNUN XATİRƏSİNƏ*

Sən bizim düzlərdən yollansan əgər,
Sorsan Ukraynanın zəmilərindən,
Sənə hər çöl deyər, hər çəmən deyər:
– O böyük şairi tanıyıram mən. –

Karpat dağlarında qütsül[1] dilənər,
Sənin nəğmələrin düşməz dilindən.
– Hər oba danışar, aul dillənər:
– O böyük şairi tanıyıram mən.

Arzusu gül açan zəfər kimidir,
Onun eşqi dəniz, ürəyi dağdır.
Qaynar nəğmələri səhər kimidir,
Həmişə qəlblərdə yaşayacaqdır.

Sən elin qəlbindən gələni dinlə:
– Ölməyib şairin eşqi, həvəsi, –
Daha gur səslənir nəğmələrinlə
Bizim Ukraynanın coşğun nəğməsi.

i

[i] Karpat dağlarında yaşayanlara "qütsül" deyirlər.

***PİRVERDİ DAĞLAROĞLU***
***Şair-jurnalist***
***( Şəmkir )***

## VURĞUNUN

Şeiriyyət canlanır, təbiət gülür,
Aləmə nur saçır gözü Vurğunun.
İnsan yaşa dolur, beli bükülür,
Düşməyir dillərdən sözü Vurğunun.

Elə böyükdür ki, şeiri, sənəti,
Qazanıb hər yerdə el məhəbbəti.
Bircə misrası da pozulmaz qəti,
Silinməz dünyadan izi Vurğunun.

Düşünüb illəri, qərinələri,
Qələmə alıbdı şah əsərləri.
"Vaqif"i, "İnsan"ı dillər əzbəri,
Sönməyib ocağı, közü Vurğunun.

Gəzib qarış-qarış Mili, Muğanı,
Qələmlə qazanıb şöhrəti, şanı.
Zirvəyə ucaldıb Azərbaycanı,
Eldə ağ olubdu üzü Vurğunun,
Tükənməz söhbəti, sözü Vurğunun.

## QABİL

Başı qarlı uca dağdır Səməd Vurğun,
Həm bayraqdar, həm bayraqdır Səməd Vurğun.
Xalq şairi böyük addır, bu adsız da,
Bu yer, bu yurd, bu torpaqdır Səməd Vurğun.

## KÖNÜLLƏRİN TƏQVİMİNDƏ

Səməd Vurğun ilk baharda
Gəldi cahana
Bahar onu töhfə verdi
Azərbaycana.

Şerimizin taleyinə
Yazıldı o yaz.
Elə bil ki yol gəlirdi
Yüz ildi o yaz…

Gəlib çatdı şair ilə
Dayandı qoşa.
Yaz Vurğuna vurğun-vurğun
Etdi tamaşa.

Göy qurşağı bəxş elədi
Yeddi rəng ona.
Rəvan sular verdi rəvan
Bir ahəng ona.
- Coşqunluğu həmişəlik al! -
Dedi sellər.
- Bizim kimi təravətli qal -
Dedi güllər.

İlk baharı sevincindən
Bürüdü qəhər…
Özgə kimə layiqdi ki
Həmən töhfələr?!

Qürurunu möhtəşəm dağ
Gətirdi onun.
Saflığını büllur bulaq
Gətirdi onun.

Kövrəkliyi kol dibində
Mavi bənövşə,
Çal-çağırı yaz ayları-
Nəğməli meşə!

Yaz səması aydın, açıq
Qayəsi oldu.
Torpağın ilk hənirtisi
Mayası oldu.

Bahar bütün cəh-cəhləri
Yığdı bir yerə.
Musiqidən çələng hördü
Böyük şairə.

Qaranquşlar müjdə verdi
Ona körpətək.
- Eldən- elə, dildən-dilə
Adın gəzəcək!

Lalələrin al rənginə
Boyandı Vurğun.
Al bayrağın keşiyində
Dayandı Vurğun.
Başı qarlı cavan zirvə,
Yaşıl dağdır o.
Zirvələrlə bir cərgədə
Duracaqdır o!

Şeirimizi bahar kimi
Bəzədi şeiri.
Könüllərin təqvimində
Təzədi şeiri…

Səməd Vurğun ilk baharda
Gəldi cahana.
Bahar onu töhfə verdi
Azərbaycana!

***Qafur Qulam***
*Özbəkistan*

## *QARDAŞIM SƏMƏD VURĞUNA*

Qüdrətli bir ölkənin geniş asimanını
İri, parlaq ulduzlar bəzəmiş başdan-başa.
Diqqət etsən, yoxlasan tarixin karvanını,
Rast gələrsən burda sən neçə qiymətli daşa!

Qədim atəşgahlarda, müqəddəs ocaqlarda
Yenilməz babəklərin sönməyən nəfəsi var,
Dağlarda, dərələrdə, kahalar qucağında
Ən qəhrəman bir xalqın harayı var, səsi var.

Yox, sevgisiz dünyada nə bir rəng var, nə camal,
Musiqisiz, qəzəlsiz döyünməyir bir ürək!
Mahnısız ömürlərdə nə iqbal var, nə kamal,
Burax, könül alışsın bir sönməyən alovtək!

Məhsətinin qəzəli bu yerin qoxusudur,
Yaşayır bir sevimli, bir mehriban can kimi,
Nizami dastanları xalqın öz duyğusudur.
Yaşayacaq həmişə, yaşayan zaman kimi!

Səməd! Əziz qardaşım! Yox, düşünmə əsla sən,
Yalnız təsəlli üçün söyləyirəm mən bunu:
Sən xalqının oğlusan, qopdun onun qəlbindən,
Xalq da sevir, unutmur öz namuslu oğlunu.

Sən Vətən göylərində yanırsan ulduz kimi,
Yanırsan sevda dolu, ilham dolu göz kimi,
Sən körpə dodaqlarda gəzirsən bir söz kimi,
Xalqın halal aşına sən dad verdin duz kimi.

Hər kəlamın, hər şeirin düşmüşdür dildən-dilə,
Hər dastanın, hər sözün tükənməyən dövlətdir;
Dolaşır diyar-diyar, dolaşır eldən-elə,
O, aslan nərəsidir, o, ən böyük qüdrətdir1

**QAYSIN QULiYEV**
Kabarda – Balqar

# Nə yaman tez köçdün, şair

(Səməd Vurğunun xatirəsinə)

Səni axtarıram iyirmi il var –
Tapa bilməyirəm söz barəsində.
Gəzdiyin dağlara yağır yağış, qar,
Qış gedir, yaz gəlir öz vədəsində.

Kövrəldim, gördükcə bəyaz saçını,
Mənim də başımın sıxlaşdı çəni.
Əcəl çox vədəsiz döydü qapını,
Nə tez qoyub getdin Vurğunsuz məni!

Gözlərim önündə - qoca Qafqazın:
Ucalıq, ülviyyət yenə yaşayır.
Fəqət eşidilmir söhbətin – sazın,
Yaman sənsizləşdi dağlar da, şair...

Odlar ölkəsində - Səməd elində
Taxıl da, meyvə də yetişir yenə.
Ey böyük nəğməkar, sənət evində
Şair övladların ötüşür yenə.

Nə tez köçüb getdin, hicran nə ağır?!
İndi özüm səndən xeyli yaşlıyam.
Dağlara qar-yağış Səmədsiz  yağır,
Mən də bulud kimi gözü yaşlıyam.

Yurdun unutmayır əziz oğlunu –
Yaşadır  tükənməz  səxavətini.
Sevirəm, ey ustad, sənət yolunu,
Qəlbini, əzmini, cəsarətini.

İnamın əbədi dağ vüqarıdır –
Qoy tutsun  qolumdan sözün, şairim.
Şerin şerimizin zirvə qarıdır,
Nə yaman tez köçdün özün, şairim?!

**Boris Ozyornı**
Rusiya

## Səməd Vurğunun xatirəsinə

Gör necə torpaqdır,
Həm sərt, həm möhkəm.
Ətrafda sakitlik...
Barı bir söz de sən.
   Eşidirsən?
Salam, Səməd!
Gəlmişəm ki, mən
Səninlə görüşüm,
Səməd, yenidən.
Çoxdandır səninlə
  Görüşməmişik.
Beləmi istərdik?
Bir cavab ver sən.
Əfsus ki, susursan,
            Eşitməyirsən.
Eh, səsimə ancaq
Səs verir külək,
Uçur dəniz boyu,
Dinir nəğmətək.
              Səhər...
May səhəri...
Dənizin üzərində
Oyanmış günəşin
            Şəfəqləri,

Uzaqda uçurdu
Gümüşü təyyarə.
“Bu həyatdır, -
Onda səadət də,
Kədər də var.
Hansını götürək? –
Bilməkmi olar”.
Sən belə deyirdin,
Onda sübhə kimi oturmuşduq biz,
Şeir oxuyurdu ürəklərimiz.
Papiros çəkirdik biz yenə,
Qəvvas olub baş vururduq
Ürəklərin, dünyanın sirlərinə.

Yazıçılar qurultayından sonra
Ikilikdə qaldıq biz
Bir gün Moskvada.
Bakını görməyi arzuladım,
Bakı düşdü yada.
Mən gəlmişəm, Səməd!
Coşub-daşan dənizi
            Cilovlayaraq
Çapatrək gəlmişəm bax!
Çata bilmədim... Gecikdim...
Həyatın uçan ulduztək alışdı, yandı.
Ah, hələ nə qədər yaza bilərdin.
Arzuların, işlərin dayandı,
Ölüm bədəninin odunu,
            istisini aldı.
Fəqət, ürəyini ala bilmədi.
Indi ürəyin bir qartaldır.
Yox, Səməd ölmədi,
Yaşadı adı.
Ölüm gəldi, fəqət ona

Gücü çatmadı.
Yaşasın Səməd gərək,
Nizamitək, Vaqiftək.
Rus adətinə görə,

Buğda atıram qəbrinə,
Qoy, xeyirxahlıq sünbülü ilə
Günəşli həyata can atsın yenə.
Gedirəm, qəlbimin bir parçasını
Qoyub gedirəm fəqət.
Görüşə kimi, Səməd!
Görüşə kimi,
            Eşidirsənmi, Səməd?!

Qarşımda yenə
Sınaqdadır yollar.
Uzaqlar çağırır...
Qulaq asıram səsinə.
Daha da ehtirasla ,
Daha da  çox yazmaq lazımdır indi.
Bu da, ay Səməd,
Sənin vəsiyyətindi...

# QƏŞƏM ASLANOV

## CEYRAN

S.VURĞUNU ANARKƏN

Günahkar deyiləm, gəl qaçma məndən,
Dolan gəl yanıma, a bala ceyran!
Sən getsən inan ki, dözə bilmərəm,
Bir an ayrılığa, məlala, Ceyran!

Boynunu burma sən, bağrım qan olur,
Könlüm qubarlanır, pərişan olur.
Göz yaşım süzülüb bir ümman olur,
De, necə qıyırsan bu hala, Ceyran?

Bilmirəm nədəndir qəmginsən belə,
Yenə göz yaşın dönübdür selə.
Daha baxmayırsan çiçəyə, gülə,
Dalırsan Vurğunsuz xəyala, Ceyran!

## VURĞUNUN

Dağların döşünü bürüyəndə çən,
Lalə sırğa taxar mirvari şehdən.
Yarpaqmı titrəyir bir xəfif mehdən,
Yoxsa bəstələnir sözü Vurğunun.

Qəvvas idi – dəryalarda üzərdi,
Qartal idi – zirvələrdə süzərdi.
Sərraf idi – söz mülkünü bəzərdi,
Görünür hər yerdə izi Vurğunun.

Odlar diyarını bu gün görməyə,
Şeirdən hüsnünə çələng hörməyə.
Yenidən bir ömür, ömür sürməyə,
Gələydi kaş özü, özü Vurğunun.

Əsrin vurğunuydu Vurğun xəyalı,
Xəzər təbli idi, Kəpəz kamallı.
Bahar duyğuluydu günəş ziyalı,
Sönməz ürəklərdə közü Vurğunun.

Doğma yurdun neçə-neçə çayı var,
Hər birinin öz harayı, hayı var.
Hər şairin öz qisməti, payı var,
Bulaqların billur gözü Vurğunun.

*QURBAN ƏLİYEV*
*( Şəmkir )*

## VURĞUN KİMİ

Gəl çıx dağlara, ey şair qardaş,
Dolan Vurğun kimi, gəz Vurğun kimi.
Yazılı tarixdir hər qaya, hər daş,
Oxu Vurğun kimi, yaz Vurğun kimi.

Qoy dəysin üzümə dağlar küləyi,
Dağlara da xoşdur şair gəlməyi.
O çöllər bəzəyi hər bir çiçəyi
Oxşa Vurğun kimi, gəz Vurğun kimi.

Sözə suvar etdi bu dövran məni,
Baxdım, ha boylandım görünmür sonu.
Qurbani, incimə, yandırsın səni,
Qoy köz Vurğun kimi, söz Vurun kimi.

*Ramiz Heydər*

## Xalq yola salırdı
## öz şairini...

Çıxmışdı yollara şersevənlər,
Bakının yolları dalğalanırdı.
Necə dərdliydilər şersevənlər,
Elə bil qəlblərə dağ qalanırdı.

Dilində ilahi dualarıyla
Göylərə açmışdı çoxu ovcunu.
Kədərli, hüznlü duyğularıyla
Şairə verirdi xalq öz borcunu.

Vurğun xalqa verdi dövlət, varını...
İnsanlar axırdı hey qatar-qatar.
Ürəkdən oxuyub misralarını,
Sevənlər göz yaşı axıdırdılar.

Çəkmək çətin idi bu dərdi, qəmi,
Üfüqlərdə sönən dan ulduzuydu.
Hönkürürdü hamı doğmalar kimi,
Sanki onlar onun oğlu, qızıydı.

Əsrimizin böyük söz ustadını,
Sanki bütün cahan yola salırdı.
Başı üstə tutub uca adını,
Onu Azərbaycan yola salırdı.

Gözlərdən  axırd ı yaş gilə-gilə,
Anlaya  bilmirdik  ölüm sehrini.
Ürəklərdə kədər, o son mənzilə,
Xalq yola salırdı öz şairirni...

14 avqust 1956-cı il

***Ramiz Rıskulov***
Qırğızıstan

## *Səməd Vurğun*

Bunu tale mənə yazdı,
Yoxsa özüm tapdım onu?
Köçməyinə bir il qalmış
Görə bildim mən Vurğunu.

Moskva. Zal. Qonaq evi.
Saçlarında Kəpəz qarı,
Bu ağ saçlı ulu xilqət
Addımladı mənə sarı.

Həyəcandan zağ-zağ əsdim,
Sandım ki, bu ulu şair
Min-min nəsli yola salmış
Karvansaray sahibidir.

İri gözlər – od yuvası,
Qorxa-qorxa, dönə-dönə
Nəzər saldım, təslim oldum
O gözlərin qüdrətinə.

Göy damarlı arıq əlin
Əlimdədir hərarəti.
O əllərdə bulud yarmış
Bir ildırım cəsarəti!

Dodaqları bir az solğun,
Fəqət nitqi mənə tanış.
Bilirdim ki, susan dodaq
Tufanları qıfıllamış.

-Qırğız oğlu, bilirsənmi
Sən "Manas"ı şair kimi?
Akın olmaq, qopuz çalmaq

Adətinmi, şəkərinmi?

Çaşdım düzü bu sorğudan,
Baxdım şair qəhrəmana.
-Sarsılmazdır, əbədidir-
Dedi – Manas doğan Ana!

İgid Manas, qoç Kroğlu
Nə birinci, nə sonuncu.
Nə qılıncın iki ağzı,
Bir kompasın iki ucu!

... Bu gün yanıb yıxılıram,
Hanı bəs o yeriyən dağ?
Gözəllik ovçusu gözüm
Daim onu axtaracaq.

Ramiz! Bəlkə rəmzdir bu,
Qapı açmış tale mənə.
Qəlbim coşub, əlim dəyib
Bir dahinin əllərinə.

Tale – dürüst tərzidir,
Bizi dəqiq çəkir özü.
Tərəzinin mərdlik daşı
Tələb edir ömrümüzü.

Səməd Vurğun!
            Sən yandırdın
Həyatını bir eşq üçün.
Misralarda məşəl oldu
Dağ siqlətin, dəniz gücün.

-Çovğundan sağ çıxan qüvvət-
Dedin – insan inadıdır.
Bir həqiqət, bir də mərdlik
Şairin cüt qanadıdır.

Sən ömrünü misra-misra

Bağışladın öz elinə.
Dünən sənə çamur atan
Gül uzadır bugün sənə.

Böyüklüyün qanunu var,
Qismət olmur ona-buna.
Böyük girir böyük kimi
Kiçiklərin yuxusuna.

Mən Bakıya can atdım ki,
Bir də, bir də görüm səni.
əvəzində tapdım ancaq
Addımlayan heykəlini!

Bildim:
              burda sevgililər
görüş verib bir-birinə.
Sevən öncə ürək açır
Sevənlərin şairinə.

Gözlərimdən yaş süzülür,
Ancaq gedə bilmirəm mən.
Göz ayrılır, can ayrılmır
Buludla tən heykəlindən.

Azərbaycan nə gözləyir?
Yeni Səməd Vurğununu.
Kür üstündə çocuq gördüm,
Sənə bənzər gördüm onu.

**Raqif Raufoğlu**

### *VURĞUN 100 İL YAŞASAYDI*

Vurğun 100 il yaşasaydı,
Təbiət də bir özgə cür,
Gülümsərdi üzümüzə,
Bir gün dəyər verilərdi,
Şeirimizə, sözümüzə.
Bu gün “şair” deyilməzdi,
Nəsə qazanc xatirinə,
Sözü sözə qoşan kəsə,
Bu gün şeir deyilməzdi.
Ürəklərin qapısını,
Tanımayan adi sözə.
Vurğun 100 il yaşasaydı,
Qırılmazdı məmləkətin,
Milyon-milyon ağacları.
Yurd-yuvasız qalmaz idi,
Kəklikləri, turacları.
Çiçəklər də xüsusi bir,
Məhəbbətlə açılardı.
Ağaclar da xüsusi bir,
Sevgiylə bar gətirərdi.
O bar ilə o sevgini,
Ötürərdi ürəklərə,
Arzulara, diləklərə.
...Vurğun 100 il yaşasaydı,
Bu gün bizim mədəniyyət,
Yol azaraq üz tutmazdı,
Düz mədəniyyətsizliyə.
Gələn nəsil unutmazdı,
Utanardı, məncə bir az.
Bu torpaqda  Nizamilər,
Füzulilər, Nəsimilər,
Yaşayıb, yaradıb deyə.
...Vurğun 100 il yaşasaydı,
Bu gün “ulduz” deyilməzdi,

Hər ekranda görünənə.
Gələcəyin tarixçəsi,
Söyüşlərdə yazılmazdı.
İnsan, o yaradan kəsi,
-Allahını-unutmazdı.
Bu gün niyə tüğyan edir,
Qarışqalar, zəlzələlər?
Yay bilmədən, qış bilmədən.
Bilirsizmi niyə əsir,
Evləri uçuran külək?
Niyə üz döndərib fələk?
Bu insana nələr etsə,
Ulu tanrı, yenə azdır.
...Vurğun 100 il yaşasaydı,
Tənbəlliyin daşını biz,
Məncə çoxdan atmış idik.
Vurğunun 100 yaşında biz,
Ulduza da çatmış idik.
İnsan oğlu gündüz günəş,
Gecə ayla yarışardı.
Qışda qışın soyuğuyla,
Yayda yayla yarışardı,
Zəhmətlə qazanılmamış,
Bir tikəyə toxunmazdı.
Hər azərbaycanlı olan,
Qanında türk qanı olan,
...Vurğun 100 il yaşasaydı,
Bu gənc nəsil görünməzdi.
Əldən düşmüş yorğun kimi,
Görünərdi həmişə gənc,
Həyat sevən, Vurğun kimi!

## RÜBAİL

### VURĞUN HEYKƏLİ

Nə qədər heykəl var fikirli, dalğın –
Dünyanın qayğısı başından aşır.
Böyük şairləri doğma bir xalqın
Dinləyir, deyəsən Vurğun danışır.

Nəzər sal bir onun şair şəstinə,
Yürüşdə çoxunu keçib, yorubdur.
Sanki inamının çıxıb üstünə,
Qranit pyedestal üstə durubdur.

O, hələ gör hara ucalasıydı,
Dayağı bu torpaq, yanan bir ocaq.
Səməd yaşadıqca qocalasıydı,
Vurğunun heykəli qocalmayacaq.

Heykəllər paytaxtda meydan başında,
Meydanlar mərkəzdə süfrəyə bənzər.
Ünvanlar hardasa mərmər daşında,
Şeirlər gör neçə ölkəni gəzər.

Vətən torpağında yuxusu dərin,
Xəyalı göylərdə ulduzu sayır.
Fəxri Xiyabanda yatan şairin
Heykəli vağzalda dost qarşılayır.

***RENATE QROBE***
*( Almaniya )*

**NƏĞMƏ**

Heyne – nəğmə...
Səməd – nəğmə...
Sizin nəğmə, bizim nəğmə
qardaş imiş.
Bu nəğmələr gör necə də
sirdaş imiş...

Şeir – dünya...
Sənət – dünya...
Gəlin çəkək şeir-sənət
keşiyini
Gəlin sizə nişan verim,
Şeir adlı dünyamızın
beşiyini.

Heyne – nəğmə...
Səməd – nəğmə...
Bu nəğməylə misra-misra
sehirləndim.
Nəğmə-nəğmə sehirləndim.
Doğmalaşıb ürəyimdə bu
nəğmələr.
İlkim oldu.
Əslim oldu.
Qəlbimdəki yaxın-uzaq
Min-min nəğmə
Bu nəğməyə təslim oldu...

Sizin nəğmə, bizim nəğmə
qardaş imiş,
Bu nəğmələr gör necə də
sirdaş imiş!
Heyne – nəğmə...
Səməd – nəğmə...

*Tərcümə edəni: Namaz Manafov.*
*“Ulduz” jurnalı, № 5, 1966*

### *Əşrəf Müşfiq*

## *Xatirə*

S.Vurğunun anadan olmasının
80 illiyi münasibətilə

Çoban qardaş, çal tütəyən dilə gəlsin,
Bu yaylaqlar qoy eşitsin neyin səsin.

Çox otlamış bu yaylaqda qoyun-quzu,
Su üstündən çoban dərmiş göy yarpızı.
Əmlik kəsib qaladığı gur tonqalda,
Şişə çəkib, yarpızlayıb qovurub da,
Haraylayıb çobanları uzaqlardan.
Vurğun da ki, çıxıb bu vaxt otaqlardan
Gəlib bura ney səsinə qulaq assın,
Ürək açan mənzərəyə o da baxsın.

Çoban qardaş, çal tütəyin dilə gəlsin,
Bu yaylaqlar qoy eşitsin neyin səsin.

**RÜSTƏM ƏQVDARLI**

İSTƏYİR

Hər bahar gələndə dağa-arana,
Az qalır ürəyim alışa, yana,
Boylanır ceyranlar, baxır hər yana,
İmsiyir güllərdən Vurğun istəyir.

Dinşə, bir qulaq as kamana, tara,
Təzyanə deyəndə telli sazlara,
Aşıqlar söz qoşub əhdə, ilqara,
Aylardan, illərdən Vurğun istəyir.

Bir tərəfdən Araz, bir tərəfdən Kür,
Axdıqca, ləpələr boylanır, ötür...
Buludlar gözündən qanlı yaş tökür,
Sonalı göllərdən Vurğun istəyir.

Sözləri bal dadır ağızda, dildə,
Durur xatirəsi obada, eldə.
Boylanıb yollara çiçək də, gül də,
Laylalı dillərdən Vurğun istəyir.

Dahilər məskəni, ilham diyarı –
Yox yerdən yaradıb o misraları.
Şair Əqvdarın qışı, baharı,
Hər əsən yellərdən Vurğun istəyir.

*Rəsul Həmzətov*

## *SƏN NİYƏ DÜNYADAN TEZ GETDİN, ŞAİR*

Bakı, eşitdim mən sənə üz verən
O böyük, o ağır dərdi, itkini.
Az qaldı ürəyim qopsun yerindən,
Tələsdim qoynuna küləklər kimi.

Gördüm ki, ah çəkib ağlayır Xəzər,
Mənim də göz yaşım leysana döndü.
Ən əziz oğluna yas tutub ellər,
Bu nə müsibətdi, nə ağır gündü!

Dərdi başdan aşıb qoca Qafqazın,
Kədərə bürünüb gül də, çiçək də.
Solub, rəngi solub alyanaq qızın,
Qəhər daş bağlayıb zərif ürəkdə.

Gördüm ki, diz çöküb ana-bacıtək
Sənə ehtiramla ölkə baş əyir.
Bilirəm, həmişə hamı deyəcək:
Sən niyə dünyadan tez getdin, şair?!

Gedir hüzn ilə insan axını,
Qüssədən çatlayır soyuq daş-divar, -
Ellər öz çiynində Səməd Vurğunu
Bu gün son mənzilə yola salırlar...

Ellərin çiynində belə ağır yük
Olmayıb, olmayıb heç vaxt, heç zaman!
Bizik ki, bu dərdi çəkir, dözürük,
Sən olsan dözməzdin, ey böyük insan!

Xəzərin üstündə sis, duman gəzir,
Əbədi əlvida, dostum, ustadım!
Gedirəm, Dağıstan məni gözləyir,
Gedirəm, yadımdan çıxıb öz adım.

Ancaq bir günəşdir xatirən sənin,
Heç vaxt ölməyəcək o söz, o sənət! –
Bircə bu olsa da təsəllim mənim,
Sən niyə dünyadan tez getdin, Səməd!

Yox, yox! Ölüm nədir?! Sənin gur sənin
Yenə də çaylar tək axır, kükrəyir!
Hər eldən-obadan gəlir nəfəsin,
Sən heç vaxt, heç zaman ölməzsən, şair!

**SABİR MÜRSƏLOV**

## DAŞ HEYKƏL

Qoyub sol əlini sinəsi üstə,
Bu duruş, bu addım, baxış onundur.
Neçə şeir yatır hər simin üstə,
Alnında yol salan qırış onundur.

Dayanıb üzündə bir heyrət, maraq,
Durub seyr eləyir çəməni, dağı,
Bağlar gözlərində açılan varaq,
Sanki qələm gəzir onun barmağı.

Yol üstə dayanıb Vurğun elə bil,
Beləcə min yerdə dayanıb durur.
Heykəl bu torpaqda özünü deyil,
Nəğməni qaldırıb, şeri qaldırıb.

**SEYFƏDDİN ŞAMİL**

## SEVİMLİ ŞAİRİN ŞƏRƏFİNƏ

Səninlə ilk dəfə görüşəndə mən
Saçların hələ çox ağarmamışdı.
Şair, könül sözün körpəliyimdən,
Mənə mehribandı, mənə tanışdı.

O geniş alnında sadə bir vüqar,
Bir şeir oxudun bizə ürəkdən.
Coşdu qanımızda odlu duyğular,
Ucaldın dağ kimi gözümüzdə sən.

O görüş günündə əziz bir qarı
Sənə buket verdi – qalxdıq ayağa.
Sən öpdüyün  zaman dümağ saçları
Ürək sinəmizdə döndü bir dağa.

O isti nəfəsli, mehriban ana
Boynuna doladı bu dəm qolunu.
Bir ana qəlbiylə basdı bağrına
Odlar ölkəsinin şair oğlunu...

O vaxtdan ötsə də neçə bahar, qış,
Unuda bilmirəm bu xatirəni.
İndi saçların da tamam ağarmış
Qocaman dağların zirvəsi kimi.

Tərənnnüm eylədin bu otuz ildə
Ana yurdumuzun qəhrəmanını...
Sözün nəğmə oldu ağızda, dildə
Yazdıqca Vaqifin söz dastanını.

Saz tutub aşıqla durdun üz-üzə,
Ömrünün ilk çağı yadına düşdü.
Sən şöhrət verəndə sənətə, sözə,
Tərlanın oylağı yadına düşdü.

Bir vətən oğlu da ölümdən qabaq
Şerin dodağında yumdu gözünü.
Başqa bir əsgərsə əlində yaraq
Apardı Berlinə sənin sözünü.

Dinlədin hər qəlbin döyüntüsünü,
Ellər gülər üzlə çıxdı qarşına.
Odur sahilində bir görüş günü,
Söz yazdın İslamın məzar daşına.

Adınla fəxr edir anamız Vətən,
Doğmasan, əzizsən hər zaman bizə.
Sən vətən eşqiylə şöhrət veribsən,
Ömürlük sənətə, ömürlük sözə.

**S.VURĞUNUN**
**ŞAİR DÜNYASI**

Xəyallarla vuruşardı,
Dağ aşardı, dağ enərdi,
Başı bəlalı vətənin
Dərdini onun bilərdi.
Barışmırdı keçmişiylə,
Barışmırdı dünəniylə,
Barışsa, günah edərdi,
Keçmişin qan yaddaşını
Gələcəyə yetirməzdi.

Amerika yeni dünya
Mənim doğma vətənimdir.
Babamın ağ sümükləri
Çürümüşdür bu torpaqda.
Dəniz mənim, torpaq mənim,
Hava mənim, su mənimdir.
Arzularım yuva salıb
Hər budaqda, hər yarpaqda.
-Bunu deyib Səməd Vurğun
Ürəyindən keçən sözü,
Ürəyini deşən sözü
Xəbər verib, ölməz şair,
Amerika dünyasından,
Qara zəncinin adından.
Öz dünyası zalım olub,
Öz dünysı qənim olub,
Həqiqətdən deyənlərə,
Ədalətdən car çəkənə,
Amansız divan tutulub.

Səməd ovçu libasında,
Düşüb ceyranlı çöllərə.
-Guya, ceyran öldürməyə,

Muğan, Milin bəzəyini
Silahla yerə sərməyə.
Onun ürəyi gəlməyib,
Ölən ceyran balasının
Anasını ağlar görsün.

Dahi Füzulinin bir beytini-
Xatırlamaq  yerinə düşərdi:
“Dərd əlindən dağa çıxdım,
Dedilər, yaylağa çıxdı”.

Vurğunun şair dünyası,
Oxşar olub, ustadına.
Hər sözü yaza bilməyib,
Hər sözü aça dilməyib,
Belə olub zəmanəsi
Lom-lom udub baş biləni,
Sirr açanı, söz deyəni.
Əgər qələmə alsaydı,
Həqiqəti tam açsaydı,
Düşmən adın qazanardı,
Vətənindən qovulardı.

Əllicə il ömür sürdü,
Əllicə il üzü güldü,
Əlli il baxdı dünyaya,
Öz dünyası, qıydı ona.
Doğma ana dilimizi,
Zəngin edən Səməd oldu.
Səməd ana vətəninə,
Gəncliyində vurğun oldu.
Vurğun qaldı onun adı
Vətən oğlu yazmaq ilə,
Keçmişini unutmadı.
Misraları düzə-düzə,
Xırdaladı hər sözü o
Can evini üzə-üzə,
Başa saldı hər sözü o.

Həsrətliyik Təbrizliyə,
Həsrətliyik Dərbəndliyə
Göyçəliyə, Borçalıya,
Danışan şirin dilinə.
Düşüblər bizdən aralı,
Olublar candan yaralı,
-Bizimdir deyə bilmirik
-Doğmayıq, görə bilmirik
Sərhədlər kəsib aranı,
Cənubunu, şimalını,
Ümidlər qıran telini,
Heyif ki, qıra bilmirik.
Bax beləcə içimizi
İçimizdən biz yeyirik.

*18 fevral 2006*

## İSLAM SADIQ

### AZƏRBAYCAN – SƏMƏD

Dayandı qarşımda gülümsər üzlə,
Əlini sıxmağa uzandı əlim.
İngilis dilində ikicə sözlə,
Məndən nə soruşdu, axı, nə bilim.

Gördüm ikimiz də gəlməyik, gəlmə.
Gördüm Moskvada o da qonaqdır.
Azərbaycan – dedim mən bircə kəlmə,
Səməd Vurğun – deyib üzümə baxdı.

**İSLAM SƏFƏRLİ**

## DAĞLAR

S.VURĞUNUN ƏZİZ XATİRƏSİNƏ

Ona qanad verən öz xəyalıydı,
Məskəni dağların yaşıl yalıydı,
O, şerin ağsaçlı bir qartalıydı,
Zirvəndə doyunca süzmədi, dağlar!

Sevirdi yurdunu Vurğun dərindən,
Onu əcəl aldı elin əlindən,
Heyf ki, şerinin lalələrindən,
Mina gərdəninə düzmədi, dağlar!

Sevdi Mil düzünü, sevdi Muğanı,
Sevdi qara gözlü gözəl ceyranı.
Gəzdi qarış-qarış Azərbaycanı,
Lakin bir çoxları gəzmədi, dağlar!

Vurğun ellər dedi, elləri seçdi,
Mahir ovçu kimi çölləri keçdi.
Çoban sərnicindən dələmə içdi,
Fəqət, dodağını büzmədi, dağlar.

Mağarda saz tutan tellər vurğunu,
Bülbülü mat qoyan güllər vurğunu,
Səməd Vurğun kimi ellər vurğunu
Min il yaşayaydı, yüz nədi, dağlar!

## *YOLDAŞIM GETDİ*

Qələm tutmur əlim, dostum, əsir yarpaq kimi heyhat!
Qara xətlə yazıldı bağrıma doğma bir ad.
Döyüşdə axmadı, şair, gözündən yaş, gözündən yaş,
Bu günsə ağlayır qəlbim, bilirsən o deyildir daş.
Səməd, könlündə min arzun çiçəklər açmamış soldu.
Vəfasız bir ömrə bax ki, sənə üz döndərib getdi.
Son aylar coşqun ilhamın fəqan etdi qırıq saz tək,
Bu hicran bağçasından rəngi solğun gül dərib getdi.
Deyər ellər – Səməd Vurğun azadlıqçun qələm çaldı,
Bu dünyaya canından can, qanından qan verib getdi.
Qızıl bayraqlar altında həyat sürdü döyüşlərdə,
Vətən uğrunda can-başla böyük işlər görüb getdi.
Qələm düşdü əlindən, şairin, söylə nə dərddir bu?
Buna dözmək çətindir çox, ölümdən xeyli sərtdir bu.
Vida vaxtı sinəm dağlı, alıb qüvvət təbiətdən
Bir heykəl qurmuşam qəlbimdə dostumun
məhəbbətindən.
Sinəmdə qövr edir dərdim, gözüm qan-yaşla
dolmuşdur.
Otuz illik ürək dostum, səmimi sirdaşı getdi.
Təəssüf, min təəssüf ki, bu dərdə tapmadıq dərman,
Həyatdan bir doyunca almayıb kam həmyaşım getdi.
Dilim gəlmir deyim – öldü, ölüm ondan uzaqdır  çox,
Şeir mülkündə can qoymuş sınanmış nəqqaşım getdi.
Mənə qoy gülməsin heç kəs, mübariz şair olsam da,
Dilimdən qəm yağır, çünki, yanımdan qardaşım getdi.
Özü hicrana düşmüşkən, məni hicranda tək qoydu,
Böyük bir kommunist dostum, həqiqi yoldaşım getdi.

28 may,  1956

*Soronbay Cusuyev*

( Qırğızıstan )

**SƏMƏD VURĞUN**

Səni dinləmişdim cavan yaşmda.
Zirvədən boylanan bir qartal idin.
Ucalıq, müdriklik tacı başında,
Hələ tunc heykələ çevrilməmişdin.

Hər odlu sözündə, hərəkətində,
Odlar diyarının havası vardır.
Dalğın gözlərində küləklər ötər,
Xəzər haray salıb dalğalanardı.

Budur, bax, gəlmişəm,qonağam sənə,
Muzeydir bir vaxt yaşadığın ev.
Şəkildən mehriban baxırsan mənə,
Səsini eşidə bilmirəm, heyf...

Şəkilər bu evin sahibi kimi,
Gələni, gedəni yola salacaq.
Miz üstə qoyaraq kağız-qələmi
Özün iş dalınca getmisən ancaq.

Bilirəm o kağız yazılan deyil,
Qələmin ucunda donmuş heyrətin.
Evin qapısını açıb elə bil,
Çıxmısan yoluna əbədiyyətin.

Ellərdən, çöllərdən gəlirdi sədan,
Körpələr üzündə o heyrət nəydi?
Öz doğma evində olmadımsa da,
Yurdunda hər yerdə sən bizimləydin.

Öz mərmər kürsündə dilə gəlmişdin,
Səsində həyəcan, üzündə vüqar.
Yetmişi adlamış şair dostların,

Sənin ətrafına toplaşmışdılar.

Sızmaz  nəğmələrin – əbədi bahar,
Nəfəsin doğmadır, istəyin yeni.
Sahil bağlarında sevən cavanlar
Sənin şerin ilə açır eşqini.

Vurğun zirvəsinə yetişən hanı?
Bu sözlə məclisə təzə ruh gəlir.
Tarlaya su verən yorğun qocanın
Vurğun deyəndə qəddi düzəlir.

Uşaqlar gülüşür, qocalar baxır.
Sözün dodaqlara qonacaq indi.
Küləkmi dillənir, yağışmı yağır,
Yoxsa sənin ölümsüz şeirlərindi?!
Bu yerin dağı da, daşı da Vurğun,
Baharı da Vurğun, qışı da Vurğun.

Vurğun – Azərbaycan əkizdir dedim,
Şair taleyilə ucaltdı onu.
Harda Azərbaycan sözü eşitdim,
Düşündüm od oğlu Səməd Vurğunu!

*Tərcümə edəni: Sabir Rüstəmxanlı,*
*“Göy dənizdə ağ gəmi”, Bakı, “Yazıçı”, 1983*

***Tacəddin Şahdağlı***

**VURĞUNUM**

Şairin məzarı önündə düşüncələr.

Məna dolu sözlərinin hikmətini duyuram
Sən bizimlə bu dünyada olmasan da
Vurğunum.
Ayağımı bu torpağa hörmət ilə qoyuram,
Sən uyuyan o sehirli qəbristanda, Vurğunum.

Nə tez bizə vida dedin, nə tez yumdun
gözünü?
Heç pələng də bərk ayaqda qatlayarmı dizini?
Gözləyirdik hələ sənin neçə-neçə sözünü,
Hər nəğmədə, hər mahnıda, hər dastanda,
Vurğunum.

Cəbhələrdən keçə-keçə elə ağardı başın,
Əlli ildə zənn edirdik səksən, doxsandır yaşın,
Sən qırqovul oylağına gəldiyin o Qutqaşen
Hər an sənə yaxın olub hər dostdan da,
Vurğunum.

Neçə-neçə həmyerlimin dodağında sözün var,
Düzyengicə çöllərimdə sənin ayaq izin var,
Həs misranda, hər cümləndə elə möhkəm
düzüm var,
Yaddaşlardan silinmir o, bircə an da
Vurğunum.

Çox borcluyam sənin sənət bağçandakı
güllərə,
Sənə vurğun şerlərim bəzən düşür dillərə,
Mənə xeyir-dua verdin, söz qoşuram ellərə,
Bu sirrimi bilsin bu gün qoy dövran da,
Vurğunum.

**03.08.1956**

*İTALMAZ NURİYEV*
( Türkmənistan )

## *SƏMƏD VURĞUN GECƏSİ*

***Azərbayanda sovet ədəbiyyatı günləri***
***keçiriləndə Şıkidə düzəldilən bir ziyafət***
***öz-özünə Səməd Vurğun gecəsinə çevrildi***

Nə elan yazıldı,
Nə dəvətnamə...
Görüş ziyafətdə başladı birdən.
Durub baxa-baxa dörd tərəfinə
Çox da düşünmədən söz alan oğlan
Demək istədiyi sağlıq yerinə
Bir bənd şeir oxudu Səməd Vurğundan.

Sonra bir başqası...
Yenə başqası...
Beşinci, onuncu
Durub yerindən
Oxudu şairin bahar ətirli,
Qüdrətli, hikmətli şeirlərindən.
Oxudu sürücü,
Oxudu fəhlə.
Coşdu obasında-elində Vurğun,
Raykom katibinin dilində Vurğun,
Vurğun!.. Vurğun!.. dedi,
alışdı hamı.
Nəğməyə qərq oldu Şəki axşamı.

Bu gecə...
Süfrədə qaldı xörəklər,
Şərbətlə,
Şərabla dolu qədəhlər.
Bu gecə
Vurğunun odlu ürəyi

Unutdurdu bizə yeyib-içməyi.
Unutduq –
Nəğmənin qanadlanaraq
Otağın içində uçuşunu da
Unutduq –
Şeirə aşiq səhərin
Qapını oğrunca açışını da.
Obaşdan açaraq pəncərələri,
Ustad şeri kimi günün telləri
İçəri axanda məclis coşurdu,
Şairlər Səmədə şeir qoşurdu.
Şirin dillərində mətin sətirlər
Həyətə gedəndə bir neçə nəfər:
Mən də misraların tutub əlindən
Səhərlə görüşə şerlə çıxdım.
Durub, əzəmətli dağlara baxdım:
Vurğun qartal olub qanad çalırdı.
Şair cavanlaşır, dağ qocalırdı...
Zirvədən-zirvəyə uçurdu yenə
Vurğun baxışları... Vurğun gözləri.
Qayalar  yazırdı öz sinəsinə,
Dəmir sətirləri, odlu sözləri.
Zehninə həkk oub söhbəti, sözü –
Dostlar, çox şairə edirəm hörmət.
Heç kəsə qəlbimdə olayıb düzü,
Vurğuna bəslənən sonsuz məhəbbət.

Tərcümə edəni: Fəxrəddin Əliyev,
“Kommunist” qəzeti, 1976

***TEYMUR BÜNYADOV***
*( Akademik )*

# VURĞUNA

Bərabər,
Böl yarıya bərabər.
Dünyada tapılarmı,
Vurğuna bərabər?

Bir də gəlməz,
Gəlmişdi, bir də gəlməz.
Vurğun kimi sənətkar
Dünyaya bir də gəlməz.

Vurğunam,
Vurulmuşam, vurğunam.
Vurğun dünyada təkdi,
Mən Vurğuna vurğunam.

Əbədidi,
Günəş sönməz, əbədidi.
Şeir-sənət dünyamızda
Vurğun təkdi, əbədidi.

Vurğun Dedim...

Vurğun dedim, -

Qafqaz dağı

Ağ başını silkələr

Ehtiramla.

Vurğun dedim, -

Gözlərimdən

Yaş töküldü damla-damla.

Vurğun dedim, -

Obalarım,

Oymaqlarım yada düşdü.

Vurğun dedim, -

Durna gözlü

Bulaqlarım yada düşdü,

Vurğun dedim, -

Səsə gəldi

Odlar yurdu Azərbaycan.

Vurğun dedim, -

Ləngər vurdu

Göydə tərlan,

Boynun bükdü yerdə ceyran.

Vurğun dedim, -

Daş ürəkli

Qara torpaq inildədi.

-Hanı Vurğun?

-Məndə deyil,

Qəlblərdədir Vurğun, -dedi

**Tofiq Bayram**

SƏMƏD VURĞUN
HAQQINDA SƏKKİZLİKLƏR

## Əbədilik

O, inamın carçısıydı, xalqa inamın,
Bayramına dastan qoşdu Vyetnamın.
İxtiyarı zəncirlənmiş zənci rəssamın,
O püsgürən nəfəsində Vurğun yaşayır.

Gələcəyə addımlayır o mətin-mətin,
Əzizidir neçə-neçə qardaş millətin.
Qalxıb şöhrət pilləsiylə əbədiyyətin,
Əsirlərin zirvəsində Vurğun yaşayır.

## Yaxşılıq

Biri yazır: Xoşbəxtəm, Vurğun edib toyumu,
Biri yazır: Xoşbəxtəm Vurğun məni oxudub.
Biri yazır: O, verib, çörəyimi, suyumu,
Biri yazır: Şeirdə Vurğun tutub əlimi.

Qayğılarla açılıb ömrün neçə səhəri,
Bu qayğılar içində şeir yazmaq hünərdi.
Təkcə kitablar deyil sənətkarın əsəri,
Hər yaxşılıq özü də bir ölməyən əsərdir.

## Vurğun kəşfi

Çiçəyin ətrinə, suyun dadına,
Burda ”can dərmanı” deyib alimlər.
Hər dağın bir kitab qoşub adına,
Çayda nur gəzibdir, dəryada gövhər…

Bura qonaq gəldi ellər şairi,
Dağlara nur yağdı bir səhər kimi.
Kəşf edib tanıtdı Dədə Şəmşiri,
Dağ  altda gizlənən ləl, gövhər kimi.

## Onun dostları

Onun yaxın dostları özü kimi vəfalı,
Moskvalı Tixonov, dağıstanlı Rəsuldur.
Fadeyevin ürəyi, Tixonovun xəyalı
Məzarının başından bayraq kimi asıldı.

Onun şair dostları hər yerdə, hər ölkədə,
Bu dostluğu ürəklər yüz dildə alqışlayır.
Millətlərin, xalqların qardaşlığı bəlkə də
Sərkərdə şairlərin birliyindən başlayır.

## Övlad ata

Dahiləri, ustadları sevdi ürəkdən,
Söz çələngi hördü ölməz xələflərinə.
Yorulmadı cavanlara  qayğı çəkməkdən,
Həyat verdi hər şairin ilk əsərinə.

Öz kökünə palıd kimi bağlıydı Vurğun,
Günəş olub işıq saçdı bu yollarda da.
Ataların qədirbilən oğluydu Vurğun,
O, mənəvi ata oldu oğullara da.

## Heykəl

O ki yaranmışdı göylər övladı,
Heykəli ucalıb indi göylərə.
Əzəl şöhrətiydi torpağın adı,
Baxır qartal kimi zirvədən yerə.

Qonur saçlarına günəşin zəri,
Çiynində uyuyur qızıl bayraqlar.
Vətən torpağına baş əyənləri,
Ellər başı üstə bayraq tək saxlar.

## Məhəbbət

Şerilə dil açır körpələrimiz,
Hər evdən, eyvandan şəkli asılır.
Alimə doğmadır, fəhləyə əziz,
Sözləri yollara zərlə yazılır.

Bu sevgi amansız ölümə qənim,
Ömrü ölməzliklə qoşadır hər gün.
Vurğunu yaşadan xalqım, vətənim,
Özünü ucaldır, yaşadır hər gün.

## Cehiz

Hesabını çəkməyək toyda sovqatın, pulun,
Təkcə xına yaxmayaraq gözəllərin əlinə.
Gürcüstanda Şotanın, Dağıstanda Rəsulun
Kitabını analar cehiz verir gəlinə.

Bizim eldə sevinc bol, adət yeni, toy yeni,
Ey analar, qəlbimdə bir arzu var, bir istək.
Qoy gəlinlər Vurğunun  “Azərbaycan” şerini,
Ər evinə aparsın bir istəkli cehiz tək.

# Ev-muzeyində

Ziyarətə gəlirlər bura kənddən, şəhərdən,
Elin qədəmləriylə otaqlar da varlanır.
Şəkli qopmaq istəyir zərli çərçivələrdən,
Hər nəfəslə canlanır, hər baxışla nurlanır.

Tükənməz bu ehtiram qərinələr ötsə də,
Bu məhəbbət şairə elin haqqı- sayıdır.
Səməd Vurğun evindən çiyinlərdə getsə də,
Səməd Vurğun evinə ürəklərdə qayıdır.

## TOFİQ HÜSEYN

### BİR ŞAİR AĞLADI

1976-cı ildə Səməd Vurğunun 70 illik yubileyi günlərində ustad sənətkarın
ev muzeyində Moldaviyanın xalq şairi Yemelian Bukovla görüşdük.
Ondan "Səməd" poemasından parçalar oxumağı xahiş etdik.
Şair oxudu... və ağladı.

Bir şair ağladı Səməd evində,
Şairlər nə yaman kövrək olurmuş...
Nəğmə yuvasında, sənət evində
Şairlər bir bütöv ürək olurmuş.

Sığışmır muzeyə bir ömür, bir ad,
Bu şəkli, bu sazı, bu patrondaşı.
Muzeyə çatmırmı bir eksponat,
Bir şair gözünün mirvari yaşı.

Dedim, bir möcüzə baş versin barı,
Dönsün həqiqətə qədim rəvayət.
Dirilik suyutək bu göz yaşları,
Çilənsin ruhuma... dirilsin Səməd.

Bir şair ağladı... yandı ürəyim,
Ağladı əzizi, qardaşı üçün.
Qu quşu beləcə ağlayıb yəqin,
Yarımçıq nəğməli qu quşu üçün.

Qulaq as, gör ürək yenə nə deyir,
Deyir ki, ey insan, gül də, sevin də.
Şairlər hər yerdə ağlamır, xeyr,
Şairlər ağlayır şair evində.

***TOFİQ MÜTƏLLİBOV***

## ŞEİR QİTƏSİ
### VURĞUNUN HEYKƏLİ QARŞISINDA DÜŞÜNCƏLƏR

Günəş doğur... Bu tunc heykəl
Qızıl paltar geyir yenə.
Postamentin üzərindən
Elə bil ki, Səməd Vurğun
“Azərbaycan” deyir yenə.

Elə bil ki, hazırlaşıb,
O səfərə çıxacaqdır.
Ala gözlü səhərlərin,
Qara gözlü axşamların
Əllərini sıxacaqdır.
Heykəli də ilham alır
Mavi gözlü Xəzərindən.
Qəlbi coşur,
Qanadlanır qartal kimi
Postamentin üzərindən.
Uçan quş da yayınmayır
Onun şair nəzərindən.
Səhər-səhər
Salamlayır durnaları
Postamentin üzərindən.
Bu torpağın havasını,
Udur, udur o dərindən.
Seyrə dalır
Azərbaycan torpağını
Postamentin üzərindən.

Gündüz günəş qonaq olur,
Gecələr Ay gəlir bura.
Vurğun ilə görüşməyə
Neçə Cəlal gəlir bura,
Neçə Humay gəlir bura.

Seyr edirəm adamları –
Sanki ulduz karvanıdır.
Abidəyə çiçək qoyan
Onun igid Manyasıdır,
Onun igid Sarvanıdır.

Qulağıma bir səs gəlir,
Şairimin öz səsidir,
Bu tunc heykəl
Şer, sənət dünyasının
Səməd Vurğun qitəsidir.

***TOFİQ SALEH***

**GƏLİR**

S.Vurğunun anadan olmasının
88 illiyi münasibətilə.

Ay ellər, obalar gözünüz aydın,
Sənət dünyasına ilk bahar gəlir,
Eşidib hər yanda Səməd Vurğunu,
Yaxınlar tökülür, uzaqlar gəlir,

Dağ çayının gur səsindən yaranmış,
Təbiətin nəfəsindən yaranmış,
El-obanın həvəsindən yaranmış,
Şərqilər söyləyən, nəğməkar gəlir.

Söz mülkündə Nizamini haqlayan,
Füzulinin qələmini saxlayan,
İlhamında Vaqif kimi çağlayan,
Gəlir dahi gəlir, sənətkar gəlir.

O bahar aşiqi, baxışları şən,
Şeir şarı kainatla öpüşən,
Qartalların qanadıyla ötüşən,
İşıq sürətində bir şair gəlir.

Hüsnü al geyibdir ağaclarında,
Şadlanır qəlb evi turacların da,
Baxıram, şairin ağ saçlarında,
Yüz illik, min illik dümağ qar gəlir.

O, həyat şairi, həyat tək haqdı,
Baharda doğuldu, bahardı baxtı,
21-Mart günü, bu bahar vaxtı,
Odlanıb yanmağa ağ şamlar gəlir.

Susub Qarayazı, görən Kür niyə,
Onlar da tələsir, onu görməyə,
Gül-çiçək bağlayıb, güllər verməyə,
Təbriklər etməyə uşaqlar gəlir.

Şairim, sənindir bu toy, bu busat,
Nə ola tələbən çağrılam, ustad,
Şairi görməyə saatbasaat,
Baxın, karvan-karvan insanlar gəlir.

## ŞAİRİN İZLƏRİ

“Yenə gördüm səni Dilcan dərəsi,
Yadıma çox köhnə zamanlar gəlir”.
Qoynunda gurlayır çayların səsi,
Başın üstündə dağlar yüksəlir.

Yenə topa-topa buludlar gəzir,
Meşəli zirvəndə, a Maymaq sənin.
Könül qubarlanır, ürək dad çəkir,
Danışma,, bəllidir mənə kədərin.

Bir zaman Vurğunum ötmüş bu yerdən,
Qəlbimdə saz kimi ürək dil açmış.
Görən hansı yayla, hansı güneydən,
İlhama gələrək inci yaratmış?

Görən hansı ağac öz kölgəsində,
O böyük insanı kölgələtmişdir?
Görən hansı bulaq öz çeşməsində,
Şair dühasına həyat vermişdir?

Gəlin tək bəzənib Dilcan dərəsi,
Qəlbə ilham verir, ruha xoş gəlir.
Onun hər bulağı, göz-göz çeşməsi,
İnsanın gözündə qat-qat yüksəlir.

Nədənsə bağlıyam bu yerlərə mən,
Sirri nə gözəllik, nə də bahardır.
Sevirəm buranı, çünki bu yerdə,
Şair Vurğunun izləri vardır.

*VAQİF SƏMƏDOĞLU*

***Atamın məktublarına cavab***
***( kiçik poema )***

Həmişə bir yana, bir yer gedəndə
Məktub göndərərdin.
Londondan, Berlindən,
Vrotslavdan, Pekindən,
n ə bilim,
dünyanın min yerindən
məktubların gələrdi qapımıza,
Zərflərə yapışdırdığınn
neçə ölkənin,
neçə rəsmi markalarından
duyardıq əlinin istisini,
toxunardı üzümüzə
cavan ölmüş Məhbub nənəmin
Salahlıdan dünyaya getmiş
qarayanız oğlunun nəfəsi...
Bir an da
untumazdın bizi.
Vaxtın az olanda,
azacıq azanda
dünyanın min fikrə, min ümidə dönən
dolaşıq yollarında,
məktuba macal tapmayıb,
teleqramlar göndərərdin.
... Nə deyim?
dünyada göz yaşı olmasa,
ən səmii gülüş,
ən xoşbəxt təbəssüm
bir qəpiyə dəyməz!
O vaxt,
oxuyan kimi
kənara atardıq yazdığın məktubları.

Amma indi...
Üst-üstə düzülüb səliqəylə,
Bir taxta qutunun içində-
Yusifin ürək ağrısı,
Aybənizin kədəri,
Anamın göz yaşları,
mənim bir söz deməyib,
otaqları gəzməyim...
Məktub yazardın
Olduğun yerlərdən,
Hər çıxdığın səfərdən,
Amma bu dəfə...
Bəlkə indi də yazırsan,
ancaq,
Dünyanı, insanları, Vətənini
sənin qədər sevən bir adamın
məktublarını buraxarmı həyata
ölümün qara senzurası?
Qoyarmı
bir də dəysin üzümüzə
qələminin təmiz havası?
Yox!
Yer kürəsi fırlanır
əvvəlki qaydasıyla.
Gah sağa dönür, gah sola.
Ölüm dost-aşna
tapır özünə hələ
Bilirsənmi,
sən gedəndən sonra
neçə silah,
neçə dövlət,
neçə yalan keçirdib ələ?
Tək insanı,
Bir də təbiəti heç etməkçün yox!
İndi ölüm
Hara gəlir soxur başını.
Girir Azadlığa,
Ümidə
Dilə!

Dünyanın bir yanı sönən kimi,
od vurur başqa  tərəfinə.
Ya da tərsinə,
Azacıq
Alovlanmağa başlayan kimi
azadlığın ocağı,
ölüm sıxıb çıxardır
Ədalətin suyunu,
axıdır onu yer üzünə.
Söndürür
yenicə doğulmuş İşığı...
yenə
əsarətin səhrasında qalır
o işığa gedən insanlar.
Ata,
dünyada hələ
ölümünün müttəfiqləri,
dostları var!
Sən ki,
görmüşdün onları,
onlanlarla vuruşanları!
Sən ki, görmüşdün,
qəzəbindən
dümağ olmuş zənciləri,
sən ki, neçə dildə eşitmişdin
Azadlıq sözünü,
sən ki, seçə bilirdin
dünyanın əyrisini, düzünü.
Sən ki, oxumuşdun,
Ümidin göz yaşını
dəsmal kimi silməkçün
yazılmış şeirləri.
Sən ki,
dünyanın neçə pəncərəsindən
görmüşdün səhəri...
Həmişə bir yana, bir yerə gedəndə
Məktub göndərərdin.
hər çıxdığın səfərdən
Amma bu dəfə...

Bu gecə
bir də oxudum məktublarını,
Qələmin möhkəm,
Dilin duzlu,
ürəyin nigarançılıqla dolu.
Yox,
narahat qalma bizdən.
Özünə fikir ver,
imkanın varsa...
Bizdən arxayın ol.
Güzəranımız yaxşı,
evimiz abad.
Sənin yığdığın var-dövlət-
Ümidlər,
İnsanlara inam,
Dosta sədaqət,
hər vergülünü, nöqtəsini
qızıl kimi qoruduğun
ana dilimiz
çatar bizə də,
nəvələrinə də,
onlardan sonra gələnlərə də,
Arxayın ol hər şeydən!
Tükənmir bərəkəti
qarış-qarış gəzdiyin torpaqların,
yenə başı ağappaqdır
sevdiyin dağların.
İnan mənə.
Çünki tez-tez
gedirəm Bakıdan,
gəzib-dolaşıram
sən olduğun yerləri.
Evimizə qayıdıram yenə.
Həmişə yola salıb,
qarşılayırsan məni...
Hər dəfə
görürəm heykəlini.
Məni ayırmırsan
ətrafında dolaşan insanlardan,

Bakıya baxıb,
Vətənin səsinə qulaq asırsan...
Yanından keçənlər,
ayaq saxlayıb bir an,
baxırlar sənə,
Səməd Vurğuna.
Mən də baxıram.
Baxıram
cavan ölmüş Məhbub nənəmin
Salahlıdan gedib,
yarı yolda
Heykəl olmuş
qarayanız oğluna...

1968

***Vasil Yuximoviç***
*Ukrayna*

## *SƏMƏD VURĞUNUN HEYKƏLİ*

Qonaqmı gözləyir, yol çəkir gözü?
Gələnlər gürcümü, ukraynalımı?
Yenə Vurğun Səməd birinci özü
Dost kimi soruşdu mənim halımı.

Qatarlar gətirir qoca Tiflisi,
Doğma Kiyevimi Azərbaycana.
Görsə, sevinərdi Mayakovski,
Vurğun yol gözləyir, deyin Bajana!

Nəsə fikirlidir, haradır yolu –
Uçuş meydanına, yoxsa vağzala?!
Yenə də Səmədin ürəyi dolub,
Dinib-danışacaq indi az qala.

Ülkərtək nur saçır onun sifəti,
O da ülkəridir anamız yerin.
Bakı vağzalında gördüm Səmədi,
Görəsən haradır yolu şairin?

Gözlərim Kiyevdə, o, gələcəkdir,
Hara boylanıram, bax, odur gələn.
Səməd – əbədiyyət, hünər deməkdir,
Vurğun – ömrü boyu sevən, sevilən.

Sönməzdir alovu, odu sənətin,
Həmişə möhtacdır saf məhəbbətə.
Məhəbbət şairi Vurğun Səmədin
Eşqi də qovuşub əbədiyyətə.

## VİDADİ ŞIXLI ( BABANLI )

### XATIRLAR ONU

O, sevdi xalqını canından əziz,
Sevdiyi bu ellər xatırlar onu.
Bir ürək bəslədi köksündə təmiz,
Tər-təmiz könüllər xatırlar onu.

Hər gülə-çiçəyə söz qoşa-qoşa,
O, vurğun yarandı torpağa-daşa.
İndi şiş qayalar verər baş-başa,
Bu çiçəkli çöllər xatırlar onu.

Qəlbimdə dərdim var yenə bir yığın,
Yamandır həsrəti bu ayrılığın.
"Odlu şair" – deyib coşan aşığın,
Sazındakı tellər xatırlar onu.

A dostlar, deməyin yas nəyə gərək?
Gözdən yaş çıxmasa, soyumaz ürək...
O, yazıb-yaratdı bir qəhrəman tək,
Qəhrəman nəsillər xatırlar onu.

## ŞÖVKƏT MƏMMƏDOVA

### AŞIQ ŞƏMŞİRƏ MƏKTUB

"Dədə Şəmşir, Dəlidağdan keçəndə"
Saz çalıb Vurğunu yada saldınmı?
Yamacda şairsiz açılıb-solan –
Zərif çiçəklərə layla çaldınmı?!

Uzaqdan durnatək dətəbədəstə,
Qızlar axışanda bulağın üstə.
Bir dalğın xəyallı, bir boyu bəstə -
Gözəldən Vurğunu xəbər aldınmı?!

Şairi soraqlar bu gözəl mahal,
Sən ki, sənətkarsan, ustad, əhli-hal.
Ellər söləyəndə "Yanıq Kərəmi" çal,
Vurğunu düşünüb fikrə daldınmı?!

Şairsiz keçirdin neçə yazını,
Dağlar dinlədimi xoş avazını?!
Sıxıb sinən üstə telli sazını,
Vurğunsuz dağlarda qonaq qaldınmı?!

Ellərə tapşırdı şair dağları,
Yaşıl çəmənləri, buz yaylaqları.
Sazla dolananda toyu - mağarı,
Ustad sənətkardan söhbət saldınmı?!

Uzaqda durnatək dəstəbədəstə,
Qızlar axışanda bulağın üstə.
Bir dalğın xəyalla, bir boyu bəstə,
Gözəldən Vurğunu xəbər aldınmı?!

## VURĞUN

Şairlər vətəni bu ana yurdum,
Dünyaya gətirib Səməd Vurğunu.
Qoynunda bəsləyib Göyəzən dağı,
Şair tək yetirib Səməd Vurğunu.

Fərhadın əlinə verib külüngü,
Büsutun dağıyla qoyub üz-üzə.
Şirinin eşqiylə çapıb qayalar,
Sevib-sevilməyi öyrədib bizə.

Ovçu Pirim ilə gəzib çölləri,
Qıymayıbdı dəyə xata ceyrana.
Hürküdüb sürünü uzaqlaşdırıb,
Qoymayıb tüfəngi ata ceyrana.

Ulu babalardan yadigar qalan,
Qopuzun balası sazdan yazıbdı.
Boranlı-şaxtalı qış gecəsində
Bənövşə ətirli yazdan yazıbdı.

Çoban binəsində qonaq qalanda,
Çiyninə yapıncı atıbdı Vurğun.
Unudub dünyanın dərdi-qəmini,
Elə bil cənnətdə yatıbdı Vurğun.

*Xəlil Rza Ulutürk*

## Bir odlu gözləri , bir də...

Böyük Azərbaycan şairi Səməd Vurğunun xatirəsinə

Nə qədər doğmaydı onun nəfəsi,
Elə bil günəşdi eşqi, həvəsi.
Bütün ömrüm boyu çıxmaz yadımdan,
Bir odlu sözləri, bir də xoş səsi.

Gələcək nəsillər xoşbəxt olsa da,
Qoy qibtə etsinlər deyirəm bizə.
Axı, biz otuz il qulaq asmışıq,
Əlli bahar görmüş bülbülümüzə.

Onun sözlərində insanı yerdən
Ayağa qaldırmaq qüdrəti vardı.
Onun sözlərinə ildırım səsli,
Təbiət qüdrətli ilham yaşardı.

Onu dinləyəndə coşardı ürək,
Qanımızda bir od, alov duyardıq.
Ovçumuz atəşdən yanıncayadək
Onu alqışlayar, alqışlayardıq.

Qəbahət olsa da belə bir adət,
Bir yerə çırpardıq ayağımızı.
Salon partlayardı alqış səsindən,
Ayrılıb şairlər qafiləsindən,
Bir daha gələrdi sənət dühası.
Bir daha parlardı söz kürsüsündə
Səməd səyyarəsi, Səməd dühası.

Keçər aylar, illər... güllü dağların,
Susar neçə-neçə gur şəlaləsi.
Ancaq hər könüldə təlatümlənər,
Onun şəlalədən qüdrətli səsi.

O, şeir deyəndə tribunada,
Mənalı gözləri dönərdi oda.
Sanki qırov tutmuş daşların altda
O gözlər ilhamla yanar, yanardı.
O yanar gözlərin saf işığıyla
Min-min insan gözü işıqlanrdı.

Keçən aylar, illər... axar ulduzlar,
Sönər göy üzünün neçə ülkəri,
Ancaq xəyalımda hər zaman yanar
Onun hər ulduzdan parlaq gözləri.

Bir gün bu dünyadan köçərəm mən də
Kəhkəşan ömrümün qürub çağında.
Onunsa hər şeri təzə gül açar
Oğlumun, qızımın gül dodağında,
Qaynar Təbrizimin can bulağında.

Dünən ağzı əyri bir həpənd gördüm,
Onun kölgəsini qılınclayırdı.
Dinlədim... üzümdə acı təbəssüm,
Təzadlar yurdusan, ey Odlar yurdu!
Dinlə ürəyimi yandıran odu:
“El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən”.
Bəs nə üçün namərdlərə
Yer verirsən qoynunda sən?

Onları köpüncə silləməyə,
Dargözlük hissini güllələməyə
Sən mənə silah ver, Odlar torpağı!
Vurğun qüdrəti ver, Vurğun bayrağı!

Yansın şamlar kimi barmaqlarımız,
Zülmət dəsmalları gözlərdən açaq.
Gəlin! Başdan-başa Sabirləşək biz,
Gəlin! Başdan-başa biz Vurğunlaşaq!

Sənin mərd oğlundur Vurğun, ey Vətən,
Sən də döyüşlərdən mərd çıxmalısan.
Onun heykəlini qaldırmısansa,
Bütləri, kütləri sən yıxmalısan!

Gedir... qayçılayır qaranlıqları,
Könlü bahar Səməd, saçı qar Səməd.
Günəş göy üzündə alovlandıqca,
Günəşin altında addımlar Səməd!

Yaşa, Səməd Vurğun!
Alım qadanı.
Günəşdən əmdiyin isdedadını.
Son damlasınacan həsr elədin sən
Doğma torpağına, doğma elinə.

"Rusiya şerinin şah əsərini
Çevirdin Vaqifin şirin dilinə"
Vaqifin dilini çəkib bülövə
Qılıncı döndərdin,Misri qılınca.

Çiynimi dağ kimi tuturam uca,
Görəndə mübarək sətirlərini,
Şir kimi odürək sətirlərini.

Xəli Rza Ulutürk (Adımız, soyadımız 1965)

## İKİ QÜDRƏT

Göy Xəzərin qırağında,
Aylı parkın gül bağında.
İki insan heykəlləşib
Çiçəklərin qucağənda
Səməd Vurğun, Üzeyir bəy.

Günəşin qızmar nurunda.
Aylı gecənin ruhunda,
İki düha günəşləşib
Bir məhəbbətin qoynunda
Səməd Vurğun, Üzeyir bəy.

Xalq ruhlu iki sənətkar,
İnci şair, ləl bəstəkar
İki qüdrət qayalaşıb,
Gələn nəsilə yadigar,
Səməd Vurğun, Üzeyir bəy.

İlhamı eldən güc alan,
Xalqın qəlbində ucalan.
İki şöhrət zirvə aşıb
Adı-sanı yadda qalan
Səməd Vurğun, Üzeyir bəy.

Üzeyrin simfoniyası,
Vurğunun şeir dünyası.
İki nəğmə dilə düşüb
Vətən səsi, el nəfəsi –
Səməd Vurğun, Üzeyir bəy.

Leyli eşqi canlar üzür,
Şirin eşqi dildə gəzir.
İki dastan, yaddaşlaşıb
İki qüdrət eldə gəzir –
Səməd Vurğun, Üzeyir bəy.

Yunis, düşüncələr kövrək,
Duyğuların ruhu ipək.
Ötdükcə illər nurlaşıb
Bu sinəmdə iki ürək –
Səməd Vurğun, Üzeyir bəy.

İyul, 2000

***Yuri Muxin***
*Rusiya*

## *ƏBƏDİ GƏNC*

Azərbaycan –
Dağlar, dərələr diyarı!
Azərbaycan –
Məğrur zirvələr diyarı!
            Sən beləcə
Vəsf olundun nəğməmizdə.
Vurğun kimi
Çox sevirik səni biz də.
            O, oğlundur,
Sinən üstə boy atmışdır,
            Sənin ölməz
Dastanını yaratmışdır.
            Bizimlədir
Həmişə gənc qəlbi onun;
            Bu həyata
Vurğun olub Səməd Vurğun.

## Yaşadaq Vurğunu ürəyimizdə

(Xalq şairi Səməd Vurğunun 70 illik yu-
leyi münasibətilə)

Hər tərəf yam-yaşıl, hər tərəf gözəl,
Baharda al geyir bizim tərəflər.
Qazaxdan-Dilcana uzanan yolda
Dünyaya zinətdir dümağ daş evlər...

Yolun qənşərində "Didvan" qalası
Dağın zirvəsində qartaltək qonmuş.
Əsrlər şahidi bu daş abidə
Sanki ər oğludur, əbədi donmuş...

Durudur suları Ağstafa gölün,
Hər ona baxdıqca qəlb varaqlanır.
Dirilik suyudur bu doğma elin,
Bu bağlar, bağçalar ondan can alır...

Dilcan dərəsində sökülməmiş dan
Sürücü maşını hey qamçılayır.
Arabir ilhamla o dodaqaltdan
Şeir də söyləyir Səməd Vurğundan...

Dağların qoynunda yollar qıvrılır,
Gah da itib-batır meşəliklərdə.
Bulaqlar üstündə məclis qurulur,
İl-ildən xoş gəlir biz tərəflərdə.

Ayağımız şehlərə bələndi bu gün,
Biz dağlar adladıq, dərələr aşdıq.
Vurğun xəyalına qovuşmaq üçün
Dilcan dərəsində gəzib-dolaşdıq...

Dostlar! Gəlin gəzək öz yurdumuzu,
Vurğunun ruhunu şad edək biz də.
Duya bilməsək də o duyduğunu,
Yaşadaq Vurğunu ürəyimizdə!..

Qazax – Dilican   dərəsi,
avqust  1976

**ZEYNAL XƏLİL**

## SIRAMIZDA QALDI O

- Öldürdü lap bu dərd bizi,
Lap sındırdı belimizi –
Söylədin sən gözlərinin
Giləsini sıxa-sıxa,
Göz yaşını əlindəki
Bir yaylığa yığa-yığa.
Mənsə dalınca pəncərədən
Uzaqlara elə bu dəm,
Gözlərimiz qabağında
Gəlib durdu başqa dünya,
Başqa varlıq, başqa aləm;
Gördüm Vətən laləzardır,
Qonmuş yerə ətirli yaz...
Kür qırağı, ata yurdu...
Əvvəlki tək ötür bir saz!..
Sən dedin ki, eşitmərik
Bir də onun xoş səsini,
Dedin: bir də duymarıq biz
Onun isti nəfəsini.
Mənsə durub elə bu an
Yerə-göyə baxan zaman
Onun yoldaş,
Onun qardaş,
Onun insan,
Onun şair nəfəsini
Şirin həyat nəğməsini
Gördüm milyon insanların
Milyon səsli dodağında,
Dənizlərin dalğasında,
Ağacların budağında!
Sən dedin ki: Səməd bir də
Olmayacaq aramızda.
Mənsə dedim: Yalandır bu!
Ölməz şair! Ölməz sənət!

Ölməz daim insan deyən
Həyat adlı əbədiyyət!
O, çaxdı bir ildırım tək
Bizim dağlar qucağında,
O, qaldı bir alov kimi
Babaların ocağında!
Daim olmuş, olacaqdır –
Onun özü – sıramızda,
Onun sözü – sıramızda,
Olacaqdır yazan əli,
Görən gözü – sıramızda!
Biz onunla döyüşlərdə
Hələ əsər yazacağıq.
Biz ölümə, fəlakətə
Bir son məzar qazacağıq!
Əlimizdə olacaqdır
Əllərinin hərarəti,
Nədir ölüm? Nədir hicran?
Burax, dostum, bu söhbəti.

*ZƏKİ İSLAM*

**SƏNİ**

*( S.Vurğunun əziz xatirəsinə )*

Toplamış başına qara buludu,
Unutmaz xəyaldan Dəlidağ səni.
Bax ana Vətənim, Azəri yurdu,
Tanıdı, eloğlu, üzüağ səni.

Şəmşir də saz ilə o dağdan keçdi,
Ceyran bulağından qızlar da içdi.
Bir gün dedilər ki, Vurğun da köçdü,
Sanıram qəlbimdə hələ sağ səni.

Ey dillər əzbəri, şeir bağbanı,
Ağlayır məzarın, bəs səsi hanı?
Sən şeir yazmağa – kimin gümanı
Gəlir ki, söyləsin bir oyaq səni...

Mərhum mənasında mən yazsam əgər,
Obanın, mahalın xətrinə dəyər.
Hürküşər çöllərdə ceyran inciyər,
Sanıram keşikdə uca dağ səni.

Bizimlə yaşaya şair xəyalı,
Ovçu hürkütməsin yorğun maralı.
Zəki, sən şeirindən düşsən aralı,
Sanarmı qələmin bir mayak səni.

***Zülfiyyə***
*Özbəkistan*

## *BİR DƏNƏ PAPİROS*

Səməd Vurğunun ev muzeyində
şairin son dəfə çəkdiyi yarımçıq
papiros saxlanılır

Tütündən qaçaqdım başdan-binadan,
Hətta qınayardım qəlyan çəkəni.
Masanın üstündə yarımçıq qalan
Bir dənə papiros kövrəltdi məni.

Ürək sevməyəni göz necə istər?!
Qəlbimdə, gözümdə dəyişdi həvəs.
Mənə tütün göstər, cığara göstər –
Bunca əziz olsun, bunca müqəddəs!

Dünyadan quş kimi uçarmış insan,
Qəribə aləmdir, qəribə gərdiş.
Bir sirli dodağa toxunduğundan
Zəhər şirinləşib bala dönərmiş.

Qəlbində intizar, gözündə maraq
Onunla öpüşüb ömrün sonunda.
Papirosda olan etibara bax:
Yarımçıq qalıbdı ömrü onun da.

Bəlkə də qəzaya düşərək o vaxt –
Yanıb... yanmaz olub yarısında o.
Görəsən nə qədər çırpınıb, ey vah,
Şairlə əcəlin arasında o?!.

Yarımçıq papiros gör nələr deyir,
Təkcə od sönməyib onun qorunda.
Ey sözün xaqanı, sərrafı şair,
Neçə nəğmə sönüb dodaqlarında?!

Əriyib bir anda ulduzlar kimi,
Bəlkə də min sözün ülkəri batdı...
Yarımçıq papiros sıxır qəlbimi –
Bu nə nişanədi, nə xatiratdı!!.

Sənin dodağında sönən papiros
Qaraldı əbədi, keçdi əbədi.
Amma dodağından qatarlanan söz
Oldu könüllərin işıq məbədi.

**VURĞUNUM**

Şerimizə səhər vaxtı, dan yeri,
Gözümüzə çıraq olub Vurğunum!
Dəniz ömrü damla-damla paylanıb,
Hər sinədə bulaq olub Vurğunum!

Söhbət şirin, ülfət şirin, dəm şirin,
Telli sazda zil gözəldi, bəm şirin.
Hikmətini eşidəndə Şəmşirin,
Dəlidağda bir dağ olub Vurğunum!

Ellər gəzib, süfrəsini bol açıb,
Ürəklərə səxavətdən yol açıb,
Hər körpəyə ata kimi qol açıb,
Hər anaya uşaq olub Vurğunum!

Pirə dönüb ömrün oğlan yaşında,
Loğmanıydı torpağın da, daşın da,
Elə yanıb hər kəlmənin başında,
Müqəddəs bir ocaq olub Vurğunum!

## SƏMƏD VURĞUNUN ƏZİZ XATİRƏSİNƏ

Meşələr, oylaqlar, o buz bulaqlar
Vurğunun daima yurd yeri olub.
Həyatda çətinə, dara düşənlər
Dərdini həmişəVurğunla bölüb.

Uçan turaclar da, qaçan ceyran da
Baş əyir, adına-Vurğun deyəndə.
Şəlalə çağlayır, çaylar gurlayır,
Vurğundan bir kəlmə şeir deyəndə.

Həm şeir, həm şair sənət dünyalı
Vurğunla yaşayır Qazax mahalı.
Gəl məndən soruşma, dağlar maralı,
Vurğunsuz sinəmiz olub yaralı.

**ZİVƏR AĞAYEVA**

QALIBDIR

Muğandan keçmisən, Mildən ötmüsən,
Ceyranlar hürküşüb, izi qalıbdır.
Mənzilə çatanda ocaq çatmısan,
Tüstüsü çəkilib, közü qalıbdır.

Aran həsrətlidir, dağ niskillidir,
Qırqovul pərişan, turac dillidir,
Ağ saçlı ananın bax neçə ildir,
Yollarda, izlərdə gözü qalıbdır.

Gəzdim oymaq-oymaq el, obasında,
Nəfəsini duydum saz havasında.
Şeir dünyasında, söz dünyasında,
Ulduz karvanı tək sözü qalıbdır.